# CƏNUBİ AMERİKA ÖLKƏLƏRİNDƏ DİN

## (mühazirə mətnləri)

**Müəllim: Ələsgərova Sara**







**2022**

**Din və məzhəb anlayışı, dinin qruplara bölünməsi**

Çağdaş c-əmiyyətdə insanları birləşdirən və insanlara böyük təsir gücü olan ən böyük, ən geniş vüsət almış fəaliyyət növləri hansılardır? Üç böyük fəaliyyət şəbəkəsinin varlığı aydındır: təhsil, din və media-əyləncə. Demək olar ki, hər kəs, hər ailə müəyyən şəkildə təhsillə bağlıdır. Hər kəs televiziya, radio, qəzet, jurnal, internet kimi informasiya qaynaqları və əyləncə növlərindən istifadə edir. Allah, peyğəmbər, axirət, dini anlayış, dəyər və ibadətlər hər kəsin həyatında, sözündə-söhbətində bu və ya digər dərəcədə yer tutur. Bu üç şəbəkə bir-biri ilə də bağlıdır. Yazının və savadlılığın yayılmasında, təhsilin inkişafında din həlledici rol oynamışdır. İslam dünyasında məktəbləşmənin necə getdiyini, mədrəsələrin necə qurulduğunu yada salmaq kifayətdir. Təhsilin dinə təsiri olub, bu təsir indi də var və birqiymətli deyil. Elm şəbəkəsi də nüfuzludur, lakin onun əhatə dairəsi nisbətən kiçikdir. Elm və din arasındakı ziddiyyətlər bir tərəfdən onların fərqli təbiəti və öz problemlərinə yanaşma sistemi ilə bağlıdır, digər tərəfdən isə, bu qarşıdurmaların ən azı bir qismi şəxsi hakimiyyət və dini hakimiyyət uğrunda gedən mübarizədən qaynaqlanmışdır. Dinin siyasət və təhsilə birbaşa nüfuz etməsini dayandıran, dini siyasətdən ayıran Dünyəvilik (sekularlıq) isə 16-17-ci əsrlərdə Qərb dünyasında həddini aşan dini zorakılığa etirazın və həmçinin, elmi-texniki tərəqqinin nəticəsində baş tutdu. Elm və texnologiya inkişaf etdikcə, sanki dinin təsir dairəsi daralmışdır. Lakin, ümumi mənzərədən görünən odur ki, elm dini əvəz edə bilməyəcək, din yox olan deyil; insanların böyük qisminə inanmaq bilik qazanmaqdan daha asan və maraqlı gəlir, inanmaq elmi-tənqidi düşüncədən daha əlçatan, asanbaşa-düşülən və cazibəlidir. Gerçəklikdən xilas üçün xəyal etmək, ümid bəsləmək, gələcəyi öngörmək, proqnozlaşdırmaq istəyir insan. Din bu istəyə çatdıra bilir. Dinlər aradan qalxmadı və həmçinin, “universal din” yaranmadı. Qərarlı inanc sisteminə malik çox müxtəlif və inkişaf etmiş mədəni cəmiyyətləri hansısa universal bir din yaratmaqla birləşdirmək fikri utopiyadan başqa bir şey deyil. Bunun əvəzinə ümumbəşəri dəyərlərdən, ədalətdən, humanizmdən danışmaq olar. Əslində universal din rolunu oynamağa əsas namizəd məhz elm ola bilərdi. Elmi düşüncənin çox əlçatan

olmaması v ə kütləni arxasınca apara bilməməsi elmin dinə çevrilə bilməməsini, “elmi din”in daşıyıcılarının az saylı qalmasını şərtləndirir. Hans-Georg Gadamer elmin daim isbat tələb etməsini onun xoşqılıqlı (tolerant) olmaması kimi şərh edirdi (xüsusilə dinə, fəlsəfə və dünyagörüşünə qarşı). Dinlə tanışlıq çox erkən, kitab və elm dünyası ilə yaxın tanışlıqdan çox daha əvvəl başlanılır. Uşaq öz ailəsi və ətraf mühitin təsiri ilə, onları nümunə götürmək və müəyyən dərəcədə təqlid etməklə mənəvi-mədəni dəyərləri, o cümlədən dini anlayışları anlamağa və mənimsəməyə başlayır. İnsanın dinə münasibəti, dindarlığı və ya möminliyi onun tərbiyəsindən, böyüdüyü və yaşadığı mühitdən qaynaqlanır, peşəsindən və digər keyfiyyətlərdən qidalanır. Dini və mədəni duyğuların dünyaya göz açan uşaqla bir doğulduğu, bu duyğuların fitri olduğu isə yanlışdır. Yetkinləşmiş insanın dünyagörüşü və dini baxışları ciddi surətdə dəyişmir, onlar davamlı, qərarlı, oturmuş inanc, bilik, etiqad və duyğular küllisi üzərində formalaşır. Hər bir insan öz sosial və fərdi təcrübəsində din və təmas etdiyi digər mədəni sistemlərlə tanış olur və əlbəttə ki, o, bu təcrübə haqqında, bu tanışlığın necə baş verdiyi barədə söhbət açmaq iqtidarındadır. Bəlli sosial-siyasi mühitdə böyümüş bir uşağın, dünyəvi təhsil alan bir şagird və tələbənin, təbiəti və cəmiyyəti öyrənmək və tədqiq etməklə məşğul olan bir elm adamının dini təsəvvürləri, dinə və dindarlara münasibəti nə qədər fərdi xarakter daşısa da, cəmiyyətin böyük bir qrupunda sxematik olsa da, din haqqında ümümi, ortaq uyğun təsəvvür və münasibət var. Din sülhə və ədalətə çağırır, zəifə maddi və mənəvi kömək etməyi tövsiyə edir, güclünün zəifi bağışlamasını istəyir, pis əməllərdən çəkindirir, qorxudur, əxlaqı saflaşdırır. Bu çox yaxşıdır. Xüsusilə, iradəsi zəif olan insanlara, yolunu çaşanlara, tövbə etmək istəyənlərə din əlini uzadır, onların ayaq üstə qalxmasına kömək edir. Ümidsizlik, tənhalıq və ruh düşkünlüyü olan insanlar əyləncəyə, həzzə, hay-küyə can atırlar, bu halda din sadəliyə, mənəviyyata, sakitliyə səsləyən alternativ cazibə məkanı kimi ortaya çıxır. Din ləyaqəti qorumağa, əldə olunan və mümkün olanla qane olmağa çağırır. Din mənəvi həzzi maddiyyətdən daha yüksək saymaqla insanların özlərini xoşbəxt hiss etmələrinə kömək edir.

***Dinin tərifi.*** Dinin vahid tərifi yoxdur. Alimlər dinlər barəsində tərif vermək üçün onların müştərək cəhətləri ətrafında araşdırmalar aparmışlar, amma onların bu səyləri heç bir nəticə vermədən başa çatmışdır. Elə bu səbəbdən də, dinlə bağlı səksəndən artıq təriflər verilmişdir, amma onların heç birisini tam və dolğun adlandırmaq olmaz. Məsələn; dinə "Allahın varlığına inam və bu iman qanunlarına itaət etmək" kimi tərif verilməsi Buddism dini qanunları və şəriətilə üst-üstə düşmür. Bəzilərinin verdiyi tərifə əsasən isə "Din, müqəddəs əmrə inanmaq və etiqadlı olmaq" mənasındadır. Bəzi insanlar isə ilahi varlıqlara iman kimi tərif etməyə çalışmışlar. Başqa bir dəstə alim belə bir iddia ilə çıxış etmişlər ki, "Din itaət və ibadətə layiq bir və ya bir neçə fövqəlbəşər və ilahi varlığa imandır!"

***Məzhəb nədir?***

Keçmişdə məzhəb hər hansı bir dinin daxilində mövcud olan düşüncə məktəblərinə şamil edilirdi. (Məsələn: İslam fiqhinin dörd dənəli və beş dənəli məzhəbləri). Qərb ölkələrində "Religion" sözü həm məzhəb, həm də din mənasında istifadə olunur və təxminən yarım əsrə yaxındır ki, İranda da "Məzhəb" sözünü hər iki mənada istifadə olunmasına başlanılıb. Müxtəlif ideologiyalar dinin daşıdığı missiyanı, vəzifəni müəyyən dərəcədə əvəz etməyə çalışmışlar. Filosoflar və digər mütəfəkkirlər tərəfindən çox fərziyyələr irəli sürülmüş, cəmiyyət modelləri yaradılmış, ideologiyaya çevrilməyən nəzəriyyələr sadəcə utopiya sayılmışlar. Böyük insan toplumunda tətbiqini tapan bütün dini ideologiyalar xüsusi "düzgün" həyat tərzi bəyan edir və həmin toplumu qətiyyətlə bu həyat tərzinə, əxlaq kodeksinə uyğunlaşmağa çağırır, yəni bir növ üzərinə öhdəlik kimi qoyaraq məcbur edir.

***Dinə münasibətlər də tarix boyu birmənalı olmayıb.***

Həyata keçirilmiş ideologiyalardan biri (və ən güclüsü) olan Marksizmə görə din insanı sosial problemlərdən yayındıran, maddi olan dünyada insanlara xəyali bir inanc sistemi quran ziyankardır, "din xalq üçün tiryəkdir". Kommunist ideologiyalı dövlətlər də, dinlər kimi, onları qəbul etməyənləri, onlara şübhə ilə yanaşanları təqib etmiş, əzmiş, məhv etmişlər. Din kimi Marksizm də əxlaq normaları işləyib

hazırlamış, tarixin və insanlığın məqsədini və inkişaf yolunu elan etmiş, bu yolda təşkilati fəaliyyətə xüsusi yer ayırmışdı; kommunust partiyası dini qurumu, kilsəni, xəlifəliyi, Papalığı əvəz etmişdi. Kommunizmi, geniş mənada, bir din kimi təqdim edənlər var; universallığa iddialı bu din digər dinlərlə yola gedə bilməzdi, ona görə də ateizmi öz ideologiyasının təməlində yerləşdirmişdi.

Din digər fenomenlər kimi təkamül yolunda inkişaf etməkdədir və alimlər müxtəlif dinlərin davamçıları kimi bu nəzərlə razıdırlar. Yalnız bir sahədə onların nəzərləri arasında fərq gözə çarpır və o da bundan ibarətdir ki, dindarlar dini insanı təkamülə doğru inkişaf etdirən fenomen kimi qəbul edirlər. Amma, alimlərin nəzərincə din cadugərlikdən, təbiətə pərəstişdən və müşriklikdən tövhid və tək Allahlılıq mərhələsinə çatmışdır. Hal-hazırda da, dünyanın bir çox bölgələrində ilk yaranmış dinlərin ilkin formaları qalmaqdadır və tədqiqatçılar dinin meydana çıxması və təkamülü barəsində araşdırma qeyd olunmuş məsələləri diqqət mərkəzində saxlayırlar. Dinlər sahəsində çalışan və tədqiqat aparan alimlərin apardığı tədqiqatlar və əldə etdikləri nəticələr bütün din alimləri tərəfindən qəbul edilmir.

## Dinlərin qruplara bölünməsi

Dinləri müxtəlif cəhətlərinə görə qruplaşdırmaq olar:

**İbtidai dinlər** (İbtidai insanlar arasında mövcud olan dinlər kimi)

**Qədim dinlər** (Yaxın şərqdə mövcud olmuş və hal-hazırda mövcud olmayan dinlər kimi) və **İnkişaf etmiş dinlər** (hal-hazırda mövcud olan böyük dinlər)

**Sadə dinlər** (Animizm, Totemizm və Fetişizm kimi)

**Fəlsəfi dinlər** (Hiduizm, Buddizm və Konfusizm kimi) və **İlahi və Ruhani dinlər** (Zərdüştlük, Yəhudilik, Xristyanlıq və İslam kimi)

**Qeyri-Tövhidi dinlər** (Hinduizm, Buddizm və Sintoizm) və **Tövhidi dinlər** (Yəhudilik, Xristyanlıq və İslam)

**Sam qövmünə və Həzrət İbrahimə (ə) bağlanan dinlər** (Yəhudilik, Xristyanlıq və İslam), **Aryayi dinlər** (Qədim İran, Hindistan, Roma və Yunanıstan dinləri), **Uzaq şərq dinləri** (Konfusizm, tatuizm və Sintoizm kimi)

**Şərq dinləri** (Hinduizm, Buddizm və Sintoizm kimi) və **Qərb dinləri** (Yəhudilik, Xristyanlıq və İslam kimi)

Dünyada müxtəlif dinləri mövcud olmasını nəzərə alsaq həmin dinlərin düzgünlüyü barəsində üç məşhur baxış tərzi mövcuddur:

1. **Dini xaricedicilik (Exclusivism)**-İlahi peyğəmbərlərin və müqəddəs kitabların öz dinlərinin düzgün olması və başqa dinlərin səhv olması sahəsindəki baxışı. Bu baxışa əsasən özündən əvvəlki silsiləvi dinlər hamısı qəbul olunurlar. Eləcə də, həmin dinlərin davamçılarının öz dinlərinə inanmaları da toxunulmaz qala bilər və sonuncu olaraq gəlmiş din özündən əvvəllki dinlərin davamçılarına xüsusi imtiyazlar da nəzərdə tuta bilər. Amma ən düzgün din kimi özündən savayı heç bir dini qəbul edə bilməz.

2. **Dini çoxluqçuluq (Pluralism)**-Bəzi sufilərin və irfan əhlinin bütün dinlərin düzgünlüyü barəsindəki baxışları. Belə arif və sufilərin nəzərincə bütün dinlər düzgündür, heç birində səhvlik yoxdur və sonda onların hamısı insani xilas edəcəklər. Hal-hazırda yaşayan bəzi mütəfəkkirlər və ziyalılar da sufilərin bu baxışlarını modernləşdirərək yaymağa başladılar. Bəziləri yalnız öz dininin haqq və düzgün olması məsələsini qəbul edərək dingər dinlərin düzgün olmasını öz dini ilə olan oxşarlıqlar çərçivəsində qəbul edirlər. Qeyd etmək lazımdır ki, belə baxış tərzini ən çox yayılmış baxış kimi birinci gətirmək lazımdır. (Dini əhatəedicilik-İncluivism)

3. Ateistlərin və deistlərin bütün dinlərin düzgün olmaması və başqa bir dünyanın mövcud olmaması və yaxud bu dünya ilə heç bir əlaqəsi olmaması baxışları.

## İbtidai insanlarda din

Din barəsində mövcud olan ilk nümunələr təbiətə sitayiş əqidəsinə qayıdır. Dünyanın ən ucqar yerlərində və ən uzaq bölgələrində ibtidai formada yaşayan insanlar arasında bu əqidəyə olan bağlılıqlar hələ də mövcuddur. Təbiətə sitayiş əqidəsində təbətin gücünü ram etməkdən ötrü ilk olaraq həmin qüvvəyə ibadət etmək və onlardan ehsan etmələrini istəmək lazımdır. Hal-hazırda mövcud olan və ibtidai formada yaşayan insanlar arasında müxtəlif dini mərasimlər mövcuddur. Belə mərasimlərdə qəribə geyimlər geyilir, üzlərə maskalar taxılır və ritmik hərəkətlər nümayiş etdirilməyə başlanılır. Eləcə də, həmin mərasimlərdə təbiət qüvvələrindən kömək istənilir. Buludlardan yağış yağması, çaylardan tüğyan etmədən və tufan qoparmadan onların susuzluqlarını yatırtması, torpaqdan yaşıllıq yaratması, tarla və ağaclardan daha yaxşı və daha çox məhsul verməlіri və sair şeylər istənilir. İbtidai insanların sitayiş etdiyi dinlərdə Tanrıya şərik qoşmaq kimi şirk əməllərinə tez-tez rastlanır. Araşdırmalar o dövrlərdə bəşəriyyətin daim Tanrıya şərik qoşmaq çirkabına bulandığı göstərir. Hal-hazırda da təxminən dünya əhalisinin yarısı Hinduizm, Çaynizm, Buddizm, Sintoizm və qeyri dinlərdə bütlərə sitayiş edilir. **Sosioloqlar Tanrıya şərik qoşan dinlərin tarixinin təkallahlıq** dinlərindən daha keçmişə qayıtdığını bildirirlər.

***Ölümdən qorxu*** ibtidai icma quruluşunda yaşayan insanların müxtəlif xürafati düşüncələr yaratması ilə nəticələndi. Elə bu səbəbdən də, həmin xalqlar ölülərlə dirilər arasındakı əlaqələr sahəsində xüsusi əqidəyə malik idilər. Qədim zamanlarda yaşayan xalqların böyük əksəriyyəti əcdadlarının geri qayıtmalarında qorxurdular və elə buna görə də, ölüləri kəndirlə bağlayırdılar və qəbirləri möhkəmləşdirirdilər ki, bu yolla onların geri qayıtmalarına əngəl törədə bilsinlər. Ölülərdən olan qorxu sonralar ölülərə qarşı hörmət və ehtirama çevrildi və sonda əcdadlara sitayiş ideologiyasının yaranması ilə başa çatdı. Bu növ sitayiş forması tarix boyu dünyanın bir çox yerlərində mövcud olmuşdur və hal-hazırda da Yaponiyada bunun nümunələrinə rast gəlmək mümkündür. Onların nəzərincə bütlər əcdadlarının heykəllərində yerləşmişlər.

**Cadu**

İbtidai dinlərdə mövcud olan cadu anlamı ilə bizim təsəvvür etdiyimiz cadu anlamı arasında fərq çoxdur. Həmin dinlərdə cadu təbii qüvvələrdən kömək və yardım üçün həyata keçirilən xüsusi mərasim mənasını daşıyırdı. Belə mərasimlərin həyata keçirilməsində cadugərlər fəaliyyət göstərir və mərasimin keçirilməsini öz üzərinə götürürdülər. İbtidai icmalarda elm və savad məsələsinin məna kəsb etməməsi üçün bu şəxslərin də digərlərindən heç bir fərqi yox idi və yalnız bu şəxslərdə olan qeyri-adi qüvvəyə hamının inanması onları digər insanlardan fərqləndirirdi. Cadugərlər xəstələri müalicə etmək üçün də öz qüvvələrindən istifadə edirdilər. Belə cadugərləri çox vaxt ***şaman*** adlandırırdılar. Cadugərlər özlərini çətin və dözülməz şəraitlərdə saxlamaqla özlərinə əzab verirdilər, çox vaxt bədənlərində xüsusi nişanələr əmələ gətirirdilər və bəzən də, özlərini axtalayırdılar.

**Qurban kəsmək.**

Dünyanın hər bir yerində yaşayan xalqlar arasında Tanrı və yaxud Tanrıların qəzəbini söndürmək üçün "Qurban etmək" mərasimi mövcuddur. Həmin qurbanlar meyvə, tərəvəz və məhsul hədiyyə etməkdən, heyvanların, uşaqların və böyüklərin başlarının kəsilməsindən, uşaqların oda atılmasından və bunlara bənzər digər işlərdən ibarətdir. Onlar çox vaxtlar öz ölkələrinin əhalisinin azalmamasına görə digər ölkələrə hücum edirdilər. Bəzi xalqlar arasında bütlərə hörmət əlaməti olaraq öz namus və iffətini qurban vermək (Hieroduoleia) kimi mərasimlər də mövcud idi. Hətta hal-hazırda da Hindistan qadınları Vişnu məbədində saçlarını tam kəsdirməklə öz gözəlliklərini həmin bütə qurban verirlər. Sonralar insanların qurban edilməsi adəti aradan götürüldü və yalnız heyvanların qurban kimi kəsilməsi adəti qaldı. Amma, yaxın zamanlara qədər bəzi yerlərdə insanların qurban edilməsi adəti hələ də qalmışdı. Artıq heç bir ölkənin qanunları belə vəhşiliklərin həyata keçirilməsinə icazə vermir. Bəzən kütləvi informasiya vasitələrində Hindistanın bəzi kəndlərində və digər yerlərdə bir bütpərəstin polisin gözündən yayınaraq öz övladını büt üçün qurban kəsməsi, yaxud kəsmək istərkən başqalarının bu işə əngəl törətməsi xəbərləri

gözə çarpır. Qeyd etmək lazımdır ki, hal-hazırda belə cinayət törədən şəxslər ağır cəzalandırılırlar.

**Totemlər**

İbtidai dinlərdə hər bir qəbilənin Totemi həmin qəbiləni qoruyan nişan və yaxud əlamət mənasını daşıyırdı. Bu əlamət heyvan, bitgi və daş növü də ola bilər. Bir çox xalqların arasında böyük hörmət və ehtirama layiq heyvan növləri mövcuddur və bir çox hallarda həmin heyvanların təsvirləri ölkələrin bayraqları üzərində öz əksini tapmışdır. Müxtəlif xalqların tarixinə müraciət etdikcə Afrikada şirə, Hindistanda pələngə, Şimali Amerikada qartal, ayı və itə, Yunanıstanda və Misirdə öküzə, Hindistan, Afrika və Skandinaviya yarımadasında yerləşən ölkələrdə inəyə, Hindistanın cənub bölgələrində camışa, Avstraliyada kenquruya sitayiş edildiyini müşahidə edə bilərik və həmin heyvanların adları çəkilən xalqların Totemi olmasını anlaya bilərik. Hələ də bir çox xalqlar göyərçini və ilanı müqəddəs sanırlar. Qeyd etmək lazımdır ki, “Totem” sözü Amerikanın yerli əhalisi olan qırmızıdərililərin dilindən götürülmüşdür.

**Tabu**

Tabu hər bir qəbilənin evlilik və qidalanma sahələrində qoyduğu qadağalardır. Hər hansı bir qəbilənin yalnız qəbilədaxili evliliyə icazə verməsi və digər qəbilələrlə qohumluq əlaqələrinin yaranmasının haram bilinməsi və yaxud iddanın tam tərsinəsi mümkündür. İkinci halda qəbilə üzvləri həyat yoldaşı tapmaq üçün başqa qəbilələrə müraciət etmək məcburiyyətində qalır. Qidalanma sahəsindəki Tabu belə məna daşıyır ki, hər bir kəs öz yeməyini özü əldə etməli və onu təklikdə yeməli idi. Tabu sözü Polineziya adalarında yaşayan ibtidai xalqların dilindən götürülmüşdür.

***Animizm***

Bir çox xalqların antik din və məzhəbləri Animizm olmuşdur. Bu əqidəyə əsasən təbiətdə olan bütün şeylərdə ruh və güc vardır. Bu ruh və gücdən yararlanmaq üçün onlara sitayiş etmək lazımdır. Torpağın, səmanın, səma cisimlərinin, alovun,

ildırımın, şımşəyin, buludun, dənizin, çayın, tufanın, meşənin, bitgilərin və heyvanların, xüsusən də inəyin, kobra ilanının, eləcə də qəbilə Toteminə, əcdadların ruhuna inanmaqla yanaşı cin və şeytan kimi qorxulu mövcudlardan gücündən istifadə etmək qədim xalqların arasında geniş yayılmışdır.

***Fetişizm***

Fetiş Portuqal dilindən alınma sözdür və cadu mənasını daşıyır. Fetişizmə olan böyük etiqad, yəni daxilindəki cadu qüvvəsi mövcud maddi şeylərə olan ehtiram ibtidai insanlar arasında müşahidə olunur. Bu şeylər çox vaxt daşlardan və mədənlərdən əldə edilmiş maddələrdən olur və həmin qövmlərin əqidəsinə görə qeyd olunmuş əşyaların daim insanın yanında olması ona xoşbəxtlik gətirir.

## Dinin sosiologiyası

Dinin sosiologiyası sosial institut olan dini, onun genezisini (törəmə), cəmiyyətdə yerini və rolunu öyrənir, onun meydana gəlməsinin, fəaliyyətinin, tarixi təkamülünün sosial qanunauyğunluqlarını, digər sosial institutlarla qarşılıqlı əlaqə və təsirini üzə çıxarır.

Dinin sosial mahiyyəti və təbiəti barəsində təlim dinin sosioloji nəzəriyyəsinin əsasını təşkil edir. Din xüsusi təsəvvürlərin, etiqadların sistemidir. Bu təsəvvürlər, etiqadlar həmişə emosional yaşantılarla, hisslərlə və xüsusi dini - kult fəaliyyəti ilə, habelə dini təşkilatla (məbədlər, kultu icra edənlər - ruhanilər, dindarlar) müşayiət olunur. Bundan əlavə, adətən dində mənəvi-etik normaların və tapşırıqların müəyyən toplusu da öz əksini tapır. Göründüyü kimi, din müxtəlif ünsürlərin mürəkkəb kompleksi kimi çıxış edir. Bu kompleksdə etiqadlar və emosional yaşantılar mərkəzi yer tutur.

Qərbdə dinin sosiologiyasının baniləri **E. Dürkheym və M. Veber** hesab olunur. Dinin «kollektiv təsəvvür» kimi funksional baxımdan öyrənilməsi ənənəsi Dürkheymlə bağlıdır. Dürkheymə görə, din cəmiyyətin sıx birləşməsinin, fərdlə

sosial bütöv arasında əlaqələrin qərarlaşmasının əsas vasitəsidir. M. Veberlə bağlı olan ənənə isə dini hər şeydən əvvəl sosial fəaliyyətin motivi kimi şərh edir, bu və ya digər ictimai dəyişiklik prosesində onun rolunu aşkara çıxarır.

*Qərbin din sosiologiyasında dini fenomenlərin öyrənilməsində iki səviyyəni ayırd etmək olar:*

*a) nəzəri səviyyə - dini bütöv altsistem kimi nəzərdən keçirir və onun digər sosial strukturlarla qarşılıqlı təsirini üzə çıxarır;*

*b) empirik səviyyə - sosial-demoqrafik qrupların, ayrıca şəxsiyyətlərin dindarlığını öyrənməyi təklif edir.*

Nəzəri səviyyədə bir neçə cərəyan mövcuddur. Bunların içərisində XX əsrin 70-ci illərinə qədər funksional məktəb üstün olmuşdur. Bu cərəyanın nümayəndələri (T. Dia, L. Şnayder, M. Zinqer və s.) funksionalizmin ümumi nəzəri prinsiplərinə istinad edərək, onları dinin öyrənilməsinə tətbiq etməyə səy göstərmişlər. Onların fikrincə, din etiqadlar, normalar və dəyərlər sistemi yaradır ki, bunlar da cəmiyyət üzvlərini sıx birləşdirir, onun bütövlüyünü, birliyini təmin edir. Dürkheymin ardınca funksionistlər dini cəmiyyəti inteqrasiya edən çox mühüm amil hesab edirlər. Onlar dinin funksiyalarına xüsusi yer ayırırdılar.

60-cı illərin sonu - 70-ci illərin əvvəlində Qərbin din sosiologiyasında fenomenoloji istiqamətin nümayəndələri (xüsusən Amerika sosioloqu P. Berger və Almaniya sosioloqu T. Lukman) daha əhəmiyyətli mövqelər qazandılar. Onlar E. Husserlin bəzi fəlsəfi müddəalarına istinad edərək, cəmiyyəti və sosial institutları insanların intersubyektiv şüurunun məhsulu kimi nəzərdən keçirirlər. Onlar «sosial reallıqların» plyuralizmini ön plana çəkir, «gündəlik həyat reallığını» başlıca reallıq elan edirlər; bu reallığın üzərində elm, incəsənət, din və fəlsəfədən ibarət olan «simvolik universumlar» sistemi yüksəlir.

Din dini ideyaları, təsisatları, təşkilatları, insanların dini fəaliyyətində meydana gələn münasibətləri əhatə edir. Ona görə də **dinin strukturunu üç** başlıca komponentdən ibarət olan sistem kimi təsəvvür etmək olar:

1. **dini şüur**
2. **dini fəaliyyət**

3. **dini təşkilatlar**

Dini şüur ictimai şüurun spesifık formasıdır; ***Dini şüur*** nisbi müstəqilliyə malikdir, onun öz inkişaf məntiqi vardır. O, ***dini ideologiyanı və psixologiyanı*** əhatə edir. Dini ideologiya ən əvvəl din fəlsəfəsini nəzərdə tutur. Din fəlsəfəsi dünya, təbiət, cəmiyyət və insan haqqında dini müddəaların məcmusu kimi çıxış edir. Dini ideologiya din fəlsəfəsi ilə yanaşı teologiyanı və dini istiqamətli müxtəlif cür iqtisadi, siyasi, hüquqi nəzəriyyələri özündə birləşdirir. Dini psixologiya isə dini nümunələrin, ideyaların, təsəvvürlərin, emosiyaların, əhval-ruhiyyələrin və s. spesifik sintezidir. Dini psixologiyanın varisliyində adət və ənənələrin rolu böyükdür. Yeri gəlmişkən qeyd edək ki, dini şüurun hər iki səviyyəsi (ideologiya və psixologiya) qarşılıqlı surətdə bir - birinə təsir göstərir. Mütəxəssislər bu təsir prosesində dini psixologiyanın aparıcı, müəyyənedici rolunu qeyd edirlər.

Dini şüur dini fəaliyyətdə təzahür edir. Bu ***fəaliyyətin isə kult və kultdankənar formaları mövcuddur.*** Dini kult dini inamların reallaşdırılması səyidir. Kult xüsusi hərəkətlər sistemidir; həmin hərəkətlərin köməyi ilə insanlar fövqəltəbii varlığa, onların inamının predmeti olan münasibətlərə təsir göstərməyə çalışırlar.

Adətən kultun iki növünü ayırd edirlər: *magiya və rəhm dilənən kult*. Magiya real surətdə mövcud olan, müəyyən xassə və əlaqələrə malik olması güman edilən predmetlərə təsiri nəzərdə tutur. Rəhm dilənən kultda yüksək varlığın, yəni allahın obrazı əsasdır. Bu kultun müxtəlif formaları mövcuddur: dini mərasimlər, qurban kəsmə, dua, dini bayramlar və s. Kultdankənar fəaliyyət mənəvi və praktik sferalarda həyata keçirilir. Dini ideyaların işlənib hazırlanması, teologiya müddəalarının sistemləşdirilməsi və şərhi, ilahiyyat əsərlərinin yaradılması - bütün bunlar, kultdankənar mənəvi dini fəaliyyəti təşkil edir. Praktik dini fəaliyyətə isə missionerlik fəaliyyəti, ilahiyyat fənlərinin tədrisi, dini təşkilatlarda və institutlarda idarəetmə fəaliyyəti, dini təbliğat və s. aiddir.

Dinin spesifikası dini münasibətlərdə də özünü göstərir. Dini münasibətlər sosial münasibətlərin tərkib hissəsi olub, insanların dini fəaliyyəti prosesində onların dini şüuruna uyğun olaraq təşəkkül tapır. Dini fəaliyyətin növündən asılı olaraq, bu

münasibətləri kult və kultdankənar münasibətlər kimi nəzərdən keçirmək olar. İctimai münasibətlər sistemində həmin münasibətlərin vəziyyəti və yayılması dinin cəmiyyətdəki digər institutlar içərisində tutduğu yerlə, onun ictimai həyat sferalarına təsiri ilə bilavasitə bağlıdır.

Əhalinin dindarlıq səviyyəsi dini münasibətlərin vəziyyətinin çox mühüm xarakteristikasıdır. Adətən dindarlıq anlayışı insana xas olan və onun fövqəltəbii varlığa inamında, itaətində təzahür edən müəyyən əlamətlərin məcmusunu ifadə edir. Dindarlığın dərəcəsini, səviyyəsini, xarakterini müəyyən etmək üçün dini şüurun, dini davranışın müxtəlif göstəricilərindən istifadə olunur, fərdin və ya qrupun dini əsasda daxil olduğu, qoşulduğu münasibətlər təhlil edilir. Bu halda dindarlığın dərəcəsi onu göstərir ki, dinin ayrıca şəxsə, sosial qrupa təsiri necədir; dindarlığın səviyyəsi onu göstərir ki, məlum regionda, sosial - qrupda dindar və qeyri-dindar əhalinin nisbəti necədir; dindarlığın xarakteri isə bu və ya digər dini konfessiyanın, sosial qrupların dindarlığının spesifikasını, fərqini üzə çıxarır.
Aparılmış sosioloji tədqiqatların nəticələrinə əsasən qeyd etmək olar ki, dinin xalqın mədəniyyətinə, adət və ənənələrinə nüfuzu insanların daha geniş dairəsinin dini fəaliyyətdə iştirakına səbəb olur. Onlar bu fəaliyyəti öz milli mədəniyyətinin, adət və ənənələrinin müəyyən hissəsi kimi qiymətləndirirlər. Dərin tarixi kökləri olan din insanların həyat tərzinə nüfuz edərək, onların milli xüsusiyyətlərinin formalaşmasında böyük rol oynamış, digər sosial institutlara fəal təsir göstərmişdir.

**Dinin funksiyaları**

Din müxtəlif funksiyalar yerinə yetirir. Bunlar müxtəlif mənbələrdə bir-birindən fərqli göstərilir. Aşağıdakı funksiyalardan bəhs etmək olar:

*a)* ***Dünyagörüşü funksiyası.*** Din gerçəkliyi spesifik şəkildə əks etdirir, fövqəltəbii qüvvələrin və varlıqların real surətdə mövcudluğunu etiraf edir.

*b)* ***Tənzimedici funksiya***. Din müəyyən dəyərlər və normalar sistemi işləyib hazırlamışdır; həmin sistem insanların davranışını motivləşdirir və tənzimləyir.

*c)* ***Kommunikativ funksiya***. Bu funksiya kult və kultdankənar fəaliyyət prosesində ünsiyyətdə təzahür edir.

*ç) **İnteqrasiyaedici, mühafizəedici funksiya**.* Din müxtəlif birliklər səviyyəsində inteqrasiyanı təmin edə bilər, bu və ya digər ictimai amilin sabitliyini qoruya bilər.

*d) **Kompensasiyaedici funksiya**.* İnsanın təbii və ictimai qüvvələr qarşısında real acizliyi, imkansızlığı tam aşkara çıxdıqda din onu xeyli dərəcədə yumşalda bilən, kompensasiya edən vasitə kimi çıxış edir.

Dinin cəmiyyətdəki rolu, yerinə yetirdiyi funksiyalar ictimai inkişaf gedişində dəyişir. Bu mənada sakralizasiya və sekulyarizasiya proseslərindən bəhs etmək olar. Sakralizasiya müxtəlif sosial institutların, münasibətlərin, ictimai və fərdi şüur formalarının dini təsir və sanksiyalaşdırma sferasına geniş surətdə cəlb olunması deməkdir. SSRİ-nin iflasından sonra bu prosesdə müəyyən canlanma hiss edilir. Dinin sosiologiyasında sekulyarizasiya fəal müzakirə olunan mühüm problemlərdən biridir. Hazırda bu anlayışı insanın dini təsirdən azad olması kimi başa düşürlər. Bu prosesdə qlobal sosial dəyişikliklər, elmi-texniki və mədəni tərəqqi mühüm rol oynayır. Sekulyarizasiya probleminə eynimənalı münasibət yoxdur. Başlıca səbəb dinin necə başa düşülməsidir. Dinin geniş izahına tərəfdar çıxan sosioloqlar (M. Zinqer, R. Bella, T. Lukman və s.) sekulyarizasiya anlayışını əsassız sayırlar. Dinin mövcudluğunu fövqəltəbii olana inamla əlaqələndirən sosioloqlar isə (B. Uilson, Ç. Qlok və başqaları) sekulyarizasiyanı çox mühüm sosial proses hesab edirlər; elə proses ki, dinin müasir cəmiyyətdə vəziyyətini kökündən dəyişdirir. Yeri gəlmişkən qeyd edək ki, sekulyarizasiyanın özünün izahı cəhdləri də bir-birindən fərqlidir. Məsələn, B. Uilson onu insanların əvvəlki, kapitalizməqədərki birliklərinin yox olması, şəxsiyyətlərarası münasibətlərin fərdsizləşməsi və formallaşdırılması ilə izah edir. Sekulyarizasiyanın əleyhdarları (R. Bella, E. Qrili və başqaları) isə T. Parsonsun belə bir ideyasından istifadə edirlər ki, cəmiyyətdə sekulyarizasiya yox, yalnız institutların struktur və funksional diferensiasiyası baş verir.

Dinin sosiologiyasında diqqəti cəlb edən mühüm məqamlardan biri Qərb sosioloqları tərəfindən dindarlığın empirik tədqiqatlarının metodologiya və metodikasının işlənib hazırlanmasıdır. Bu problemin həllinə Amerika sosioloqu Ç. Qlok daha çox töhfə vermişdir. O, dindarlığın «çoxölçülü» modelləri adlandırılan

modelləri işləyib hazırlamışdır. Dinin sosiologiyasında qarşıda duran vəzifələrdən biri qeyri-ənənəvi dinlərin, mistik təlimlərin yayılması miqyaslarını, hüdudlarını, habelə inkişafı imkanlarını öyrənməkdən ibarətdir.

Müstəqil inkişaf şəraitində respublikamızda dövlətlə dinin qarşılıqlı münasibətləri demokratik əsaslarda qurulmuşdur. Mövcud qanunvericilik aktları zəminində dinlərin, konfessiyaların azad, sərbəst fəaliyyəti təmin edilmişdir.

## Azadfikirlilik və onun formaları.

Azadfikirli adət-ənənəyə və ya dini doktrinalara deyil, yalnız məntiqə, ağıla və empirikliyə əsaslanan fikirlərə inanan insanlara deyilir. Oksford lüğətinə görə "azadfikirlilik" digər insanların fikirlərini və ya dini inanc sistemlərinin formalaşdırdığı fikirləri kor-koranə qəbul etməmək, öz fikir və düşüncələrini formalaşdırmaqdır. Termin kimi azadfikirlilik ilk olaraq 17-ci əsrdə ortaya çıxmışdır. Təcrübədə isə azadfikirlilik ən çox dünyəvilik, ateizm, aqnostizm və dini tənqidlə sıx bağlı olsa da, əslində azadfikirlilik dini tənqid və ya inkar etmir, sadəcə məntiqlə rasional olmayan düşüncələri öz beynində analiz etmədən qəbul etməməkdir. İnsanları azadfikirli edən onların inanclara əməl edib-etməməsi deyil, onlara niyə, hansı səbəbdən əməl edib-etməmələridir. Yaşlılar, böyüklər dedikləri üçün, adət-ənənə belə olduğu üçün onları kor-koranə tutursa düşüncəsi azad deyil deməkdir. Amma özü analiz edib, rasional olaraq bunu qəbul edib razılaşırsa, azadfikirli sayılır. **Bertrand Russell qeyd edir ki, həqiqət axtaran olmaq və zehni köləlik zəncirlərini qırmaq azadfikirliliyin əsas şərtidir**. Azadfikirlilər uyğunluq naminə tabeçiliyi, boyun əyməni rədd edirlər, hər bir fikri qəbul etmədən öncə onu nəzərdən keçirərək öz əqidələrini meydana gətirirlər və əqli bütövlüyə və cəsarətə sahib olurlar. Pansy (hercai gülü) azadfikirlilik simvolu sayılır. Bu gülün azadfikirlilik simvolu kimi əsaslandırılması həm çiçəyin adından, həm də görünüşündən irəli gəlir. Pansy adını "düşüncə" mənasını verən fransızca pensée sözündən götürür. Bəziləri isə çiçəyin insan üzünə bənzəməsini də düşünən insanla əlaqələndirirlər.

ABŞ, Fransa, Belçika, İspaniya və İsveçdə hercai gülü dini azadlıq və vicdan azadlığının simvolu olaraq tanınır.





Amerika Birləşmiş Ştatlarında, ilk vaxtlar azadfikirlilik " xristian dini əleyhinə" "bibliyanın tənqidinə" yönələn bir hərəkat kimi anlaşılırdı. **Amma əsl mənası və təbliğ etdiyi dəyərlər fərdin siyasi və mənəvi cəhətdən azad olması, dini mövzularda kor-koranə dədə-baba adəti ilə getməməsi özünün analizi ilə rasional qərar verməsi demək idi**.

## Azadfikirliliyin formaları

Azadfikirliliyin 7 forması var: Deizm, panteizm, aqnotisizm antiklerikalizm, dini indifferentializm, nigelizm, ateizm. Skeptisizm isə azadfikirliliyin forması deyil və ümumiyyətlə dinləri qəbul etmir.

**1.Deizm və ya teizm-** (yun. *Teos - tanrı*) — zəkaya və iradəyə malik, bütün maddi və mənəvi proseslərə möcüzəli təsir göstərən fövqəltəbii varlıq kimi Allahın mövcudluğunu qəbul edən dini-fəlsəfi təlim. Daha dəqiq, kainatla Tanrı arasındakı əlaqəni aydınlaşdıran, mövcud kainatın yaranması və idarəsinə cavabdeh olan bir Tanrı anlayışını özündə əks etdirən, bu Tanrının müxtəlif yollarla din göndərdiyi fikrini müdafiə edən əqidədir. Bu yanaşmaya görə, Tanrı daima insanlarla əlaqə halındadır. Bu baxışları mənimsəmiş insanlara *Teist* vəya *deist* deyilir.

Aləmdə baş verən şeyləri teizm çox vaxt allah qayəsinin həyata keçirlməsi kimi nəzərdən keçirir. Təbii qanunauyğunluq teizmdə allah qayəsindən asılı şəkildə götürülür. Deizmdən fərqli olaraq teizm allahın bütün dünya hadisələrində bilavasitə iştirakını qəbul edir, panteizmdən fərqli olaraq allahın dünyadan kənarda və dünya üzərində mövcudluğunu müdafiə edir. Teizm klerikalizmin, teologiyanın və fideizminideoloji əsası olmaqla elmə və elmi dünyagörüşə ziddir.

Deistlər Allahın varlığını qəbul edirlər. Onlara görə Allah sadəcə dünyanı yaradıb, lakin onun təbiət nizamında rolu yoxdur. Başqa sözlə Allah dünyanı yaradıb, ancaq dünyanın inkişafında onun rolu yoxdur.

**2. Panteizm-** (pan – bütün, teos – tanrı deməkdir. "Hər şey tanrıdır" mənasında işlənir.) — kainatı bütövlükdə Tanrı kimi qəbul edən fəlsəfi düşüncə. Yəni Allah tək yoxdur, xırda hissəciklərə parçalanır və dünyaya səpələnir(Nəsimi). Lakin, bu düşüncə tərzi o qədər geniş yayıldı, özünə xristianlar içərisindən o qədər tərəfdarlar toplaya bildi ki, müstəqil din səviyyəsinə qədər yüksəldi. Proseslər tarixin elə bir dönəmində (e. XVI-XVIII əsrlər) başladı ki, bu dövrdə bütövlükdə xristianlıq dərin böhran keçirir, bütün Avropada kilsə əleyhinə kəskin çıxışlar edilirdi.

Panteizmdə hər şeyi tanrının bir hissəsi olaraq qəbul edilir, tanrı hər şeydir və hər şey tanrıdır. Tanrı təbiətdə və ya əksinə təbiət tanrıda birləşir. Panteizmə görə Tanrının kainatdan ayrı və müstəqil bir varlığı yoxdur. Tanrı təbiətdə, həyatda, insan dünyasındadır. Hər şey Tanrıdır. İki əsas hissəyə ayrılır:

1. Ateizmə yaxın olan panteizm. Onlara görə təbiətdən yüksəkdə heç nə yoxdur, onu heç kim yaratmamışdır, o həmişə var idi, var və olacaq da. Təbiət özünə xas olan təbii qanunlarla idarə olunur, təbiətin özü də elə tanrıdır. Belə bir panteizm ardıcıl diyildi, Darvinizm təlimi ilə özünə arxa tapsa da dinə üstün gəlmək təşəbbüsündən artıq irəli gedə bilmədi. Əsas nümayəndələri B. Spinoza və C. Brunodur.
2. Dini-mistik panteizm. Bunlar təkid edirlər ki, tanrı bütün əşyalarda, hadisələrdə və təbii proseslərdə hansısa fövqəltəbii başlanğıc kimi

mövcuddur. O yalnız ilk yaradan, başlanğıca təkan verəndir, bütün həyati proseslərin heç birində iştirak etmir. Belə panteizm, əksinə, tanrı haqqında təsəvvürlərin yeniləşdirilməsi vasitəsi ilə dinin möhkəmləndirilməsinə yönəlmiş təşəbbüslərdir.

Spinoza fəlsəfəsinin Panteizm anlayışına görə, Tanrı hər şeydir və hər şey Tanrıdır. Tanrı-Kainat-İnsan ayırımı yoxdur, belə bir ayrı-seçkilik ağılsızlıqdır. Tanrı, Kainat, İnsan bir və eynidir. Yaradan bir Tanrı olmadığı kimi, hər hansı bir yaratmadan da söz edilə bilməz. Spinozanın bu fikri, ailəsinin köç edərək gəldiyi İspaniyanın Andalusiya vilayətində yaşamış məşhur mütəfəkkir Muhiddin Ərəbinin təsiriylə meydana gəlmişdi. Ərəbinin fəlsəfəsində "Vəhdət-i Bədən" anlayışı kainat Tanrıdadır kimi izah edilir. Spinozada isə Tanrı kainatdadır və kainat qədərdir kimi izah edilir ki, bunlar da tamamilə fərqli anlayışlardır.

Panteizmin əsası iki əsas mənbədən qaynaqlanır: Arilərin Veda dinindən və bu din əsasında özlərinə təşəkkül tapmış qədim hind dinlərindən – buddizmdən, hinduizmdən, brahmanizm və caynizmdən. Bu dinlərdə Brahmanın mövqeyi, səlahiyyətləri, yaratma prosesində iştirakı panteizm arabasının təkanverici qüvvəsi idi.

Yəhudilərin Odisseyası adlanan Spinoza 1632-cu ildə çap etdirdiyi yazılarındakı fikir və düşüncələrinə görə 1656-cı ildə sinaqoqa çagrılır və düşüncələrindən imtina etmək təklifini alır. O bütün dinləri rekonstruksiya etmək lazımdır kimi fikirlər söyləməklə “Tövratı demək olar ki, inkar edirdi. Təklifdən imtina etməklə həmin ilin 27 iyulunda o, yəhudi ritualının bütün qaranlıq, sirli formallıqları gözlənilməklə lənətlənərək sinaqoqdan qovuldu və icmadan kənarlaşdırıldı. Sənəddə deyilirdi: “Mələklərin mühakiməsi və müqəddəslərin hökmü ilə biz Barux de Spinozanı anafemaya məhkum edirik, lənətləyirik, qarğışa və nifrinə məruz qoyuruq, bununla müqəddəs icma bütövlükdə razıdır. İçərisində 613 qayda olan müqəddəs kitablar qarşısında onun əleyhinə o lənətləri, o qarğışları, o nifrinləri yağdırırıq ki, bunlar vaxtı ilə Elişa tərəfindən bidətçi uşaqlara yağdırılmışdı. Onunla münasibət saxlayan hər kəs də qarğışa nifrinə məruz qalacaqdır. O İsrail xalqı içərisindən qovulur.”

Bütün bunlara baxmayaraq Spinoza sözündən dönmədi və bu günə qədər də yaşamaqda olan Panteizm ideyalarını yaradım yaya bildi. Spinoza sistemi üç qollu sistemdir: substansiya, atribut, modus. Substansiya sözü altda dayanan, başlanğıcda olan mənasını verir. Məs: Spinozanın substansiyasını ağac düzəldəcəyimiz stulun substansiyasıdır kimi başa düşmək olmaz. Spinozada bu, daxili varlıq və mahiyyət deməkdir. Bu kəlam Tövratın birinci kitabında – “Varlıq” kitabında belə ifadə olunmuşdur: “Mən oyam ki, varam.” Substansiya odur ki, əbədi və dəyişməzdir və hər şey, hər bir predmet onun müvəqqəti bir forması, və ya modusu olaraq çıxış edir. Spinoza substansiyanı təbiətlə və Tanrı ilə eyniləşdirir. O təbiəti həm törədən təbiət (natura naturans) adlandırır, həm də törənən təbiət (natura naturata) adlandırır. “Mən Tanrının və təbiətin son xristianların, adətən, qəbul etdikləri baxışdan tamamilə fərqli bir anlamını qəbul edirəm, belə ki, Tanrının mənim tərəfimdən qəbul edilən anlamı daha çox onun qədim anlamına yaxındır. Burada Mən hətta söyləyə bilərəm ki, hər bir şey Tanrıdadır; hər bir şey Tanrıda yaşayır və hərəkət edir. Və mən bu maddəni apostol Pyotr ilə və ola bilsin ki, antik filosofların bir çoxu ilə birgə, təbii li, onlardan fərqli bir üsulla müdafiə edirəm. Əgər indi çox dəyişdirilmiş və saxtalaşdırılmış müəyyən ənənələrdən nəticə çıxarsaq, mən, hətta risk edərək deyə bilərəm ki, mənim baxəşım qədim yəhudilərin qəbul etdikləri həmin nöqteyi-nəzərdir. Amma, bu tamamilə, səhv bir mövqedir ki, Tantını və təbiəti eyniləşdirdiyim zaman guya mənim niyyətim sonuncu terminin altında müəyyən cismani materiyanı göstərməkdir. Mənim isə qətiyyən belə bir niyyətim yoxdur.”

Panteizmə görə Tanrının iradəsi və təbiətin qanunları müxtəlif fazalarda ifadə olunmuş eyni reallıqdır. Buradan da belə bir nəticə çıxarılır ki, bütün hadisələr dəyişməz qanunların mexaniki fəaliyyətidir, ulduzlarda məskunlaşan amansız hökmdarın şıltaqlığı deyildir. Panteizmə meyl o qədər güclü idi ki, hətta katolik kilsənin apardığı əsaslı islahatlar da (Cəmiyyətdə kilsənin rolunu məhdudlaşdırmaq, dövlət işlərinə müdaxilə etməmək, ruhanilərin fəaliyyət dairəsinə müəyyən hədlər qoymaq və ş.) onun genişlənməsinə mane ola bilmirdi. Nəticədə Protestant firqələri

sürətlə artmağa başladı ki, onların yaranmasında panteizm dini-fəlsəfi təlim olaraq xüsusi əhəmiyyətə malik idi.

Biz öz insani niyyətlərimizi obyektiv kainatdan üstün tuturuq. O, vaxtdan da bizim "şər problemimiz" başlayır; biz həyat xəstələrini sağaltmaq üçün Tanrının xeyirxahlığı ilə mübarizə aparırıq, amma biz belə bir dərsi unuduruq ki, Tanrı bizim kiçik yaxşılıqlarımızdan və pisliklərimizdən, xeyrimizdən və şərimizdən kənardadır. Yaxşı və pis fərdi məqsədlər ucbatından nisbi, kainat üçün isə heç bir şeydir. Yaxşı və pis terminləri nəinki Tanrı üçün, heç fərdlər üçün də pozitiv xarakter daşımır. Eyni bir şey eyni zamanda pis də ola bilər, yaxşı da. Məs: musiqi melanxolik üçün yaxşı, hüzünlü üçün pis, ölü üçün isə fərqsizdir. Pis və yaxşı qabaqcadan əmələ gəlmiş elə yanlış fikirlərdir ki, əbədi reallıq onları tanıya və qəbul edə bilməz. Dünya təbiətin bütün sonsus, hüdudsuz, hədsiz illüstrasiyası ola bilər, lakin insanın, sadəcə olaraq, xüsusi ideallarının illüstrasiyası ola bilməz. Yaxşı və pislə bağlı məsələ necədirsə, çirkin və gözəllə bağlı məsələ də elədir.

Panteizmin yaranmasında İtalyan filosofu Cordano Brunonun düşüncələri də az rol oynamamışdır. Əslən keşiş olan Bruna 24 yaşında kilsə ideyalarına qarşı çıxdığına görə əbasını atıb Fransaya qaçır və orada fəlsəfi əsərlərini yaradır. Aldadılaraq İtaliyaya gətirildikdən sonra məhkəmədə əqidəsindən imtina etmədiyinə görə, küfrdə ittiham olunub 8 il həbsdə saxlanılır və 1600-cü il 17 fevralda Romanın Güllər meydanında tonqalda yandırılır. Bruno astronom olaraq Kopernikin telisentrik sistemini inkişaf etdirərək təkid edirdi ki, Günəş sistemindən kənarda saysız hesabsız məskun aləmlər var, ulduzlar başqa planet sistemlərinin Günəşləridir. Yer isə kainat genişliyində kiçik toz dənəsi olub, xristianlığın iddia etdiyi kimi heç də kainatın mərkəzi deyildir. "Maddə bütün şeylərin substansiyasıdır. Əbədi dövranda o, bütövlükdə və hər yerdə hər şeyi arasıkəsilməyən hərəkətlə təmin edir." Maddəni və təbiəti Tanrı ilə eyniləşdirir, buna görə də onun dünyagörüşünü panteizm adlandıraraq, özünü də materializm formasının təzahürü kimi qəbul etmək olar. Spinoza daha irəli gedərək Tanrını ruhda tapsa da, Bruno Tanrını maddə təbiətlə daha əvvəl eyniləşdirmişdi. Onun üçün

dünya üzərində duran və ona öz qanunlarını qəbul etdirən Tanrı yoxdur. O yazırdı: “Tanrı və təbiət eyniliklə bir maddədir, eynilikdə bir fəzadır, eynilikdə hər yerdə fəaliyyətdə olan bir səbəbdir – substansiyadır. Tanrıya isnad yaradıcı iradə maddənin, təbiətin yaradıcılıq fəaliyyətinin özüdür.” Bruno “Üç Uğnum” haqqındakı xristian ehkamını qətiyyətlə inkar edir, axirət dünyasını cəfəng və əfsanə, dinləri isə müharibələrə və cəmiyyətdə ixtilaflara, qüsurlara səbəb olan zəhər adlandırırdı. Panteizmin dini-mistik formasının nümayəndələri isə belə hesab edirdilər ki, Tanrı substansiya ola bilməz. Tansı substansiyanın işinə müdaxilə etməyən kənar bir “varlıqdır.”

O yalnız ilk hərəkəti verməklə bitün proseslərdən kənardadır; ilk təkanı verəndir. Hərəkətdə olan təbii proseslərdə, həyatın nisbi əlaqə və bir-birini tamamlayan, eynilik və əksilik təşkil edən davamında iştirak etmir. Hazırda Avropa ölkələrində Panteizm təşkilatlanmış şəkildə fəaliyyətdədir. Daha çox dini-fəlsəfi təlim, nəzəriyyə kimi çıxış edir. XX əsrin əvvəllərindən Rusiyada, sonralar isə SSRİ-də davamlı şəkildə “hakimlik” etmiş Ateizm təlimi öz bünövrəsini panteizmdən götürmüş, ondan qaynaqlanmışdır.

**3. Aqnotisizm-** (naməlum, bilinməyən) — tanrıların varlığının və ya yoxluğunun bilinə bilməyəcəyini nəzərdə tutan elmi fəlsəfi cərəyan. XIX əsrin ikinci yarısında formalaşıb.

Bu cərəyanın tərəfdarlarına aqnostik deyilir. Qədim yunan dilindəki "agnostos", yəni "bilinə bilməz olan" sözündəndir. Gerçəkdə, bir dindən ya da təlimlər bütünündən çox bir anlayışdır. "Naməlumçuluq" olaraq təyin olunması, əslində dinlərin qarşıya qoyduğu Tanrı anlayışının olmadığını iddia etmir. Bu axın, insanın bilmə bacarığının məhdud olduğunu və bu səbəblə, görülə bilənin ardındakı həqiqəti tuta bilməyəcəyini müdafiə edər.

Tomas Henri Haksli aqnostisizm haqqında deyir: İnsanların ölüm sonrası və tanrının varlığı barəsində öz fikirlərini irəli sürməkdən çəkinməkləri gərəkdiyini deməklə qalmamış, bu yöndən baxıldığında bu ola bilməz deyə biləcəyiniz heç bir fikir, ya da bu yalnışdır deyə biləcəyiniz heç bir məlumat olmadığını əlavə etmişdir.

Aqnostisizm bütün dinləri və onların irəli sürdüyü tanrıları qəti sürətdə rədd edir. Və dinlərin tanrıdan gəldiyini qəbul etmir. Amma deizmə daxil olan – təbiətə müdaxilə etməyən, bəlkə şüuru belə olmayan bir tanrının olub olmadığını bilə bilməyəcəyimiz fikrini müdafiə edir.

Aqnostiklər deyir: "Mən bilirəm ki, Allah var, amma bilmirəm ki, mənim bildiyim həqəqətdir ya yox. Məsələn, mən göy səthini mavi görürəm. Görəsən hava həqiqətənmi mavidir, yoxsa mənə elə gəlir? Bəs göy mavidirsə onda nəfəs almağın niyə rəngi yoxdur? Vəya tavanı ağ görürəm, çünki fünəş işığı əks olunub, bu səbəbdən də ağ görürəm. Yəni gözümün ağ gördüyü şey həqiqətən ağ olmaya bilər." Ümumiyyətlə aqnotistlər bildikləri şeyin həqiqət olub olmaması barədə şübhəcildirlər.

Ateizm və deizmdən fərqi

"Əslində bir ateistin düşüncəsi bir teistin düşüncəsi ilə eynilik təşkil edir. Bir xristian tanrının varlığını bilə-biləcəyimizi, bir ateist isə tanrının yoxluğunu bilə-biləcəyimizi iddia edir. Aqnostik isə bu barədə dəqiq bir qərar vermək üçün uyğun şərait olmadığını düşünür.."

Aqnostik tanrı və dünya sonrası həyat haqqında gerçəkləri bilmənin imkansız olduğunu düşünür. Heç vaxt bilinə bilməz deməsə də, yaşadığımız dövrdə bunun mümkünsüzlüyünü müdafiə edir.

Məşhur aqnostiklər

---

- İmmanuil Kant
- Albert Eynşteyn
- Çingiz Abdullayev

**4. Antiklerikalizm-** Antiklerikallar Allahı qəbul etsələr də din xadimlərini qəbul etmir. Onlara görə din xadimləri Allahı öz mənafeyinə görə, pula görə təbliğ edir.

(qəd. yun. əksinə, əleyhinə və κληρικός) — dini təşkilatların, ruhaniliyin, həmçinin siyasi, iqtisadi, mədəni, elm və təhsil sahəsində dini hakimiyyətin əleyhinə

istiqamətlənmiş sosial hərəkatdır. XVIII əsrdə maarifçiliyin çiçəklənməsi dövründə Avropanı ateizmin birinci dalğası bürüdüyü zaman, kilsə əleyhinə yönələn istənilən hərəkat antiklerikalizm adlandırılırdı.

Antiklerikalizm ateizmə bənzəsə də özünün xarakterik xüsusiyyətləri mövcuddur:

- Antiklerikalizm müxtəlif dinlər tərəfindən təklif edilən allahın və ya digər fövqəlgücün mövcudluğunu inkar etmir
- Antiklerikalizm dinin həqiqiliyini inkar etmir, yalnız kilsənin ictimai həyatdakı rolunun artırılması qarşı çıxır.

Müxtəlif növ Antiklerikal fikirlər hələ qədim filosoflar tərəfindən söylənilmişdir. Antiklerikalizm orta əsrlərdə Avropada dini həyatın dünyəvi həyatdan üstün olmasıilə bağlı kilsə ideyaların qarşı mübarizə üsulu olmuşdur. Orta əsrlərdə antiklerikalizmin əsas istiqaməti feodal kilsələrin,bəzən də bütövlükdə cəmiyyətin tənqid olunmasından ibarət idi. Kəndli Antiklerikal hərəkatların əsası iqtisadi məqsədlər təşkil etsə də, həmin hərəkarlar dini baxımdan əsaslandırılır.

Kilsə tərəfindən müəyyən edilmiş qaydaların dəyişilməz saxlanılması, bu qaydaları əsaslandıran ideologiyaya şübhələri artırdı. Burjua inqilablarının idealogiyasında antiklerikalizm əvəzedilməz yer tuturdu. Belə ki, gənc burjuaziya kilsənin siyasətini tənqid edir, kilsələrə məxsus torpaq sahələrinin müsaridə edilməsi ilə bağlı qərarların qəbul edir və kilsənin dövlətdən ayrılmasını təklif edirdilər.

Məşhur antiklerikallar- Leonardo Bruno, Cordano Bruno, Volter, Otto fon Bismark

**5. Dini indifferentializm**- Bu fikirdə olanlar üçün Allahın olub-olmamasının əhəmiyyəti yoxdur. Yəni Allahın mövcudluğunun dünya nizamının inkişafında heç bir əhəmiyyəti yoxdur. Onlar düşünürlər ki, Allah özü üçün olabilər, amma biz insanlar özümüzçün yaşayırıq.

**6. Dini niqelizm vəya nihilizm-** Vəziyyətdən asılı olaraq dini ya qəbul edir, və ya etmirlər. (lat. *nihil* – heç nə) — insan mövcudluğunun dərk olunmasının, ümumi qəbul edilmiş əxlaqi və mədəni dəyərlərin inkarında özünü büruzə verən

dünyagörüşü, avtoritetlərin qəbul edilməməsi. Məsələn, əgər qəbul olunduğun işdə rəhbər din xadimidirsəonda sən də özünü din xadimi kimi təqdim edirsən, göstərirsən ki, şansın çox olsun.

Nihilzm başlanğıcını XII əsrdən götürsə də, XIX əsrdə daha geniş yayılmağa başlamışdır. İlk dövrlərdə, əxlaqi, mədəni və ilahi dəyərlərin heçliyi üzərində qurulan Nihilzm (XIX əsr) Rusyada daha çox populyar olmuşdur. Nihilzmi termin kimi ilk dəfə işlədən Fridrix Yakobi olmuşdur. Rusiyada isə ilk dəfə Nikolay Nadejdin "Nihilist yığıncağı" məqaləsində istifadə etmişdir. İvan Sergeyeviç Turgenyev "Atalar və oğullar" əsərində ilk dəfə nihilist obraz (obrazın adı Bazarov) yaratmışdı. Zaman keçdikcə Nihilzm rus gəncliyində, bir dəb şəklini almışdır. Sonradan böyük təzyiqlər görülmüş və dövlət tərəfindən qarşısı alınmağa başlamışdır. XIX əsrdən etibarən Nihilsm dünyada yayılmağa başlamış siyasi, fəlsəfi cərəyana çevrilmişdir.Nihilzm ən çox Fridrix Nitşse, Neyzen Tevfik, Maks Stirner, Albert Kamyu, Artur Şopenhauer, və Herbert Spenser tərəfindən qəbul olunmuşdur. Zaman keçdikcə artan Nihilizm cəryanı yeni məşhur simalar qazanmışdır. Sonralardan Nihilizmin məşhur simaları Fridrix Nitşseni nihilst kimi tanımamışdır. Buna misal olaraq J. Grenyer görə Nitşe heç bir zaman nihilist olmamışdır. Nihilzm sonralardan daha da genişlənmiş və təkminləşdirilmişdir.

Fəlsəfədə nihilizm heç bir şeyin var olmadığını, heç bir şeyin bilinməyəcəyini müdafiə edən düşüncə tərzidir. Nihilizm təlimi, bilik fəlsəfəsində hər cür biliyin bir aldanma olduğunu, biliyin mövcud olmadığını; əxlaq fəlsəfəsində insan hərəkətlərini tənzimləyən dəyərlərin olmadığını; varlıq fəlsəfəsində isə heç bir şeyin mövcud olmadığını müdafiə edir.

Bu görüşün ən önəmli nümayəndəsi Nitsşedir. Var olan dəyərlərə, nizama qarşı çıxır və heç bir dəyər tanımır. Nitsşe müasir insanın mənimsədiyi dəyərlərin ənənəvi dayaqlarının çökdüyünü deyirdi. Buna görə də köhnə dəyərlər atılıb, bütün dəyərlər yenidən qurulmalıdır. Bunu edəcək olan insan da güc baxımından üstün insandır. İnsan yeni dəyər yarada bildiyi ölçüdə üstün insan olaraq azaddır.

Buna görə də insanlar güclü və zəiflərə bölürlər. Azad əxlaqı təyin edən amil, fərdin güclü və ya zəif olmasıdır. Mövcud əxlaq sistemini zəif insanlar yaradıblar, bu əxlaq sistemi qul əxlaqıdır. Qul əxlaqı insanın zəifliklərini ön plana çıxaran, yaşam gücünün əksilməsinə səbəb olan əxlaqdır. Bu əxlaqın qarşısında isə güclü insanların yaratdıqları aristokrat əxlaqı var. Aristokrat əxlaqı güc əsasında yaranan üstün insan əxlaqıdır. Üstün insan dövrünün hər cür üfunətli dəyərlərini rədd edən, özünü aşmış və yeni dəyərlər yaratma gücünə sahib insandır. Öz dəyərini özü yarada bilən insan öz əxlaqını da özü yaradır. Bu səbəbdən də universal əxlaq anlayışı ola bilməz.

Nihilistlər tanrının varlığını, iradənin azadlığını, biliyin imkanını, əxlaqı və tarixin xoşbəxt sonunu rədd edirlər.

Nihilizm; bilik fəlsəfəsi, əxlaq və siyasət sahəsində qəbul olunmuşdur. Nihilizm hər şeyi, hər həqiqəti və dəyərləri rəddetmə şəklində ortaya çıxmışdır.

Nihilizm İctimai elmləri və klassik fəlsəfə sistemlərini bütünlüklə rədd edir. NİhiIizm insanın bədən və ruhdan ibarət olan dualist bir quruluşu olduğunu rədd etdiyi üçün dinlərin də şiddətli təzyiqinə məruz qalmışdır.

Nitşsenin fikrinə görə, nihilizm yüksək ideaIların dəyərlərini itirmələrindən qaynaqlanan mənfi düşüncə mövqeyidir. Nitşse, nihilizmin əsasını formalaşdırarkən bunun aşıla biləcəyinə də toxunmuşdur. Qorxular, etirazlar, varlığı (tanrını) aydın bir həqiqət edən varlıq idealizminin çöküş əlamətləridir. Nitşse üçün “Tanrı öldü” və bu varlıq artıq “özünə yaraşdırılan bütün dəyərləri heçə endirən bir yoxluq” olmuşdur. Yəni Nitşse "Tanrı öldü” deyəndə Avropada və dünyada tanrı anlayışının yadırğandığını və yox edildiyini söyləmək istəmişdir.

Nitşse, nihilizmi sonuna qədər yaşamış və onu aşmışdır. Nitşse nihilizmin aşılmasının zəruri olduğunu müdafiə edirdi. Bəs nihilizmi necə aşılar? Bu suala Nitşsenin verdiyi cavab belədir: “Biz təbiətdəki bütün əxlaqı rədd etmirik, əxlaqın ümumbəşəri olduğu anlayışını rədd edirik və bir əxlaq qaydasını rədd və ya qəbul edərkən onun inkişafa dəstək olması və maneə törətməsi müəyyən edilməlidir". Nitşse, kölə və bəy əxlaqı olaraq iki əxlaqdan bəhs edir. Onun fikrincə cəmiyyətdə

bütün fərdlərin meydana gəlmə səbəbi “üst insan”-a çatmaq və onun məqsədlərinə xidmət etməkdir. O zaman nihilizm “kölələrin əxlaqı” olaraq meydana çıxır; kölələr, gerçək həyatdakı gücsüzlüklərini unutmaq üçün, bir ideala və ya uydurma bir tanrıya ehtiyac duyurlar. Nihilizm, idealizmdən yayınma məntiqindən qaynaqlanır. Heydeger isə Nihilizmi qərb düşüncəsini meydana gətirən elementlərdən biri kimi görür.Bu görüş, dəyəri və “var olan”-ı təyin etmək üçün gerçəkdə, varlıq sualını soruşmağı özünə qadağan edir. Gorgias isə nihilizmin aqnostik istiqamətini vurğulayaraq “Heç bir şey var deyil, var olsa da naməlum, dərk edilsə də başqalarına yayılmaz” demişdir.

Erix From nihilizmə psixoloji müdafiə mexanizmlərindən biri kimi yanaşmağı təklif edir. O hesab edirdi ki, insanın başlıca problemi, onun öz iradəsindən asılı olmayaq "bu dünyaya atılması" ilə, onun özünü, ətrafındakıları, keçmişi və gələcəyi dərk etmə bacarığı hesabına təbiətdən kənara çıxa bilməcəyi arasındakı daxili ziddiyətdir. From iddia edir ki, insanın, onun şəxsiyyətinin inkişafı iki tendensiya daxilinə baş verir: azadlığa və özgələşməyə istiqamətlənən səyləri. İnsanın inkişafı onun azadlığının artması yolu ilə baş verir. Lakin hər kəs bu yoldan məqsədyönlü istifadə edə bilmir, bir-sıra mənfi psixi narahatlıqlar yaranır və bu da özgələşməyə gətirib çıxarır. Nəticədə insan öz daxili "mən"ini itirir. Mazoxizm və sadist tendensiyaların, destruktivizmin, insanın cəmiyyəti məhv etmək cəhdinin (əks halda cəmiyyət onu məhv edəcək), nihilizm və avtomatik komfortizimin xarakterik olduğu "Azadlıqdan qaçma" adlanan müdafiə mexanizmi yaranır.

**7. Ateizm,** geniş mənada, tanrıların mövcudluğuna inamın olmamasıdır. Daha az bir konsepsiyada Ateizm hər hansı ilahi bir varlıq olduğuna dair inancın rəddidir. Daha da dar bir mənada ateizm xüsusilə heç bir tanrı yoxdur, mövqeyidir. Ateizm ən azı bir tanrının mövcudluğuna inam ilə ümumi mənada teizmlə ziddiyyət təşkil edir. Etimoloji kökə əsasən Ateizm qədim yunan sözü olub "ἄθεος" (ateos) mənası "tanrı yoxdur" deməkdir. Qədim dövrdə daha iri cəmiyyət tərəfindən ibadət edilən tanrılara inanmayan və ya onlara ibadət etməktən imtina edənlər üçün alçaldıcı bir söz kimi istifadə edilirdi. Ateizm termini ortodoks əhali tərəfindən dini inanclarını

bölüşməyənlərin kateqoriləşdirilməsində istifadə edilirdi. Ateizm termini aktual olaraq 16-cı əsirdə meydana çıxdı. Bunula bərabər azad düşüncənin yayılması, skeptisist sorğulama və dəvamında dini tənqidin artması ilə ateizm termininin tətbiq nöqtəsi daralmağa başladı. Ateizm teizmdən daha həssas bir mövqedədir hansı ki,tanrının mövcud olmadığının sübut olunması ateistlər üzərinə şamil edilmir,ancaq teizmin məntiqliliyini təmin etmək üçün teistlər tanrının mövcudluğunu sübut etməlidir.]Lakin başqaları belə bir mövqedə olma fikri ilə razılaşmırdılar.

Ateizmin tarixi ilk dinlər və onların iddia etdiyi tanrı amilinin meydana gəlməsinə qədər gedib çıxır. Antik Fəlsəfənin nümayəndələrindən olan Anaksimandr, Anaksaqor, Demokrit və Epikür ateizmin ən məşhurlarındandır. Amma orta əsrlərdə kilsənin həddən artıq güclü mövqeyə malik olmasına görə çoxları ateist olduqlarını açıq formada etiraf edə bilməmişdir. Amma XVIII əsrdə Maarifçilik hərəkatından sonra Pol Anri Holbax (1723-1789) və Deni Didro (1713-1784) öz kəskin reaksiyalarını ortaya qoymuşdurlar. Ateizm ən kəskin tərəfarları isə XIX və XX əsrdə olmuşdurlar. Bura Lüdviq Feyerbax, Karl Marks, Fridrix Engels və Vladimir Lenin və digər dialektik materyalistləri aid edə bilərik.

Qədim Hindistanda da ateizmlə bağlı ilkin göstəricilərə rast gəlmək mümkündür. Eramızdan əvvəl 6-cı əsrdə Çarvaklar məktəbi (Çarvak sözü "car" (dörd) və vak (söz) sözlərindən əmələ gəlmiş və "dörd söz" deməkdir. Çarvaklara görə, dünya torpaqdan, sudan, havadan, oddan ibarətdir; bunların birləşməsindən canlı və cansız aləmin cisim və hadisələri yaranır. Çarvaklar dünyanın əbədiliyini qəbul edir, tanrı anlayışını rədd edirlər) bu sıraya aiddir. Hindistanda tanrı anlayışlarının olmadığı Cainizm və Buddizm dinlərinə rast gəlirik.

Qərb dünyasında ateizmin Sokratdan əvvəllərə gedib çıxan tarixi var. Amma bu maarifçilik dövrünə qədər fərqli formada ortaya qoyulmamışdır. Demokrit kimi filosoflar dünyanı ruhani və mistik anlayışlar olmadan materyalist formada izah etməyə çalışırdılar. Epikür isə ölümdən sonrakı durum ilə bir çox doktrinalar ilə çıxış etmişdir. Ona görə ruh tamamilə maddi və ölümlü varlıqdır. Epikür məktəbinin

davamçıları da tanrıların yoxluğunu iddia etməsə də başqa cür yanaşmışdır. Onlara görə tanrılar olsa belə insanlarla əlaqəli deyil.

Ateizmin də bir neçə forması var.

*Mütləq Ateizm*

Bəzi ateistlərə görə "ateizm" Tanrını rədd etməkdən savayı, zehində Tanrı fikirinə sahib olmamaq deməkdir. Bu anlayışa görə İnsan doğuşdan Tanrı anlayışına sahib olmadığı üçün rədd edəcək bir şeyi də olmamalıdır. Bu anlayışı müdafiə edənlərin arasında Pol Anri Holbax (1723-1789) var.

*Praktik Ateizm*

"Sanki Tanrı yoxmuş kimi yaşamaq" və ya "Tanrını gündəlik həyata daxil etməmək" formasında təyin olunmuşdur. Bu forma ateizmdə adam daha çox gündəlik həyatındakı rəftar və davranışlarıyla, həyat tərzi, qanun və vərdişləriylə, tanrısız bir dünya və tanrısız bir həyat qurmaq istəyir. Praktik ateizm anlayışında Tanrının nəzəri müzakirələrlə rədd edilməsi ikinci planda qalır. Fəlsəfədə ki nümayəndələri arasında Lüdviq Feyerbax (1804-1872), Fridrix Nitşe (1844-1900), Ziqmund Freyd (1856-1940) kimi məşhur mütəfəkkirlər də vardır.

*Teorik Ateizm*

Ateizmin birinci yanaşmasından bir az fərqli olaraq "Tanrının varlığını rədd etmək" şəklində də təyin olunmuşdur. Əslində ateizm deyilincə ağla bu tərif gəlir. Fəlsəfədə əhəmiyyətli olan və Tanrı inancına ağır tənqidlər yönəldən ateizm forması da budur. Yəni düşünərək müzakirə edərək zehini bir səylə tanrının varlığını rədd etmək və əlaqədar iddiaları çürütməyə çalışmaqdır. Nəzəri ateizm adlandırılan bu anlayış istiqamətində dindarların iddiaları və tanrının varlığı lehində gətirdikləri dəlillər tənqid mövzusu olmuş, bu müddətdə tanrının varlığını çürütməyə qarşı tezislər irəli sürülmüşdür. Nəzəri ateizmdə tanrının varlığı inkar edilməklə qalınmamış, bu anlayışla əlaqədar olaraq gündəmə gələn möcüzə, vəhy, peyğəmbərlik, müqəddəs kitab, ölümsüzlük və axirət həyatı kimi inanclar da tənqid olunmuş və rədd edilmişdir.

*Materializm*

Özündə fəlsəfi bir problem olan ateizm bəzən də ideoloji bir qanun olaraq müdafiə olunmuş və siyasi bir qəbul halına gəlmişdir. Xüsusilə Karl Marks, F. Engels (1820-1895) və V. İ. Leninin (1870-1924) fikirlərindən hərəkatla qurulan sosialist rəhbərliklərdə ateizm, kommunist partiyaların propaqanda vasitəsi olaraq istifadə edilmişdir. Köhnə Sovetlər Birliyində və hələ bəzi ölkələrdə ateizm Marksist və Leninist dünya görüşünün ayrılmaz bir parçası olaraq görülmüş və "elmi ateizm" adıyla təqdim edilmişdir.

*Laqeyd Ateizm*

Bir qrup mütəfəkkirlər, tanrının varlığını və ya yoxluğunu müzakirə mövzusu etmədən, bu mövzulara uzaq dayanmağı seçmişlər. Bu cür ateistlərə görə insan, yalnız mövcud olanla kifayətlənməli, görünən aləmin kənarına maraq duymamalıdır. Başqa sözlə dünyanın kənarındakı hər hansı bir varlıq haqqında müsbət ya da mənfi bir mühakimədə olmağa ya da danışmağa çalışmaq mənasız bir iş etmək olacaq.

**Pozitiv və Neqativ**

Antoni və Maykıl Martin kimi filosoflar pozitiv(güclü) ateizm ilə negativ(zəif) ateizmin bir-biri ilə ziddiyət təşkil etdiyini deyirdilər.Pozitiv ateizm açıq şəkildə təsdiq edir ki,heç bir tanrı mövcud deyil.Neqativ ateizm isə daha çox qeyri-teizmin digər bütün formalarına daxildir.Bu təsnifata əsasən kim bir teist deyilsə ya negativ ya da pozitiv ateistdir.Neqativ və pozitiv terminlərinin köhnə mənşəyə aid olmasına və fəlsəfi ədəbiyyatdə (bir az fərqli şəkildə) və Katolik apologetikasında istifadə edilməsinə baxmayaraq , *güclü* və *zəif* terminləri nisbətən yenidir.Ateizmin bu demarkasiyası altında, ən çox aqnostiklər neqativ ateist kimi təyin edilir.

Ateistlər kortəbii və *elmi ateistlər* olaraq 2 yerə bölünür. *Kortəbii ateistlər* Allahın nə üçün olmadığını izah edə bilmirlər. Elmi ateistlər isə Allahın olmamasını elmi kəşflərin əsasında deyirlər, belə qənatə gəlirlər ki, Allah yoxdur.

Ateizm bəzən hər hansı bir ilahi varlığın mövcud olduğuna dair sadə inamın olmaması ilə müəyyən edilmişdir.Bu geniş tərifə yeni doğulmuş və teokratik fikirlərə məruz qalmayan insanlar daxil edilir. Pol Anri Holbax deyirdi

"Hər uşaq ateist olaraq doğular:onların tanrı haqqında fikirləri yoxdur".Eyni şəkildə, Corc H. Smith (1979) bunu təklif etdi" Teizm ilə tanış olmayan adam, bir tanrıya inanmadığı üçün ateistdir.Bu kateqoriyada olanlar, həm də bu məsələləri başa düşmək üçün konseptual qabiliyyəti olan, lakin bu məsələlərdən hələ xəbərsiz olan uşaqları da əhatə edir. Bu uşağın tanrıya inanmaması onu ateist olaraq təyin edir." Smith *örtülü ateizm* terminini ortaya çıxartdı hansı ki, "Teistik inancların onları şüurlu olaraq rədd etmədən olmaması " şəklində tərif verirdi və *açıq ateizm-i* isə şüurlu olaraq teizmə inamsızlıq şəklində təyin edirdi. Ernest Naqel Smithin ateizm təriflərininin ziddiyətli olduğunu bəyan edir və göstərirdiki sadəcə *açıq ateizm* "doğru ateizm"dir və örtülü ateizm yanlız "teizmin yoxluğudur"

**Skeptisizm isə dünyagörüşüdür.** Mənası "şübhə etmək" deməkdir. e.ə. IV əsrin axırında yunan fəlsəfəsində formalaşmış cərəyan. Onun əsasını Pirron qoymuşdur.Elmi skeptiklər o adamlardır ki, onlar elmi biliklərə şübhə ilə yanaşır və hər zaman onları tənqid etməyə hazırdırlar.Skeptiklər hesab edirdilər ki, iki iddia yetərincə dəlillərlə əsaslandırılırsa, onda onlardan hansısa birinə üstünlük verərək onu qəbul etmək olmaz. Bu fikir də onların təliminin əsasını təşkil edirdi. Aşırı şübhəçilik *aqnostisizmə* və *nihilizmə* (cəmiyyətdə qəbul edilmiş hər bir dəyərin inkar edilməsidir) yaxınlaşır, hətta onu onların bir növü kimi dəyərləndirmək də mümkündür.

Skeptisizmi müdafiə edənlər bunu irəli sürürlər: "Biz sübuta yetirilmiş istənilən fikri qəbul edirik." Onlar ateistlərin "Allah yoxdur" vəya din xadimlərinin "Allah vardır" fikirlərini sübut edə bilmədikləri qənaətində olduqlarından onlara inanmırlar.

## İudaizm

İudaizm üç səmavi dindən biridir, yəhudilərin dinidir. İbadət yerləri **sinaqoq,** müqəddəs kitabları **Tövratdır**. İbranilər ilk öncə səhrada yaşayan qövm idilər və onlar ilk olaraq Həzrət Yusifin (ə) zamanında şəhərdə yaşamağa başladılar. Səhrada yaşamaq onların dini etiqadlarına və mərasimlərinə güclü təsir göstərmişdir. Musa (ə) onları Fironun əlindən xilas edəndə qırx il Sina səhrasında yaşamaq məcburiyyətində qaldılar. Amma ondan sonra həmişə şəhərlərdə yaşamağa və

Yəhudi qövmünün qiymətli irsinin yaranması üçün mədəniyyət yaratdılar. Bundan sonra həmin ərazilərdə xristyanlıq meydana çıxdı. Xalqlarda düşüncə tərzinin dəyişilməsi adi və təbii haldır. İbranilər köç zamanı müxtəlif xalqların düşüncə təsiri altına düşdülər. Məsələn; dənizdən keçəndən və Fironun əlindən xilas olduqdan sonra bir dəstə bütpərəstlə üzləşdilər və Həzrəti Musadan (ə) onlar üçün büt hazırlamalarını xahiş etdilər. Onların bu istəyi kəskin şəkildə rədd edildi: "Biz İsrail oğullarını dənizdən keçirtdik, (sonra) onlar öz bütlərinə tapınan bir tayfaya uğradılar. (İsrail oğulları) dedilər: "Ya Musa! Bizə onların sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!" (Musa belə) cavab verdi: "Siz, doğrudan da, cahil bir tayfasınız!" (Əraf surəsi, 138). Eləcə də, Misirdə yerləşəndə Misirlilərin dini inancları onlara güclü şəkildə təsir göstərdi. Belə ki, onlar bu ölkəni tərk etdikdən sonra belə Misirlilər kimi inəyi müqəddəsləşdirdilər. Bunun nəticəsində onlar qızıldan inək bütü yaradaraq ona ibadət etməyə başladılar. Həzrət Musa (ə) Tövratın Xuruc bölümünün ikinci fəslində belə qeyd olunmuşdur ki, Bəni-İsraildən bir nəfər öz qəbilələrindən olan qızlardan biri ilə ailə qurur və onların oğulları dünyaya gəlir. Yeni doğulmuş körpənin anası onu Fironun məmurlarının əlindən xilas etmək üçün üç ay gizlədir. Uşağı daim gizli saxlamaq mümkün olmadığı üçün anası bir sandıq düzəldir, taxtaların birləşən yerlərini qırla doldurur, uşağı həmin sandığın içərisinə qoyaraq Nil çayının qamışlıqları arasında suya buraxır. Körpənin bacısı isə həmin ətrafda dayanaraq onun başına nə gələcəyinə tamaşa edir. Qısa bir müddətdən sonra yuyunmaq üçün Nil çayının sahilinə gələn Fironun qızının gözü sandığa sataşır və kənizlərdən birini sandığın arxasınca göndərir. Sandığı onun yanına gətirirlər və o sandığı açanda içərisində ağlayan uşaq görür. Onun ürəyi uşağın halına yanır, amma həmin körpənin Bəni-İsraildən olduğunu bilir. Bu zaman körpənin bacısı Fironun qızına yaxınlaşır və uşağa süd vermək üçün qadın tapmasını ona təklif edir. Fironun qızı onun bu təklifini qəbul edir və qız öz anasını onların yanına gətirir. Fironun qızı həmin xanıma deyir: "Uşağı özünlə apar, ona süd ver və mən də sənin bütün xərcini ödəyəcəm." Bir neçə ildən sonra uşaq böyüyür və anası onu Fironun qızının yanına aparır. Fironun qızı onu oğulluğa qəbul edir və ona Musa (Muşe, İbri dilində "Sudan çıxarılmış") adını verir. Bu hadisə Qurani-Kərimin Qisəs surəsində qeyd olunmuş

hekayə ilə yaxındır. Bəzi tarixi hesablamalara və hadisələrin analizinə görə bu hadisənin eradan 1250-1300 il öncə baş verməsi bildirilir. Bu məsələ Qurani-Kərimdə, Yusif surəsinin 100-cü ayəsində qeyd olunmuşdur. 2 İslami hədislərdə onun adı İmran və Tövratda imram ibni Qəhat ibni Lavi ibni Yaqub kimi qeyd olunmuşdur. (Xuruc 20-14:6) 112 həmin sandığın içərisinə qoyaraq Nil çayının qamışlıqları arasında suya buraxır. Körpənin bacısı isə həmin ətrafda dayanaraq onun başına nə gələcəyinə tamaşa edir. Qısa bir müddətdən sonra yuyunmaq üçün Nil çayının sahilinə gələn Fironun qızının gözü sandığa sataşır və kənizlərdən birini sandığın arxasınca göndərir. Sandığı onun yanına gətirirlər və o sandığı açanda içərisində ağlayan uşaq görür. Onun ürəyi uşağın halına yanır, amma həmin körpənin Bəni-İsraildən olduğunu bilir. Bu zaman körpənin bacısı Fironun qızına yaxınlaşır və uşağa süd vermək üçün qadın tapmasını ona təklif edir. Fironun qızı onun bu təklifini qəbul edir və qız öz anasını onların yanına gətirir. Fironun qızı həmin xanıma deyir: “Uşağı özünlə apar, ona süd ver və mən də sənin bütün xərcini ödəyəcəm.” Bir neçə ildən sonra uşaq böyüyür və anası onu Fironun qızının yanına aparır. Fironun qızı onu oğulluğa qəbul edir və ona Musa (Muşe, İbri dilində “Sudan çıxarılmış”) adını verir.

Yəhudilər də digər qövmlər kimi yaşadıqları mühitin təsiri altına düşmüşlər və bəzi sivilizasiyalar ilə təmasda olanda istər istəməz onların bir çox düşüncə tərzlərindən və adət-ənənələrindən yararlanmışlar. Amma bunu da qeyd etməliyik ki, onlar həmişə bütün sadaladığımız məsələlərə özlərinəməxsus Yəhudi donu geyindirirdilər. Ümumiyyətlə Yəhudilər dindar və adət-ənənəyə bağlı qövmdür. **Yəhudilikdə təbliğ yoxdur, çünki Yəhudilər öz dinlərini Allahın yalnız Bəni-İsrail nəsli üçün buyurduğu ilahi nemət kimi qəbul edirlər.** Elə bu səbəbdən də, kim özü Yəhudi olmaq istəsə onu qəbul edirlər. Təlmudda belə tövsiyyə olunur ki, kim Yəhudi olmaq istəsə ilk olaraq ona bu qövmün çəkdiyi zilləti anlatmaq lazımdır. Yalnız həmin şəxs meydana girmək cəsarətini özündə topladıqdan sonra bu dinə daxil olmaq şansını qazanır. Sonda həmin şəxsin Yəhudiliyə qəbul olunub olunmaması üçün məhkəmə qurulur. Nadir hallarda Yəhudiliyin məcburi qəbul

etdirilməsi mövcud olmuşdur. Yəhudilər bir sıra hallarda insanları sionizmə dəvət edirlər.

Dində təbliğ olunan əsas mənəvi dəyərlər aşağıdakılardır.

- Özünüzə məndən başqa Allah seçməyin.
- Bütə səcdə etməyin.
- Allahın adını yalandan çəkməyin
- Şənbə gününü müqəddəs bilin.
- Ata və ananıza hörmət göstərin
- İnsan qətlə yetirməyin
- Zina etməyin
- Oğurluq etməyin
- Qonşu üçün yalandan şahidlik etməyin .
- Qonşunun malına və namusuna qarşı tamahkarlıq etməyi

Yəhudilikdə tövhid məfhumu Yəhudilik (İslam və xristyanlıq kimi) başlanğıcdan tövhid üzərində qurulmuşdur və Yəhudililərin bütün peyğəmbərləri, Həzrət Musadan (ə) başlayaraq bütün çoxlu sayda peyğəmbərlərin hamısı Allaha şərik qoşmaqla mübarizə aparmışlarYəhudilərin çoxlu və olduqca qarışıq dini əhkamları mövcuddur. Belə ki, bütün bu dini əhkamların hamısını bir kitabda yerləşdirmək mümkünsüzdür. Qeyd olunmuş dini əhkamlar murdar, pak, halal və haram yeməklər, digər məsələləri əhatə edir. Əti halal və haram olan heyvanlar barədə mövcud olan əhkamlar Levilər 11 və Təsniyə 14-də yerləşdirilmişdir. Məsələn; cütdırnaqlı və gövşəyən heyvanların əti halaldır. Dəvə və dovşan gövşəyir, amma cütdırnaqlı deyillər. Elə buna görə də onların əti haramdır. Eləcə də, quşlar və dəniz heyvanları barəsində də çoxlu sayda dini əhkamlara malikdirlər. Yəhudilərin əti halal olan heyvanlar, onların kəsilməsi, haram və halal yerlərinin bölüşdürülməsi, bişirilməsi, yeməyin saxlanılması və yeyilməsi sahəsində geniş məhdudiyyətləri vardır. Heyvanı kəsən şəxs ya dini alim olmalıdır, yaxud heyvanın kəsilmə qaydalarını dini alimlərin yanında tam öyrənmiş şəxs olmalıdır. Halal və yeyilməyə

münasib olan ət **Kaşer** adlanır. ***Yəhudilikdə əti süd və yaxud süd məhsulları ilə yemək də haramdır.*** Elə buna görə də İsraildə bəzi "Əmr be məruf və Nəyh ən munkər"-lə məşğul olan xüsusi dəstələr yeməkxanalara gedərək müştərilərə haram ətin və yaxud ətlə süd məhsullarının verilməməsi işlərinə nəzarət edirlər. Yəhudilər üçün çörəyi və bir neçə başqa yeməyi yemək məqsədilə şəri əl yumaq qaydaları da mövcuddur. Yeməkdən sonra barmaqların heç olmasa iki qatlanan hissəsini yumaq vacid buyurulmuşdur. Yuxudan oyandıqdan sonra ibadət etmək üçün əlləri dirsəklərə qədər yumaq və dəstəmaz almaq, eləcə də qola və alına üzərində Tövrat ayələri yazılmış parçaları bağlamaq vacib buyurulmuşdur. Yəhudilər gündə üç dəfə namaz qılırlar; sübh, əsr yaxud axşamüstü və axşam namazı. Sinaqoqda namaz qılmaq daha yaxşı bilinir və sinaqoqda ən azı on kişi toplaşdıqdan sonra camaat namazı qılınır. Namaz vaxtı digərlərindən daha yaşlı və İbrani dilini daha yaxşı bilən bir kahin öndə dayanır və İbrani dilində dualar oxuyur, Tövratdan tilavət edir və bəzi hallarda rukuya gedir. Yəhudilərin ibadət zamanı ən çox oxuduğu dua Tövratdan götürülmüş Şema (yəni, "Dinlə" deməkdir) adlanır: Ey İsrail, dinlə: Bizim Allahımız olan Yahvəh vahid və tək Yahvəhdir. Onda öz Yahvə Allahınızı bütün gücünüz və bütün ruhuunuzla sevin! (Təsniyə, 6:4-5)1 Yəhudilərin qibləsi Urşəlim şəhəridir. Yalnız Samerilər qiblənin Nablos şəhərinin yanındakı Cerezyem dağı olduğunu bildirirlər. Yəhudilərin orucu ilin müxtəlif ayları arasında bölüşdürülmüşdür. Onların ən əsas orucu "Yovmu Kipur"-dur. Bu gün münasibətilə həmin gündən öncəki günün axşamından başlayaraq bir gün müddətində oruc tutulur. Bu gün ərzində yemək, içmək, (barmaqları çıxmaq şərtilə) yuyunmaq, daranmaq, ətir vurmaq və digər gözəllik vasitələrindən istifadə etmək, kişilərin öz qadınları ilə cinsi əlaqədə olması, dəri ayaqqabı geymək olmaz və Yəhudilər sinaqoqlara toplaşaraq ibadətlə və istiğfarla məşqul olurlar. Bundan əlavə daha dörd vacib oruc vardır və bunlardan biri İbrilərin Su ayının doqquzuna təsadüf edir. Yəhudilər bu günün orucunu eradan əvvəl 587-ci ildə Urşəlimin dağdılmasını anaraq "Yovmu Kipur" orucu kimi tuturlar. Daha üç vacib və bir neçə müstəhəbbi oruclar da mövcuddur. Məsələn; birinci və dördünçü günlər yemək və içməkdən imtina edərək gün doğandan gün batanadək oruc tuturlar. Urşəlim məbədinin mövcud olduğu 70-ci

ilədək Yəhudi kişiləri ildə üç dəfə piyada olaraq ora getmək məcburiyyətində idilər. Bunun biri Fesh bayramına, digəri Həftələr bayramına və üçüncüsü Sukkot bayramına təsadüf edirdi. Sözsüz ki, ondan sonra da Urşəlimə ziyarət səfərləri var idi və İran Yəhudilərinin adət-ənənələrinə əsasən bu zəvvarlara da Hacı adı verirdilər. İnsanın sünnət edilməsi Yəhudilikdə təkid olunmuş vacib əməllərdəndir və Allahın Həzrət İbrahimlə (ə) 2 bağladığı əhdə əsasən uşağın dünyaya gəlişinin səkkizinci günündə Yəhudi ruhaniləri tərəfindən həyata keçirilir. Onlar vacib əməl sayılan sünnətə çox böyük əhə- 1 Qeyd etdiyimzi kimi Yəhudilikdə "Yəhvəh" sözündən istifadə etmək qəti şəkildə haram buyurulmuşdur və Yəhudilər Tövratı tilavət edərkən və ibadətlə məşğul olarkən həmin sözün əvəzinə "Aduney", yəni "mənim Ağam" sözündən istifadə edirlər. Yaranış miyyət verdiklərinə görə qeyri-Yəhudi uşaqları da sünnət edirdilər. ***Xristyanlıqda və zərdüştlükdə sünnət yoxdur***. Həzrət Musa (ə) və Həzrət Harunun (ə) qəbiləsindən olan Yəhudilər Levilər adlanırlar və təxminən İslam dünyasındakı seyyid anlayışını və mənasını verir.

Yəhudilər vətənlərini itirdilər, amma dinlərini, mədəniyyətlərini, adət və ənənələrini qoruyub saxladılar və digər qövmlərin arasında assimilyasiya olunmadılar. Belə bir vəziyyət onların müxtəlif qövmlərin arasında yaşamalarına görə meydana çıxmışdır. Onlara ilk sahiblik edən müşriklər, sonra xristiyanlar və daha sonra müsəlmanlar olmuşlar. Onlar müsəlman ölkələrində, xüsusən də Andalosiyada yaxşı yaşayırdılar və onların bəziləri ictimai sahələrdə yüksək məqamlara qədər qalxa bilmişdilər. Halbuki, Avropa ölkələrində yaşayan Yəhudilər onlar üçün ayrılmış **Qetto (ghetto)** adlı yerlərdə zillət içərisində yaşayırdılar. Bir çox hallarda isə xristiyanlar onları güc yolu ilə öz dinlərinə gətirirdilər. Xristyanlar 1492-ci ildə Andolosiyanı tamamilə müsəlmanlardan aldıqdan sonra Yəhudiləri də həmin ərazilərdən qovmağa başladılar. Həmin yurdsuz-yuvasız Yəhudilər sonda Şimali Afrikadakı müsəlman ölkələrinə, Osmanlı dövlətinə sığındılar. Amma onların az bir hissəsi dəniz quldurları və acgöz dənizçilərdən yaxa qurtararaq müsəlmanların mehr və məhəbbətlə dolu qucaqlarında yer tapa bildilər. Müsəlmanların insanpərvər və humanist xüsusiyyətləri, əcnəbilərlə xoş davranmaları Yəhudi və Xristyan tarixçiləri

tərəfindən ağızdolusu ilə qeyd olunmuşdur.  Yəhudilərin özünəməxsus ruhiyələri və onların iqtisadi bacarıqları onları qəbul etmiş xalqların onlara qarşı həssasiyyətini gücləndirirdi. Təəssüf hissi ilə qeyd etməliyəm ki, aşağıda qeyd edəcəyimiz ziddiyyətli məsələlər Yəhudilərlə digər xalqlar arasında dərin parçalanmaların meydana çıxmasına səbəb oldu:   Onların qədim zamanlarda Həzrət İsaya (ə) qarşı kəskin mövqedən çıxış etmələri Xristiyanların müqəddəs İncil kitablarında, eləcə də, Yəhudilərin Həzrət Muhəmmədə (s) qarşı düşmənçilik aparmaları, müharibələr törətmələri Qurani-Kərimin Bəqərə, Ali İmran, Nisa, Maidə, Əhzab və Həşr surələrində qeyd olunmuşdur. Tarix boyu da Yəhudilər həmişə ya xristiyan, ya da müsəlman ölkələrində yaşamışlar. Onların sonrakı dövrlərdə də davranışları ( İslam cəmiyyətlərində şərab paylamaları, pozğun qadınlara niyyətlərini həyata keçirmək üçün evlərini icarəyə vermələri, müsəlmanlara və xristiyanlara faizlə pul vermələri) onlara qarşı etiraz yaradır. İsrail dövlətinin hal-hazırda həyata keçirdikləri təcavüzkarlıq dünya ictimaiyyəti arasında Yəhudilərə qarşı etiraz yaratması.

Keçmişdə istər xristian və istərsə də müsəlman ölkələrində yəhudilərin əzilməsi işləri aparılmışdır. Bəzən də insanlar (Məsələn; hər hansı bir uşağın Yəhudilər tərəfindən oğurlanması şayiəsinin yayılmasından sonra) onları yerli dini (Xristyanlıq və yaxud İslam dinini) qəbul etməyə məcbur edirdilər. İnsanlar öz istəklərinə çatmaq üçün onlara donuz əti, yaxud ətlə qatıq (ətlə süd məhsulu yemək iudaizmdə haram sayılır) yedizdirirdilər.Qeyd etmək lazımdır ki, istər Xristianlıq və istərsə də İslam dinində belə rəftarlar düzgün hesab edilmir və müsəlman alimlər insanların belə davranışlarına kəskin etirazlarını bildirmişlər. Digər tərəfdən də insanlar məcburiyyət üzündən zahirən İslamı qəbul etsələr də daxildə Yəhudi qalırdılar. Dünya səviyyəsində aparılan Yəhudiliklə mübarizə **“anti-Semetizm**” adlandırılır. Hitler də çoxlu sayda Yəhudiyə işgəncə verərək müxtəlif yollarla qətlə yetirmişdir. Bəzi Yəhudilər xüsusi sobalarda yandırılmışlar və insanların belə formada edam edilmələri “**Holokost”** adlandırılmışdır Dünya səviyyəsində mövcud olan Yəhudi şəbəkəsi kütləvi informasiya vasitələrini ələ alaraq beyinlərə və düşüncə tərzlərinə də təsir göstərə bilmiş, bu yolla özünə tərəfdaşlar əldə edə bilmişlər. Elə buna görə

də, Ağ evə və Amerika Birləşmiş Ştatlarının digər icraedici orqanlarına daxil olmaq istəyən şəxslər ilk olaraq **sionistlərin** itaət kəndirini öz boyunlarına salmalıdır. Yalnız bundan sonra o vəzifəyə qalxa bilirlər. Elə buna görə də, Amerika Prezidenti və digər rəsmiləri İsrailin təcavüzkar hərəkətlərini müdafiə edirlər. Fələstinin istila edilməsi yəhudilərlə müsəlmanlar arasında münasibətləri pisləşib.

**İudaizmdə müqəddəs bayramlar a**şağıdakılardır:

1. **Şənbə günü**: Bu gün ailənin bütün üzvləri bir yerdə yemək yeyirlər və bu ziyafət zamanı ailə başçısı əlinə bir piyalə şərab alaraq dua oxumağa başlayır və ailə üzvlərinə ötürür. Ailə üzvləri hamısı bir-bir həmin şərabdan içirlər.
2. Ayın başlanğıcı bayramı: İbrani dilində bu bayram “**Ruş hudeş”** adlandırılır və tərcümədə mənası ayın başlanğıcı deməkdir.
3. **Yeddinci il** və yaxud ayrılma ili: Tövrata əsasən hər yeddi ildən bir bütün borclar və pul ödəmələri bağışlanmalıdır, Yəhudi qulları azadlığa buraxmaq kimi insanpərvər işlər həyata keçirilməlidir (Təsniyə 15). Bu ilin İbrani dilindəki adı “Şemita”-dır və tərcümədə “azad olmaq” mənasını kəsb edir.
4. **Yubil ayı**: Bu bayram hər **əlli ildən bir** baş tutur və bu bayram münasibətilə bir çox insanpərvər, humanist və əxlaqi işlər həyata keçirilir.
5. Fish (Pesəh və yaxud **Pasxa**) bayramı: Lüğəvi mənası **göz yummaqdır**. Firon və onun ətrafındakılara bəlanın nazil olduğu zaman Allahın Bəni-İsraillin ilk övladlarının qətlinə göz yumması münasibətilə belə adlandırılmışdır. Amma bu bayramın belə təntənə ilə qeyd olunmasının əsas səbəbi Bəni-İsrailin Fironun zülmündən xilas olmaları münasibətilədir. Bu bayram Fələstində yeddi və başqa yerlərdə səkkiz gün keçirilir və bahar fəslinin Nisan ayının on dördündə başlayır. Bu bayram mərasimi Tövratda (Xuruc 12) qeyd olunmuşdur. Fəsh və yaxud Pasxa Yəhudilərin ən böyük bayramıdır və qeyd olunmuş bayram müddəti ərzində fətir çörəklərdən istifadə etməyə icazə verilmişdir. Birinci gecə ( İsraildən kənar yerlərdə ikinci gecə də) bayram axşamı süfrəsi açılır və **Misirdə keçirilmiş acı günlərin xatirəsini canlandırmq məqsədilə acı göyərtilər yeyilir**.

6. **Yovmu Kipur:** Yəni, Kəffarə günü; Bu çox əhəmiyyətli bayramdır Teşri ayının onuncu gününə təsadüf edir. Bu günü "Asura", yəni "Aşura və yaxud onuncu gün" adlandırırlar. Yəhudilər həmən gündən öncəki günün axşamından bayram gününün axşamınadək günahlarının kəffarəsini vermək məqsədilə oruc tuturlar. Bu günün müqəddəsliyi şənbə gününün müqəddəsliyindən daha üstündür və bu bayram günü işləmək tam şəkildə haramdır  Yovmu Kipur bayramında fundamental Yəhudilər köhnə və cındır paltarlar geyinirlər.

## Xristianlığın yaranması

Xristianlıq üç böyük dünyəvi dindən biridir. Müqəddəs kitabı **İncil,** ibadət yerləri **kilsə** adlanır. İsa Məsihin doğum hekayəsi belədir: Onun anası Məryəm Yusiflə nişanlanmışdı. Onlar yaxınlıq etməmişdən öncə Məryəm Müqəddəs Ruhdan hamilə qaldı. Həyat yoldaşı Yusif saleh bəndələrdən olduğu üçün ona öyüd-nəsihət vermək istəmədən gizlicə onu buraxıb getmək istədi. Amma, o bu barədə düşündüyü zaman birdən Allahın mələklərindən biri onun yuxusuna gəldi və dedi: "Ey Davudun oğlu Yusif, Məryəmi həyat yoldaşın etməkdən qorxub çəkinmə, çünki, onun daxilində olan Müqəddəs Ruhdandır. O bir oğlan dünyaya gətirəcək və onun adını İsa qoyacaqsan. Çünki, O öz ümmətini günahlardan uzaqlaşdıracaq." Bütün bunlar Allahın peyğəmbərin dili ilə dediyi kəlamın tamamlanması və bakirə qızın hamilə qalaraq oğlan dünyaya gətirməsi və adını "Emmanuel" qoyması üçün baş vermişdir. Təfsirdə bu ad "Allah bizimlə" deməkdir. Yusif yuxudan oyanan kimi Allahın mələyi buyurduğu kimi lazım olanı həyata keçirtdi və Məryəmi özünə həyat yoldaşı etdi. Birinci oğlu olmayana qədər onu tanımadı (yaxınlıq etmədi). Onun adını İsa qoydu." (İncil Mattaya görə, 1: 18-25) İsa Məsih (ə) üçün Matta incilinin başlanğıcında və Luka İncilinin üçüncü fəslində nəsəbnamə (nəslin sıralaması) qeyd olunmuşdur. Bu iki fərqli nəsəbnaməni açıqlamaq İncil təfsirçiləri üçün ən böyük problemlərdən biridir.

Bunu da qeyd etmək lazımdır ki, Həzrət İsanın (ə) atasının olmaması Xristiyanlıqda ən böyük etiqadi məsələlərdən biridir və yalnız İncillərdə qeyd olunduğu kimi O Həzrətin "Dülgər Yusif" adlı atası olmuşdur. Amma Qurani-Kərimdə bu tarixi bir məsələ kimi qeyd olunmuşdur və insanların Həzrət Məryəmə (ə) qarşı hücum çəkərək onu ismətsizlikdə günahlandırmaları öz əksini tapmışdır. Elə bu səbəbdən də, O "sükut orucu"1 tutur və onun dünyaya yenicə gəlmiş 1 Xristiyanlıqda müstəhəbbi sükut orucu, yəni danışmamaq orucu vardır. 171 körpəsi danışmağa başlayır və anasına verilən ittihamları puça çıxardır. (Məryəm surəsi, 26-33)

Yəhudi dininin liderləri Həzrət İsanın (ə) onların "Xilaskar Məsih" qiyamının öhdəsindən gəlməməsini və onların arzularını həyata keçirə bilməməsini, eləcə də, onların əxlaqi çatışmazlıqlarına və davranışlarına qarşı çıxdığını müşahidə etdikdən sonra onunla müxalifət etməyə başladılar. Həqiqət bu idi ki, Həzrət İsa (ə) Bəni-İsrailin intizarında olduğu İlahi dövləti yaratmağa nail olmadı. Buna görə də O Həzrətin silahdaşları belə bir iddia irəli sürdülər ki, (birinci) O, bəşəriyyətin günahlarının qurbanı olmaq üçün gəlmişdi və (ikinci) O, sonuncu hakimlik üçün yenidən qayıdacaq. Bu iki məsələ Xristyanlığı əsası oldu. Digər tərəfdən isə Yəhudilər belə bir iddai ilə çıxış etməyə başladılar ki, Bəni-İsrailin utopik dövlətinin Həzrət İsa (ə) tərəfindən yaradılmaması və sonda çarmıxa çəkilməsi onun xilaskar Məsih yox tarixdə saysız-hesabsız olan saxta Məsihlərdən biri olduğunu sübuta yetirir. İncillərin hər dördündə Həzrət İsanın (ə) həyatı və sözlərindən bir hissəsi qeyd olunmuşdur, amma onların əksəriyyəti O Həzrətin peyğəmbərlik fəaliyyətlərinə aiddir. Belə ki, O Həzrətin çarmıxa çəkilməsi hadisəsi hər dörd İncilin sonunda qeyd olunmuşdur. Amma, bir neçə şagirdi ilə kilsənin, yəni xristiyan icmasının əsasını qoyduğu üçün ondan sonra, yəni onun şəhadətindən uzun illər keçdikdən sonra onun adı ilə bağlı olan din yavaş-yavaş meydana çıxaraq güclənməyə başladı. Yəhudi dininin liderləri Həzrət İsanın (ə) təlimlərinin onların mənafelərinə zidd olduğunu görəndə onu qətlə yetirmək üçün məkrli plan hazırladılar. O Həzrət həyatının sonuncu gecəsində öz şagirdlərilə sonuncu dəfə İlahi Şam süfrəsinin təamlarından yedi. Sonra onun on iki seçilmiş şagirdindən biri olan

Yəhuda İsxaryuta Yəhudi kahinlərindən aldığı pulun müqabilində O Həzrətə xəyanət etdi və onu Yəhudi kahinlərinin göndərdiyi dövlət məmurlarına təslim etdi. 1 Yəhudilərin kimisə edam etməyə hüququ çatmaması səbəbindən onu Urşəlimin Romalı başçılarına təslim etdilər. İncillərdə qeyd olunduğu kimi Romalı hökümdar Pilatos onu cəzalandırmaqdan boyun qaçırdı və onun hər hansı bir cinayət işləmədiyini söylədi. Amma, Yəhudilər onun edam olunmasına təkid etdilər və Həzrət İsanın (ə) edam olunmayacağı təqdirdə qiyam edəcəklərini bildirdilər. Pilatos onlara dedi: “Məsih adı ilə tanınan İsa ilə mən necə davranım?” Birlikdə dedilər: “Çarmıxa çəkilsin!” Hökümdar dedi: “Niyə? Nə pislik edib?” Onlar daha ucadan fəryad çəkərək dedilər: “Çarmıxa çəkilsin!” Pilatos bu sözlərin təsirsiz olduğunu və çaxnaşma yaradacağını görəndə su istədi və insanların gözü qarşısında əllərini yuyaraq dedi: “Bu ədalətli şəxsin qanı mənim boynuma deyil. Özünüz bilin!” Qövmün bütün üzvləri dedilər: “Onun qanı bizim və bizim övladlarımızın üzərindədir.” (Matta 27:22-25) İncillərdə qeyd olunduğu kimi Həzrət İsa (ə) çarmıxa çəkildi, çarmıxda öldü və onu dəfn etdilər. Üç gündən sonra yenidən dirildi. O qırx gün ərzində bəzən öz şagirdlərinin gözünə görsəndi və sonra göylərə qalxdı. Xristyanların nəzərincə bu hadisə 33-cü ildə baş vermişdir. Düzdür, Həzrət İsa (ə) insanların arasından getdi. Onun dostlarından və silahdaşlarından bəziləri dedi: “Onun dünyadan köçməsi və torpağa tapşırılması düzdür, amma üçüncü gün qəbirdən qalxdı, göylərə ucaldı və yer üzərində yenidən hakimlik etmək üçün qayıdacaq”. Eləcə də, bu sözləri də dedilər: “Həzrət İsa (ə) insanların günahlarına qurban gedərək qətlə yetirildi.” Belə bir iddia da irəli sürdülər ki, Əhdi-Ətiqdə qeyd olunan peyğəmbərlər onun əzablara düçar olaraq çarmıxa çəkiləcəyini öncədən xəbər vermişdilər. Məsih sözü də öz əsil mənasını itirdi, çünki heç kim Həzrət İsanın (ə) başına şahlıq məhsi çəkməmişdir. Həvarilər onun Allah tərəfindən məhs olunduğunu bildirdilər. (Həvarilərin işləri 4:27) Xristyanlar İsa Məsihin (ə) şəhid olduğunu qəbul etmirlər, əksinə onun insanların günahlarının qurbanına çevrildiyini iddia edirlər. Tarixdən məlum olduğu kimi bu inanc Xristyanlığın əsasıdır və onlar öz təbliğat işlərində bu məsələ üzərində çox dayanırlar. Həzrət İsanın (əs) çarmıxa çəkilməsindən əlli gün sonra Gültökmə bayramı (Əlligünlük, Pentikast bayramı)

çatdı. Həmin gün müqəddəs ruh Həvarilərin yanına gəldi və onlardan sonra əsrlər boyu Həzrət İsanın (ə) risalətini çiyinlərində daşıyacaq cəmiyyət yarandı.

Dinin inkişafında və genişlənməsində iki amil əsas rol oynayır: ***birincisi, əzablara dözmək və ikincisi təbliğ.*** Din kənara qoyulduqda məhv olur. Xristyanlar təxminən 300 il böyük əzab-əziyyətlər çəkdilər və bu yoldu saysız-hesabsız şəhidlər verdilər. Xristyanlığın əsası da elə bu 300 il ərzində qoyuldu və müxtəlix xalqları bu dinə dəvət etmək sahəsində də böyük uğurlar əldə olundu. Roma imperiyasında xristyanların sayının durmadan artması nəticəsində 4-cü əsrin əvvəlrində həmin imperiyanın rəsmi dini kimi qəbul edildi. Geniş təbliğat işləri nəticəsində isə dünyanın bir çox yerlərində genişlənməyə başladı. Bəzi dinlərdə, o cümlədən **Yəhudilikdə təbliğ yoxdur** və davamçıların sayının çoxalmasına vacib məsələ kimi baxılmır. Amma, **İslam və Xristianlıq kimi dinlərdə təbliğ məsələsinə böyük önəm verilir**. Xristiyan təbliğatçılarından ibarət heyətlər qədim zamanlardan dünyanın müxtəlif ölkələrinə səfər edərək bu dini hər yerdə yaymaqla məşğul oldular. Eləcə də, son əsrlərdə qərb mədəniyyətinin çiçəklənməsi, istismarçılığın və mədəniyyət hücumunun başlaması nəticəsində Xristyanlıq şərq ölkələrində də geniş yayılmışdır.

Sonralar dini liderlər Həzrət İsanın (ə) tövsiyəsinin tam əksinə olaraq "Ata"-"Papa" adını üzərilərinə götürdülər. Yepiskop və keşiş kimi ləqəblər də onların arasında kəskin şəkildə çoxalmağa başladı. Roma şəhərinin Yepiskopu Papa adlandırılırdı və Yunan dilində bu ata mənasını kəsb edirdi. Bu sözün Fransız dilindəki tələffüzü "Pap" idi. İndiyə qədər 260-dan artıq Papa Katolik xristyanların rəhbərliyinə nail olublar. Bəzən Papalar boyunlarından daim asılmış xaçdan əlavə kəmərlərin iki ədəd qılınc bağlayırdılar. Papa olmaq müddətli deyildir və ömürünün axırınadək davam edir. Papa dünyasını dəyişəndə "**Kardinal"** adlandırılan yüksək məqamlı Yepiskoplar yeni Roma Papasının seçilməsi üçün Vatikanda bir araya gəlirlər və Papanın kim olması barəsində məşvərət aparırlar. Lazımi qədər səs toplanıldıqda rəy kağızları xüsusi samanla birlikdə yandırırlar və məxsusi tüstü borusundan üğ tüstü çıxır. Tüstü borusundan ağ tüstünün çıxması yeni Papanın seçilməsini insanlara

çatdırmaq mənasını daşıyır. Bir müddətdən sonra Kardinallardan biri eyvana çıxaraq qaydaya uyğun olaraq Latın dilində bu sözləri söyləyir: “Habemus Papam”, yəni “Bizim Papamız var”. Bu sözdən sonra yeni Papanın adını söyləyir. Tanıdılma mərasiminin başa çatmasından sonra yeni Papa eyvana çıxaraq insanları əlinin yelləyərək salamlayır. Amma lazımi qədər səs toplanılmadıqda rəy kağızları xüsusi otla yandırılır və tüstü borusundan boz tüstü çıxır. Bu işarə insanlara yeni Papanın hələ seçilmədiyini və müzakirələrin davam etdiyini çatdırır. Artıq min ildir ki, Papalar seçiləndən sonra öz adlarını dəyişdirirlər. Bu müddət ərzində Papaların iyirmi üç nəfərinin adı “Jan” və altı nəfərinin adı “Pol” olmuşdur. Roma Papası iyirmi üçüncü Jan 1963-cü ildə dünyasını dəyişdi və altıncı Pol onun yerinə keçdi. Onun 1978-ci ildə vəfat etməsindən sonra seçilən Papa tarixdə ilk dəfə olaraq adını “ Birinci Jan Pol” qoydu. O bu addımı ilə özündən öncə olan hər iki Papanın yolunu davam etdirmək istədiyini bildirdi.

Xristyanların müqəddəs kitabı iki hissədən ibarətdir: **Əhdi-Cədid və Əhdi-Ətiq.** Bu müqəddəs kitabların belə adlandırılmasının səbəbi Allahu-Taalanın insanla iki dəfə əhd-peyman bağlaması olmuşdur. Biri köhnə əhd-peymandır və o Həzrəti İsa Məsihdən (ə) öncə yaşamış başqa peyğəmbərlərlə bağlanılmışdır. Bu əhd-peymanda yaxşı və pis vədələrin, qanunların və şəriətin köməkliyi ilə nicat tapmağın bəzi yolları müəyyənləşdirilmişdir. Köhnə əhdin, yəni Əhdi-Ətiqin tərəfdarları Bəni-İsrail olmuşlar. İkincisi yeni Əhd-peymandır və AllahuTaala onu Həzrət İsa Məsihə və onun tərəfdarlarına nazil etmişdir. Yeni Əhddə nicatın yalnız məhəbbət yolu ilə əldə olunması müəyyənləşir. Belə ki, onların nəzərinə görə Allah insan cildində görsənir, insan övladının günahlarını öz üzərinə götürür, çarmıxa çəkilmə əzabına dözərək bütün günahların müqabilində qurbana çevrilir. Tarixə nəzər salsaq görərik ki, belə düşüncə ağıl və məntiqlə üst-üstə düşməməsinə baxmayaraq xristyanlığın əsasını qoymuşdur. Yühənna İncilində bu sözlər qeyd olunmuşdur: “Allah bu dünyada o qədər məhəbbət bəslədir ki, öz yeganə oğlunu göndərdi və ona iman gətirənlərin həlak olmamasını, əbədi həyata qovuşmalarını buyurdu. Çünki, Allah

öz oğlunu yer üzünə mühakimə etmək üçün göndərməmişdir, əksinə onun vasitəsilə dünya nicat tapsın. (Yühənna 3:16-17)

Xristyanların nəzərincə Allahın bəşər əhli ilə bağladığı iki əhdpeyman mahiyyət baxımından bir-biriləri ilə ixtilafdadır və iki müxtəlif yolla ərsəyə gəlmişdir. Əhdi-Ətiq Həzrət İsadan (ə) öncə yaşamış peyğəmbərlərin vasitəsilə şıfahi yolla bəyan edilmişdir, halbuki, Əhdi-Cədid Həzrət İsanın (ə) vasitəsilə insanlara çatdırılmışdır. Bu çatdırılma şifahi bəyanla məhdudlaşdırılmamışdır və ilahi qüvvənin insan formasına düşməsi yolu ilə insanların arasında yaşamaq yolu ilə həyata keçirilmişdir. Elə bu səbəbdən də, xristyanların nəzərincə bu əhd-peymanın bağlanılması zaman Allah iyirmi əsr bundan öncə insan cildinə girərək İsa adlı bir şəxsin daxilində qərar tapmışdır. Xristyanlar arasında çox yayılmış bir cümlə kimi istifadə etsək; “Kəlmə cismə çevrildi”. “Kəlmə” (Logos) sözü xristyan ilahiyyatında ən qədimi fəlsəfi terminlərdən biri kimi qəbul olunur.

Həzrət İsanın (ə) dostlarının və davamçılarının böyük əksəriyyəti O Həzrətin həyatını və dəyərli sözlərini yazmağa başladılar. YUNESCO və Birləşmiş Millətlər Təşkilatının digər bölmələri (Əsas qərar qəbul edici Təhlükəsizlik Şurasından başqa) müstəqil şəkildə fəaliyyət göstərirlər və onların yaradılmasındakı əsas məqsəd müqəddəs və böyük arzular olmuşdur. ***Sonralar həmən şəxsiyyətləri qələmə aldığı bütün yazıları bir yerə toplayaraq İncil adlandırdılar***. Zaman ötdükcə həmən İncillərdən dördü rəsmiləşdi və qalan İncillər isə unuduldu. Birinci və dördüncü İncilləri qələmə alan şəxslər Həvarilərdəndirlər və digər ikisi isə Həvarilərin Həvariləridirlər. İlk üç incil arasında ahəngdarlıq mövcuddur və elə bu səbəbdən də onları eyni məzmunlu İncillər adlandırırlar.Dörd İncil kitabı bunlardır: 1. **Matta İncili (**Əhdi-Ətiqin verdiyi qeybi xəbərləri əsas tutmaqla Məsihin həyatı və sözləri barəsində)

2. **Mark İncili** (Məsihin həyatı barəsində ən qədimi və ən qısa kitab)

3. **Luka İncili** (Ən xırdalıqlara işarə etməklə Məsihin həyatı və sözləri barəsində) 4. **Yühənna İncili** (Həzrət Məsihin qeyri-adi insan olmasına təkid etməklə O Həzrətin həyatı və sözləri barəsində yazılmış ən sonuncu kitab)

Tarixə nəzərə yetirsək görərik ki, Xristianlar Həzrət İsanın (ə) kitabının olmasına heç vaxt inanmamışlar və İncillərin O Həzrətin həyatından və kəlamlarından söz açdığını bildirmişlər. Tomas Mişel yazır: "İncillər yazılmamışdan öncə şifahi tərz mövcud idi. Xristyanların nəzərincə İsa (ə) 30-cu ildə vəfat etdi və onun davamçıları onu tanımışdılar, etdiyi işləri görmüşdülər, sözlərini eşitmişdilər və onun xatirəsini zehnlərində saxlamışdılar. Xristyanlar ilk dəfə ibadət üçün bir yerə toplaşanda həmin xatirələrini bir-birilərinə danışırdılar. Zaman ötdükcə bu söhbət xüsusi çərçivəyə düşdü və həcmi get-gedə artmağa başladı." ***"Xristyanlar heç bir zaman Həzrət Məsihin İncil adlı kitab gətirdiyini demirlər. Müsəlmanları Qurani Kərim və Peyğəmbərləri barəsində malik olduğu vəhy etiqadı xristyanlıqda mövcud deyil və Həzrət İsaya (ə) vəhy gəlməsi qəbul olunmur.*** Xristyanlar İsanı İlahi vəhyin təcəssümü kimi qəbul edirlər və onların əqidəsinə əsasən o heç bir vəhy gətirməmişdir, əksinə o vəhyin özü olmuşdur.

**Yeddi müqəddəs adət**

**Xaç suyunda qüsl** Bütün xristyanlar üçün ən əsas və ən birinci dini mərasim xaç suyuna salınmadır. İnsan xaç suyunda qüsl almaqla xristian cəmiyyətinə daxil olur və kilsənin daimi məmuriyyətini öz üzərinə götürür. Bu məmuriyyət İsanın vasitəsilə ilə Allah yolunda yaxşı işlər görmək sahəsində and içməkdən ibarıtdir. Hər bir xristyanın nəzərincə xaç suyunda qüsl almaq İsanın həyatının və ölümünün bütün təsirlərini əta edən vasitədir. Hər bir xristian cəmiyyətinə daxil olanda cəmi bir dəfə xaç suyunda qüsl alır.

**Təsdiq (İmanın sabit olunması)** Xristiaanın həyatının inkişafının və ilahi həqiqətə çatmasının ikinci mərhələsi "Təsdiq" adlandırılır. Birinci mərhələsində (yəni xaç suyunda qüsl almaq) günahlardan xilas olmaq məsələsinə təkid edilir. Yəni, bu mərhələdə Allah günahkar insanlarla barışır və onu iman, itaət üzərində qurulmuş

həyata tərəf çağırır. Amma ikinci mərhələdə (yəni təsdiq mərhələsində) Allahın İsa (ə) vasitəsilə bəşəriyyət üçün yaratdığı hər bir şeyə şəhadət vermək və bu ağır missiyanın öhdəsindən gəlmək üçün Müqəddəs Ruhdan kömək istəmək məsələsi üzərində təkid göstərir. Çünki, xilas olmaq yalnız günahların bağışlanması məsələsi ilə məhdudlaşmır və İsanın missiyasını davam etdirmək və dünyanı Allahın iradəsinə uyğun olaraq dəyişdirmək də buna şamil olunur. Təsdiq əsl xristiana layiq cəmiyyətdə müxtəlif məsuliyyətlərin öhdəsindən bacarıqla gəlmək istəyən insana yeni güc bəxş edir. Təsdiqi ya yepiskop, ya da onun canişini əta edir və bu dini mərasimin əsası həmən könüllü şəxsə müqəddəs yağla məsh çəkməkdən ibarətdir. Bu dini mərasimdə aşağıdakı sözlər deyilir: "Müqəddəs ruhu qəbul et ki Məsihə şəhadət verə biləsən." Müxtəlif kilsələrdə qeyd olunmuş dini mərasim əsnasında deyilən bu sözdə müəyyən miqdarda fərq ola bilər, amma ümumi məna dəyişməz olaraq qalır. Kilsəyə daxil olmaq istəyən şəxs həddi-büluğa çatmış şəxs olmalıdır və xaç suyunda qüsl almaqla təsdiqə çatmanı bir dini mərasimin iki mərhələsi kimi eyni zamanda həyata keçirtməlidir. Əgər həmən şəxs uşaqlıqda xaç suyunda qüsl almış olarsa təsdiq məsələsi 13-16 yaşınadək təxirə salınır. Bəzi protestant kilsələrində uşaqları xaç suyuna salmırlar və belə iddia edirlər ki xaç suyuna salınan şəxsin İsanın davamçısı olması məsələsindən xəbəri olmalıdır və bunu düşünülmüş şəkildə qəbul etməlidir.

**Xristian evliliyi** Xristianlar evliliyi dünyəvi iş kimi qəbul edilmir. Çünki, evlilik və ailə qurmaq Allahın bəşəriyyətə göstərdiyi məhəbbət nümunəsidir. Evlilik zamanı hər iki tərəf nəslin artırılması, övladların iman və məhəbbət dolu mühitdə tərbiyələndirilməsi və təhsilləndirilməsi sahəsində Allah qarşısında and içərək məsulləyət qəbul edir. Katolik və Ortodoks ruhanilər (özlərinə Həzrət Məsihin davamçıları etmək sahəsində heç bir maniələrlə üzləşməmək üçün) ailə həyatı qurmamalıdırlar və evlilik, yaxud imtina dini adətlərindən birini seçməlidirlər. Amma bəzi istisnalar da mövcuddur və onlardan biri bundan ibarətdir ki, Ortodoks kilsəsində ailə qurmuş şəxs keşiş ola bilər, amma onun yepiskop dərəcəsinə yüksəlməsi mümkün deyildir. Protestantlar xristyan ruhanilərinin ailə qurması

məsələsi ilə müxalif deyillər və Lüter özü də ailə qurmuşdu. İstər katolikləri, istərsə də Ortodoksların rahib və rahibələri ailə həyatı qurmamalıdırlar. Protestantlıqda rahiblik anlamı demək olar ki mövcud deyil.

**İmtina** (Yaxud ruhaniliyin müqəddəs dərəcələri) İmtina dini mərasimindən sonra insan öz həyatını xristian cəmiyyətinə xidmət göstərməyə və beləliklə də, bütün bəşəriyyətə xidmət göstərməyə vəqf edir.

**Etiraf** Xristianlar tövbə və yaxud barışıq mərasimində etiraf etmək yolu ilə İlahi tərəfindən bağışlanılmağa çalışırlar. Çünki müsəlmanlar və yəhudilər kimi onlar da tövbənin Allahın öz bədəsini bağışlamasına səbəb olmasına inanırlar. Kilsə tarixinin ilk əsrlərində tövbə hamının gözü qarşısında həyata keçirilirdi. Sonrakı əsrlərdə hər kəs öz günahını fərdi şəkildə etiraf edərək bağışlanılmasını istəyirdi. **Müqəddəs yağda sonuncu məsh** Əgər günah ruhun xəstəliyidirsə və insanla Allah arasındakı əlaqələrin zəifləməsinə gətirib çıxarırsa cismi xəstəlik də insanlara xas olan problemlərdən biridir və özü-özlüyündə dünyəvi həyatın çətinliklərlə üzləşməsinə səbəb olur. Xəstələrin müqəddəs yağla məsh olunması onların tənha və kimsəszi olmadıqlarını bir daha sübut edir. Yəni onlar tək deyillər və Məsih onlarladı və onları Allaha tərəf aparır. Eləcə də, bir dəstə imanlı qardaşları da onunladı və onun üçün dua etməklə məşğuldurlar.

**Sonuncu şam yeməyi** Sonuncu şam xristian bir insanın nəzərincə yalnız yeddi müqəddəs dini mərasimlərdən biri deyildir, eyni zamanda imanın və xristianlığın ibadət yollarından birinin göstəricisidir. Bu dini mərasim eləcə də, Həzrət İsanın (ə) ölümündən öncəki gecədə şagirdləri ilə keçirdiyi sonuncu axşamın xatirəsinin anmaq mənasını da kəsb edir. Hal-hazırki İncillərdə belə qeyd olunmuşdur ki, İsa həmin məclisdə çörək və şərabı öz əti və qanı kimi şagirdlərinə yemək və içmək üçün vermişdi. Belə mərasimlərdə iştirak edən xristyanlar Məsihin cismən onların yanında olmasına inanırlar

**Krismas, yaxud Mövlud (Christmas) "Məsihin bayramı"** mənasını kəsb edir və O Həzrətin dekabr ayının 25-də ehtimal olunan doğum gününə təsadüf edir. Bu

bayramdan yeddi gün sonra "Yeni il" bayramı başlayır (Yanvar axşamı bayramı adı ilə də tanınır) və yanvar ayının 1 keçirilir.

**Pasxa bayramı** (Easter) Xristyanların ən mühim dini bayramlarından biridir. Bu bayram Həzrət İsa Məsihin (ə) ölüm üzərində qələbəsi və ölülərin arasından qalxması münasibətilə O Həzrətin çarmıxa çəkilməsinin üçüncü günü bütün xristianlar tərəfindən böyük təntənə ilə keçirilir. İncillərdə qeyd olunduğu kimi Həzrət İsanın (ə) çarmıxa çəkilməsi və dirilərək ölülərin arasından qalxması Yəhudilərin Pasxa bayramı günlərinə təsadüf etmişdir. Bəzi illərdə Yəhudilərin Pasxa bayramı xristyanların Pasxa bayramı ilə eyni vaxta təsadüf edir. Xristianların Pasxa bayramındakı mərasimlərindən bəzisi aşağıdakılardır: Gecəni oyaq qalmaq, müqəddəs kitabın tilavəti, münacat və dua, müqəddəs sonuncu şam mərasiminin keçirilməsi, İsanın (ə) cəsədinin tamaşa formasında axtarılması, O Həzrətin yenidən dirilməsi mərasimi, bayram və çıraqlarla bəzəmə, rəngli yumurtaların hədiyyə edilməsi və sair. Pasxa bayramından öncə və sonra da müxtəlif ibadət mərasimləri mövcuddur və belə mərasimlərlə daha yaxından tanış olmaq üçün həmən mərasimlərin keçirildiyi zamanda İtaliya kimi bəzi xristyan ölkələrinə səfər etmək və bunların hamısını birbaşa müşahidə etmək məqsəduyğun olardı.

Xristianlıq üç əsas qola bölünür:

**Katoliklər**

Bu firqə olduqca qədimdir və onun yaranma tarixi Həvarilərin zamanına, yəni təxminən 2000 il öncəyə qayıdır. Katoliklərin bir rəhbəri var və həmən şəxs Papa (Pope, yəni Ata) adladırılır. Bu üç kilsənin hər birisinin ilahiyyat məsələləri xüsusi bir şəxsə qayıdır: Katolik Petyros ilahiyyatı, Ortodoks Yühənna ilahiyyatı və Protestant Paul ilahiyyatı Həzrət İsanın (ə) elçilərinin dini dəvətlərinin başladığı zamandan tədricən xristainlığın beş böyük mərkəzi meydana çıxmağa başladı. Urşəlimdə, İskəndəriyyədə, Antakiyada, Konstantinoolda və Romada. Roma kilsəsinin əsasının Petros tərəfindən qoyulduğuna və Pavlosun bir müddət orada müəllimlik və rəhbərlik etməsinə əsasən bu kilsə özünü digər xristianlıq

kilsələrindən daha üstün bilirdi. Zaman ötdükcə bu fərq daha da kəskinləşdi, dərinləşdi və Roma kilsəsi tədricən o biri kilsələrədən daha yüksəyə qalxdı. Bu kilsənin baş Yepiskoipu hörmət etibarı ilə Papa adlandırılırdı və kilsələr arasındakı ixtilafların aradan götürülməsi də buna bənzər digər sahələrdə onun nəzəri böyük əhəmiyyət kəsb edirdi. Qeyd etmək lazımdır ki, Katolik (Catholic) sözü Yunan sözüdür və tərcümədə mənası təxminən "Toplum"-dur.

**Ortodoks**

Bu firqə təxminən min il bundan öncə meydana çıxmışdır və əqidə baxımından Katoliklərdən bir o qədər də fərqlənmir. ***Ortodokslar vahid rəhbərlik məsələsini qəbul etmirlər*** və belə iddia edirlər ki, Roma yepiskopu (yəni Roma Papası) dini rəhbərlərindən biri ola bilər. Ortodoks kilsəsinin dörd köhnə patriarxından əlavə (Konstantinopol, İskəndəriyyə, Antakiya və Urşəlim) yeni patriarxları, o cümlədən Rusiya, Serbiya, Ruminiya, Bolqarıstan və Gürcüstan patriarxları da mövcuddur. Qeyd etmək lazımdır ki, ***Kipr, Yunanıstan, Çexiya, Slovakiya, Polşa və Albaniya kilsələri də Ortodoks kilsəsinə*** aiddir. Erməni xristyanları da əqidə etibarı ilə Ortodoksdurlar, amma iki məsələ Həzrət İsanın (ə) İlahi və insani təbiəti və erməni dilində olan ibadət metodu Ortodokslardan fərqlənir. Ermənistan xristian dinini rəsmən qəbul etmiş və öz rəsmi dini kimi elan etmiş ölkədir. Ortodokslarla katoliklər arasında bəzi kəlami məsələlərdə də fikir ayrılıqları mövcuddur. Belə ki, daha öncə diqqətinizə çatdırdığımız kimi *Ortodoksların nəzərincə Müqəddəs ruh yalnız Ata Tanrıdan yaranır. Halbuki, Katoliklərin və Protestantların nəzərincə Müqəddəs Ruh həm Ata Tanrıdan, həm də Oğul Tanrıdan yarana bilər və onların arasındakı fərq o qədər də əhəmiyyətli məsələ deyildir. Eləcə də, axirət dünyasında günahların yuyulması üçün xüsusi bir yerin mövcud olmasına inanmırlar.* (Ortodoks Yunan dilindəki "Orthodox" sözündən iqtibas olunmuşdur və tərcümədə "Düzgün din" mənasını verir)

**Protestantlıq**

Təxminən ötən beş yüz ildən indiyə kimi xristianlıqda saysız-hesabsız Protestant firqələr meydana çıxmışdır. Protestantlar mərkəzləşdirilmiş rəhbərlik məsələsini qəbul etmirlər və xristianlıq ruhaniliyi məsələsinə o qədər də ehtiramla yanaşmırlar. Protestantlar o biri firqələrin bir çox dini əqidələrini qəbul etmirlər və daha mədəniləşdirilmiş xristianlığı qəbul edirlər. Qeyd etmək lazımdır ki, Protestantlar da xristianlığın müqəddəs üçlük və fədakarlıq kimi mənəvi məsələlərini qəbul edirlər. (Protestant Fransız dilindən götürülmüş sözdür və bu öz-özlüyündə Latın dilindən gəlmişdir. Protestant sözü tərcümədə "Etirazçı" mənasını kəsb edir).

## İslam dini

### İslam dinin yaranması

610-cu ildə Ramazan ayında (bu il Qriqorian təqviminə görə avqust ayı idi), Məhəmməd peyğəmbər 40 yaşı olarkən, Hira mağarasında təklikdə Cəbrail mələyi ona görünmüş və ona Quranın ilk beş ayəsini diktə etdi. Bu (610 il) islamın meydana gəldiyi il hesab olunur. İslamın yarandığı ilk illərdə, Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə, Əli ibn Əbu Talib, Əbu Bəkr və başqaları da daxil olmaqla 40-a yaxın insan ilk olaraq İslamı qəbul etdi.

613-cü ildə Məhəmməd Məkkədə camaat qarşısında ilk dəfə peyğəmbər olaraq çıxış etdi. Məkkənin hakim dairələri Məhəmmədlə düşmənçiliklə reaksiya verdilər, onun Məkkədəki mövqeyi riskli olduğundan çevrildi 622-ci ildə Mədinəyə köç etməli oldu. Hicrət adlanan bu hadisə Hicri təqvimin başlanğıcı hesab olunur. Tezliklə, Mədinədə yaşayan ausa və hazrac kimi qəbilələr İslamı qəbul edərək Məhəmməd peyğəmbərin əsas tərəfdarları oldular. Məhəmməd peyğəmbərin ömrünün sonuna qədər bütün Ərəbistan yarımadasını - Ərəb xilafətini əhatə edən İslam teokratik dövləti yarandı.

Kəlmə  olaraq "İslam", təslim olmaq, itaət etmək, boyun əymək deməkdir. Termin olaraq "İslam": Peyğəmbərin xəbər verdiyi şeyləri qəbul və onlara bütün varlığıyla təslim olmaq deməkdir. Dolayısı ilə İslam qəlbən təslim olmaqla bərabər, zahirən Allahın və Peyğəmbərlərinin əmirlərinə tabe olmaqdır. Bu mənada hər mömin, müsəlman, hər müsəlman da mömindir. İbadət yerləri **məscid,** müqəddəs kitabı **Quran**, peyğəmbəri isə **Məhəmməd  (s.a.s)** peyğəmbərdir. Ən sonuncu və ən humanist dindir.

**İslamın beş vacib əməli:**

1-Allahın varlığına, birliyinə, Həzrəti Məhəmməd (s.a.s) in Allahıq qulu və peyğəmbəri olduğuna qəlbi ilə inanması və dili ilə də bunu: "Əşhədu ən la ilahə illəllah və aşhədü ənnə Muhəmmədən Rəsulullah" — deyə söyləməsi.
2-Dinin dirəyi olan, olan gündə beş vaxt namazı qılması,
3-Dində zəngin sayılanların ildə bir dəfə malının zəkatını verəməsi,
4-Ramazan ayında oruc tutması,
5-Bədəni sağlam və kifayət qədər pulu da varsa, ömründə bir dəfə həcc ibadətini etməlidir.

**Şəhadət**

Şəhadətin dəlili Allahın bu kəlamıdır: Allah özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq (haqqa tapınaraq) O qüvvət və hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər. (Ali İmran 18) Mənası: Allahdan başqa heç bir haqq məbud yoxdur. Lə iləhə – Allahdan başqa ibadətolunanlari inkar edir İlləllah- İbadətin mülkündə şəriki omadığı kimi ibadətində də şəriki olmayan tək Allaha edilməsini təsdiq edir.

**Namaz**

Namazın dəlili və tövhidin təfsiri Allahın bu kəlamıdır: Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din

budur! (Əl-Beyyinə 5) Namaz dinin dirəyi, ibadətlərin ən üstünüdür. Cənabı Haqqın varlığını, birliyini təsdiqdən sonra qulluq borcu olaraq beş vaxt namaz gəlir. Beş vaxt Namaz hicrətdən il yarım əvvəl Məkkədə fərz qılınmışdır. Həddi-büluğa çatan, ağlı başında olan hər bir müsəlmana gündə beş vaxt namaz qılmaq fərzdir. Namazı tərk edən Allahın əmrinə qarşı çıxmış olur. Axirətdə cəza çəkər. Namaz Allahın bizə verdiyi saysız ne'mətlərinə qarşı yaradanımıza şükran və qulluq borcumuzdur. Namaz qılanlar Allahın əmrini yerinə yetirmiş, borclarını ödəmiş, buna görə Allahın xoşnudluğunu qazanmış, axirətdə səadətə qovuşmuş olurlar.

## Oruc

Orucun dəlili Allahın bu kəlamıdır: Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz. (Bəqərə 183) Oruc tutmaq niyyətiylə dan yerinin ağarmasından günəş batıncaya qədər bir şey yeyib-içmək, qadına yaxınlaşmaq kimi şeylərdən özünü məhrum etmək surətiylə bədənlə edilən bir ibadətdir. Yetkinlik yaşına gələn, ağıllı hər bir müsəlmanın Ramazan ayında bir ay oruc tutması fərzdir. Oruc əqli qüsurlular və uşaqlara fərz deyildir. Xəstələrin, yolçuları (səfərdə olanların), əmzikli qadınların Ramazanda oruc yemələrinə izn vardır. Yedikləri günlərin oruclarını Ramazandan başqa bir zamanda ödəyə bilərlər. Oruc tutmaq üçün niyyət etmək, niyyətin başlama və bitmə zamanını bilmək, dan yerinin ağarmasından günəş batıncaya qədər orucu pozan şeylərdən çəkinmək, orucun fərzlərindəndir. Ramazan orucunda niyyət vaxtı günəşin batmasından, ertəsi gün quşluq vaxtına qədərdir. Ödənən Ramazan orucu ilə, diləmə və kəffarət (cəza) oruclarında günəşin batmasından dan yerinin ağarmasına qədər niyyət etmək lazımdır. Niyyət qəlb ilə olur.

## Zəkat

Zəkatın dəlili və tövhidin təfsiri Allahın bu kəlamıdır: Halbuki onlara əmr edilmişdi ki, Allaha – dini yalnız Ona məxsus edərək, digər bütün batil dinlərdən islama

dönərək – ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur! (Əl-Beyyinə 5) Dində zəngin sayılan kişi, qadın, hər bir müsəlmanın ildə bir dəfə malının qırxda birini kasıblara verməsi borcudur, fərzdir.
Dinin zəngin saydığı şəxslər.
Borcundan və keçinəcəyindən başqa 80,18 qram qızılı(bu qızıl istər işləyən pul, istər külçə, istər zinət əşyası və ya qab-qacaq olsun)
Və ya 561 qram gümüş (bu gümüş istər işləyən pul, istər külçə, istər zinət əşyası və qabqacaq olsun.) 80,18 qram qızılın qiymətində pula malik olan, 561 qram gümüşün qiymətinə sahib olan və ya 89,18 qram qızıl və ya 561 qram gümüş tutarında ticarət malı olan) Bu dəyərdə bir az qızıl, bir az gümüş və bir az da malı olan şəxs dində zəngin sayılır. Gümüş və ya qızıl başqa metalla qarışıq olur və qızılı və ya gümüşü daha çox olursa, xalis qızıl və ya gümüş sayılır və ona görə zəkatı verilir. Heyvan cinsinə gəlincə; Borcundan və keçinəcəyindən başqa, doğub, törəmək, süd vermək üçün ilin çox vaxtında çöldə otlayan: Qırx qoyun və ya keçi üçün içindən bir dənəsi və ya əvəzi verilir. Otuz inək və ya camış üçün bir yaşını tamamlamış bir buzovu və ya xötəyi verilir. Beş dəvəsi olan da dində zəngin sayılır.

**Həcc**. Həccin dəlili Allahın bu kəlamıdır: Onun yoluna (ərzaq, minik və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə, (özünə zülm etmiş olar) Əlbəttə Allah aləmlərə (heç kəsə) möhtac deyildir. (Ali İmran 97) Yetginlik yaşında, ağlı başında, gücü,qüvvəti yerində olan hər bir zəngin müsəlmanın ömründə bir dəfə, Həcc vaxtında Kə'bəni və ətrafındakı mübarək yerləri ziyarət etməsidir. Fərzdir. Həcc mal və bədənlə edilən bir ibadətdir. Fağırlara, şikəstlərə, iflic olanlara Həcc fərz deyildir. Yolun salim olması da şərtdir.
Üzərinə həcc fərz olmayan şəxsin möhtac olduğu malını və mülkünü sataraq Həccə getməsi doğru deyildir. *İslam dininə görə insanlar öləndən sonra diriləcəklər və dirilişdən sonra insanlar əməllərinə görə hesaba çəkilib onların əvəzlərini alacaqlar.*

İmam əl-Buxarinin hədislər toplusuna görə, 610-cu ildə Ramazan ayında Məhəmməd peyğəmbər 40 yaşı olarkən, Hira mağarasında təklikdə Cəbrail mələyi ona görünmüş və ona Q-uranın ilk beş ayəni diktə etdi. Bu (610 il) islamın meydana gəldiyi il hesab olunur. İslamın yarandığı ilk illərdə, Məhəmməd peyğəmbərin həyat yoldaşı Xədicə, Əli ibn Əbu Talib, Əbu Bəkr və başqaları da daxil olmaqla 40-a yaxın insan ilk olaraq İslamı qəbul etdi. 613-cü ildə Məhəmməd Məkkədə camaat qarşısında ilk dəfə peyğəmbər olaraq çıxış etdi. Vəfat edənə qədər də İslam dininə dəvətində davam etdi. Nə qədər parçalanmağı, bir olmağı buyursa da zaman keçdikcə din parçalanaraq firqələrə bölünməyə başladi. Müsəlmanlıqdan söhbət düşəndə "sünni" və "şiə" sözləri tez-tez işlənir. Hər kəs bilir ki, İslam dünyası iki böyük qütbə ayrılıb və heç kim sadəcə "müsəlman" deyil, hər kəs ya sünnidir, ya şiə. Amma onların fərqləri nədir? Bu, çoxlarına aydın deyil. Gəlin bu məsələni aydınlaşdıraq:

Əhli Sünnə vəl Cəmaat Sünnə (Peyğəmbərin yolu) ilə gedən, onun ətrafında toplaşan, həm əqidəyə aid elmi, həm də şəriət məslələrində ondan başqasına müraciət etməyən kəslərdir. Sünnəyə bağlı olub onun ətrafında camaat halında toplaşdıqları üçün onlar "Əhli Sünnə vəl Cəmaat" adlandırılmışlar. Uca Allah buyurur: "*(Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!*" (Ali İmran, 31)

Şiəlik — İslam dininin ikinci ən böyük məzhəbi sayılır. Şiəliyin təqibçiləri Əli ibn Əbu Talibin İslam peyğəmbəri Məhəmmədin varisi və ilk imam olaraq təyin edildiyini düşünürlər. Şiələrə görə imamlıq həm də peyğəmbərin ailəsinə (İslam ədəbiyyatına görə "Əhli-beyt") və onun nəslindən törəmiş, xüsusi maddi və mənəvi nüfuza sahib olduqlarına inandıqları fərdlərə də sirayət edir. Yuxarıda süni və şiələrin kimlər olduğunu qısaca aydınlaşdırdığımıza görə aralarındaki bir neçə fərqə nəzər yetirə bilərik.

## Buddizm

Buddizm Brahmanizmin qollarından biridir. Bu din Hindistan sərhədlərini aşaraq bütün şərq regionunu öz çənginə almışdır. Buddizmin zərif irfani düşüncələrə malik olması və dünuyanın ən çox əhalisi olan regionunda yayılması səbəbindən bu dinin davamçıları çoxdur. Qeyd etmək lazımdır ki, son zamanlar Avropa və Amerikaya da təsir göstərməyə və adları çəkilən ərazilərdə yayılmağa başlamışdır. Buddanın həyatı Tərcümədə "Oyaq" mənası kəsb edən Budda sözü əslində islahatçı Buddizm məktəbinin banisi Qautama Şakyamuninin ləqəbidir. Buddistlərin nəzərincə Hindistanın şimalında yerləşən Kapilavastu şəhərinin padşahının oğlu olan Qautama eradan qabaq 563-cü ildə dünyaya gəlmişdir və ilk öncə Siddarta, yəni xoşbəxt adını daşıyırdı. Astroloqlar bu şahzadənin gələcəkdə islahatçı və böyük fateh olacağını bildirmişdilər. Eləcə də, bəzi xəstəliklərin nümunələrini, qocalığı, ölümü və böyük əzab-əziyyət çəkdikdən sonra dünyadan üz döndərəcək və nəfsinin əzab-əziyyət yolu ilə tərbiyələndirilməsi yolunu seçəcəyini söyləmişdilər. Elə bu səbəbdən də, atası onu yorucu həyatdan uzaqlaşdıraraq naz içərisində yaşaması üçün şərait yaratdı və onun davranışlarını nəzarət altında saxlanılmasına təkid etdi. Şahzadə əmisi qızı Yaşudhara ilə ailə qurdu və onların Rahula adlı oğlu dünyaya gəldi. 29 yaşında onun barəsində verilən proqnozların həqiqətən də baş verdiyini görən Qautama gecə vaxtı saraydan və naz-nemətlərindən qaçdı. O, Alara adlı bir şəxslə tanış olduqdan sonra onun təlimlərdən istifadə etdi və rahiblik həyatını seçdi. Nəfsinin paklaşması üçün altı il meşələrdə yaşayaraq özünə müxtəlif əzablar çəkdirdi və sonda həqiqətə nəfsani əzablarla çata bilmədiyini gördükdə bu metodu tərk etdi, düşünmək və mənəviyyatını paklaşdırmaq mərhələsinə başladı. Onun böyük cihadı altı il çəkdi. O, sonralar "Oyanış ağacı" adlanan ağacın altında yeddi həftə oturdu, dağıdıcı şeytan Mara ilə mübarizə apardı və həqiqətə çataraq hamının yaxşı tanıdığı Budda oldu. Buddistlərin əqidəsinə görə ötən zamanlarda da bir neçə Budda mövcud olmuşdur. Buddistlərin əqidəsinə görə ötən zamanlarda da bir neçə Budda mövcud olmuşdur. Buddaların hər birisi zühur etməmişdən öncə Bodisatva adı ilə məşhurlaşmışdılar. Yəni, əxlaq, irfan və mərifətə çatmış şəxs və yaxud güclü

Budda. Budda qırx il ərzində Hindistanın müxtəlif yerlərinə səfərlər edərək öz dinini bu ölkənin hər yerində təbliğ etmişdir. Onun insanlarla keçirdiyi görüşlərdən sonra bir çox şagirdi meydana çıxdı və bu şagirdlərin ən tanınmışı əmisi oğlu Ananda idi. Budda sonda səksən yaşında təxminən eradan əvvəl 483-cü ildə bu dünyanı tərk edərək Nirvanaya qovuşdu.

Buddanın qeyri-adi həyat hekayəsi ən qədim zamanlardan belə hamının diqqətini özünə cəlb etmişdir və elə bu səbəbdən də, bu dini hekayə dünyanın müxtəlif dillərinə tərcümə olunaraq çap edilmişdir.

Buddanın islahatçı düşüncələri Brahmanların təəssübkeşliyi ilə zidd idi və ictimai təbəqələr, yəni kastalar arasındakı fərqin səhv anlayiş olduğunu bildirirdi. Onun əxlaqi təlimləri Tri-pitaka, yəni "Üç səbət" toplusunda bir yerə toplanılmışdır. Brahmanizm dini üzərində qurulmuş bu təlimlər dünyadan uzaqlaşmağı, nəfsin paklaşdırılmasına, bu dünyanın əzab-əziyyətlə dolu girdabından qurtarmaq üçün düşünməyi və səy göstərməyi tövsiyyə edir, Nirvanaya qovuşmağa ciddi təkid göstərir. Sonrakı əsrlərdə Buddizm Hindistanın böyük hissəsini əhatə edir və qonşu ölkələrdə də kəskin şəkildə genişlənməyə başlayır. 8-9-cu əsrlərdə Brahmanizmin iki böyük alimi qədim dinin üzərində bəzi yeniliklər yaratmaqla Hinduizmi meydana gətirdilər. Bununla da Buddizm Hindistanda öz yerini yavaş-yavaş itirdi və Hinduizm onun yerini tutdu. Amma onun müxtəlif formaları uzaq şərqdə və digər regionlarda genişlənməyə başladı.

**Buddanın fəlsəfəsi**

Həqiqəti əldə edərək ona qovuşan Budda ilk olaraq Benares şəhərinə getdi. Onun məqsədi ondan üz döndərmiş beş rahibi tapmaq idi. Budda belə fikirləşdi ki, bu beş nəfər də onun kimi həqiqət axtarışındadırlar və onları təlimləndirmək başqalarına təlim verməkdən daha asan ola bilər. Benares şəhərinə daxil olan kimi həmin beş nəfəri gördü. Onlar şəhərin yaxınlığındakı meşədə oturaraq söhbət etdi. Onlar Buddanı görən kimi bir-birilərinə belə dedilər: "Bu gələn Siddartadır. O, rahiblikdən əl çəkib və buna görə də yaxşı olar ki onunla heç biri işimiz olmasın."

Amma Budda onlara yaxınlaşan kimi ona salam verdilər və ondan yanlarında oturmağı xahiş etdilər. Bu zaman ondan soruşdular: “Sonda axtardığın həqiqəti tapa bildin?” Budda cavab verdi: “Bəli onu tapdım.” Rahiblər dedilər: “Varlığın həqiqəti, hikməti və sirri nədir?” Budda soruşdu: “Siz Karmaya, yəni davranış qanunlarına inanırsınız?” Rahiblər cavab verdilər: “Bəli inanırıq.” Budda dedi: “Elə isə bilin ki, hikmətin və agahlığın başlanğıcı həqiqətdir. Yaxşıdan yaxşı əmələ gəlir və pisdən pis. Bu həyatın ilk qanunudur və bütün başqa şeylər bu qanun üzərində qurulmuşdur.” Rahiblər dedilər: “Bu yeni məsələ deyil.” Budda dedi: “Əgər belədirsə onda qurban kəsməyin, duanın və insanın öz nəfsinə işkəncə verməsi ağıllı addım deyildir.” Rahiblər soruşdular: “Necə?” Budda cavab verdi: “Çünki, su həmişə enişə doğru hərəkət edir, od həmişə yandırır və buz həmişə soyuqdur. Əgər Hindistanın bütün Tanrılarına belə dua oxusaq su yoxuşa tərəf hərəkət etməyəcək, od soyuq və buz isti olmayacaq. Çünki, bu həyatda elə qanunlar mövcuddur ki, bütün məsələlər bu qanunların üzərində qurulmuşdur. Elə buna görə də, bunu ləğv etmək olmur və dua edərək qurban kəsməyin də bu məsələyə heç bir xeyri yoxdur.” Rahiblər bu sözlə razılaşdırlar və Budda sözlərinə davam edərək dedi: “Əgər bu söz həqiqətdirsə, onda insanlara dua etməyin və qurbanlar kəsməyin adət-ənənəsini öyrədən Vedalar kitabı da düzgün deyildir və mən olanların dediklərinin tam əksinə olaraq demək istəyirəm ki, Vedalar müqəddəs deyildir.” Rahiblər onun belə cəsarətli sözlərindən təəccübləndilər və Buddadan soruşdular: “Sən demək istəyirsən ki, Brahman insanları yaradanda onları müxtəlif kastalara ayırmamışdır?” Budda cavab verdi: “Mən ümumiyyətlə Brahmanın nəsə yaratmasına inanmıram.” Rahiblər soruşdular: “Yaxşı, de görək dünyanı kim yaratmışdır?” Budda cavab verdi: “Mənim nəzərimcə dünya əbədi və əzəlidir. Onun nə başlanğıcı, nə də sonu var. Dünyada həqiqətən də ondan uzaqlaşmağın vacib olduğu iki məsələ var: Birincisi xudbinliyin və alçaqlığın yaratdığı ləzzətlərlə dolu həyat və ikincisi əzab-əziyyətli və nəfsinə işkəncələrlə olan həyat. Belə həyatın da heç bir faydası yoxdur və bu yolun heç birisi insanı xoşbəxtliyə aparmır.” Sonda Rahiblər Buddadan soruşdular: “Yaxşı, onda de görək düz yol hansıdır?” Budda cavab verdi: “Ləzzətlə

əzab-əziyyət arasındakı orta yol. Bunu səkkiz yolla əldə etmək mümkündür. Bu səkkiz yol həyatın səkkiz böyük qanununu öyrədir:

Düzgün baxış; Yəni, düzgünlüyün və həqiqətin insanın əsil bələdçisi olmasına inanmaq.

- ✓ **Düzgün düşüncə**; İnsan həmişə sakit və xoş xasiyyətli olmalıdır, heç bir canlıya zərər yetirməməlidir.
- ✓ **Düzgün söz;** İnsan heç vaxt yalan danışmamalıdır və ağzını çirkin və pozğun sözlərlə açmamalıdır.
- ✓ **Düzgün rəftar;** İnsan heç vaxt oğurluq etməməlidir, əlini kiminsə qanına bulamamalıdır və sonradan peşimançılığa səbəb olacaq işlər görməməlidir.
- ✓ **Düzgün yaşayış;** İnsan heç bir pis əməl arxasınca getməməlidir, sələm pul verməməlidir və onun gəlirindən istifadə etməməlidir, riyakar və ikiüzlü olmamalıdır, oğurluq maldan istifadə etməməlidir
- ✓ **Düzgün çalışmaq**; İnsan həmişə yaxşılıq üçün çalışmalıdır və bütün çirkinliklərdən uzaqlaşmalıdır.
- ✓ **Düzgün diqqət;** İnsan həmişə sakit olmalıdır, şadlığın və qüssənin onun düşüncələrini dağıtmağa imkan verməməlidir.
- ✓ **Düzgün fikirləşmək;** Yuxarıdakı yeddi qanunun əsasını və özülünü təşkil edir.

Sonra Budda düzgünlük barədə qanunları belə açıqlamağa başlayır:

1. Canlılara əzab-əziyyət verməkdən uzaqlaşmaq

2. Oğurluqdan uzaqlaşmaq

3. Həyasızlıqdan uzaqlaşmaq

4. Yalandan uzaqlaşmaq

5. Sərxoşluqdan uzaqlaşmaq

6. Pis söz danışmaqdan uzaqlaşmaq

7. Xudbinlikdən uzaqlaşmaq

8. Nadanlıqdan uzaqlaşmaq

9. Düşməçilikdən uzaqlaşmaq

Buddizmdə üç firqə mövcuddur:

- Mahayana; Yəni, “**Böyük çarx”**. Bu şimal firqəsi Çində daha geniş yayılmışdır. Buddizimdən olan bu firqə Çində Konfusizm, Lautsa və Yaponiyada Sintoizm etiqadları və adət-ənənələrilə qarışmışdır.
- Hinayana; Yəni, “**Kiçik çarx”.** Bu cənub firqəsi Şrilankada və cənub-şərqi Asiya ölkələrində yayılmışdır.
- Vacrayana; Yəni “**Almaz çarx”.** Bu firqə Tibetdə mövcuddur. Onlar Buddizmi sehrbazlıq, kahinlik və Totemizimlə qarışdıraraq özləri üçün güclü təşkilat yarada bilmişlər. Qeyd etdiyimiz firqə Lamaizm də adlandırılır və həmin firqənin qüdrətli rəhbərini *Dalaylama,* yəni dənizə bənzər rəhbər adlandırırlar. ***Bu firqənin ən maraqlı cəhətlərindən biri də budur ki, onların dini liderləri dünyasını dəyişəndə rahiblər onun canişini olmağa layiq uşağın, yəni Dalaylama ölən anda dünyaya gələn uşağın axtarışına çıxırlar. Sonra onlar bu uşağı xüsusi olaraq bəsləyirlər. Həmin uşaq elm öyrəndikdən və müxtəlif məqamları geridə qoyduqdan sonra qeyd etdiyimiz dini məqama yüksəlir.***

Bizim zamanımızda Çin Kommunizminin Tibetə təsirindən sonra Dalaylama Hindistana köçməli və öz dini liderliyinə orda davam etməli oldu. Bəzi Qərb ölkələrinin Çin ölkəsilə əlaqələri pisləşən kimi onlar Lamaların sürgündə olan liderini rəsmi səfərə dəvət edirlər və bunun ardınca Çinin etiraz səsləri yüksəlir. Dalaylama bir neçə il bundan öncə dini adət-ənənəyə zidd olaraq bir oğlan uşağını öz yerinə təyin etdi və bu hərəkətdən sonra geniş etirazla üzləşdi.

## Hinduizm

İrana və Hindistana mühacirətindən öncə bu yerlərin əhalisi alçaqboylu və qaradərili insanlar idi. Onların xüsusi mədəniyyətləri, dinləri, mərasimləri var idi və onların sivilizasiya səviyyəsi Mesopotamiya sivilizasiyası səviyyəsində idi. Bu qövm İran ərazilərində demək olar ki, təmamilə aradan getdi, amma Hindistanda ölkənin cənub bölgələrinə tərəf qovuldular. Həmin qövm Dravediləri adı ilə tanınır. Onlar eləcə də, **Nəces və yaxud Toxunulmazlar (Untouchables)** adı ilə tanınırlar. Hinduların duaları və dini mərasimləri Sanskrit dilində Vedalar adlı topluda bir yerdə cəmləşdirilmişdir. Onların duaları atəşin, günəşin və təbiətin digər simvollarının sitayişində oxunan dualardır və bu dualar ruzi-bərəkətin çoxalması, məhsuldarlığın artması, günahların bağışlanması və s. məqsədlər üçün oxunurdu. Hindistan mədəni irsində saysız-hesabsız dini, fəlsəfi, irfani və ədəbi kitablar mövcuddur və bu kitabların demək olar hamısı dünyanın müxtəlif dillərinə tərcümə olunmuşdur. Buna nümunə olaraq hamımızın yaxşı tanıdığı "Kəlilə və Dimnə" kitabını misal çəkə bilərik. ***"Kəlilə və Dimnə"*** kitabının Sanskrit dilindəki adı "***Pança-Tantra",*** yəni beş bölüm deməkdir. ***Mahabaharata və Ramayana*** kitablarında əfsanəvi hərbi, döyüş və şənlik mövzuları bir yerə toplanılmışdır və bu kitab Hindlilər arasında böyük hörmət və ehtirama malikdir. Qeyd olunmuş bu dini və ədəbi kitablar dünyanın bütün böyük dillərinə tərcümə olunmuşdur. Olduqca məşhur və maraqlı kitablardan biri də "***Bhagavad-gita***", yəni böyük Tanrının musiqisi adlı kitabdır. Bu  kitab əslində Mahabaharatanın bir hissəsidir və özünün iri həcimli olduğuna görə müstəqil şəkildə mövcuddur. Bəzən qısa formada Gita kimi də qeyd olunan bu kitab "Bhakti", yəni sözün xalisliyi hissəsində söz barədə danışılır.

### Veda tərbiyəsi və mədəniyyəti

Təxminən eradan əvvəl 6-cı əsrdə Hindu ruhanilərin, yəni Brahmanların ən güclü və qüdrətli vaxtında cəmiyyətdə kəskin təbəqələnmə prosesi meydana çıxdı və təxminən 2500 il müddətində öz dəhşətli təsirini böyük Hindistan ölkəsinin hər yerində nümayiş etdirdi. Qeyd etmək lazımdır ki, bu təbəqələşmənin qalıqları hələ də cəmiyyətdə mövcuddur. Tədqiqatçılar və sosioloqlar ictimai təbəqələri "Kasta"

adlandırırlar. Kasta sözü Portuqaliya dilindən götürülmüşdür və nəsl mənasını verir. Həmin quruluşda dörd əsas kasta mövcud idi:

1. ***Brahmanlar-Ruhanilər təbəqəsi***
2. ***Kşatriyalar-Şahlar, şahzadələr və döyüşçülər təbəqəsi***
3. ***Vişyalar-Tacirlər və torpaq sahibləri, mülkədarlar***
4. ***Şudralar-İşçilər və fəhlələr***

Müxtəlif və fərqli sektalar arasında əlaqələrin mövcudluğu həm şəri, həm də milli adət-ənənə nöqteyi-nəzərindən qəti qadağan idi. Sərt qanunların əksəriyyəti də sonuncu sektaya aid idi. Belə ki, onların özlərindən yüksək sektanın nümayəndələrinə toxunması və hətta baxması belə ən böyük günahlardan biri kimi qələmə verilirdi.

Bunlardan daha aşağı səviyyədə Hindistanın qeyri-Ariyayi yerli əhalisi sayılırdı və onları nəces, yaxud toxunulmazlar (Untouchablestoxunulmzlar) adlandırırdılar. Bu sektaya aid olan insanların digər dörd sektaya aid insanların yaşadığı məhəllərindən keçmələrinə belə icazə vermirdilər. Onlar zibil və digər tullantıları toplamaq üçün zərurət üzündən həmin məhəllələrə daxil olanda həmin məhəllədə olmalarını uca səslə bildirmək məcburiyyətində idilər. Nəceslərin bu işi görmələrində əsas məqsəd dörd sektaya aid insanları onları görməməsi zərurətindən doğurdu və əgər təsadüfən həmin dörd sektaya aid insanlardan kimsə nəceslər sektasına aid bir şəxsi görsəydi qüsl alaraq özlərini paklaşdırmalı idilər. Alış-veriş də bir-birilərini görmədən, yəni pulu bir yerə qoymaq və sonra aşağı sektaya aid insanların həmin pulu götürməsi ilə baş tuturdu.

Müqəddəs kitabların tilavətinə qulaq asmaq da onlar üçün qadağan edilmişdi. Əgər onlardan kimsə müqəddəs kitabların tilavətinə qulaq asardısa onu cəzalandırırdılar və qulağına əridilmiş qurğuşun tökürdülər.

Məsələnin ən təəccübləndirici məqamı bundan ibarət idi ki, Nəces və yaxud Toxunulmazlar sektasına aid insanların özləri də bu vəziyyəti səhv qiymətləndirərək bunu öz hüquqları kimi qəbul edirdilər. Onların inancına əsasən bu bədbəxtlikləri ötən həyatlarında törətdikləri günahlardan və pis işlərdən əmələ gəlmişdir. Dörd

Sekta arasında olan fasiləni azaltmaq və Nəcesləri müdafiə etmək sahəsində atılmış hər bir addım şəriət baxımından qəbul olunmurdu və bağışlanmaz bir günah kimi qəbul edilirdi. Qeyd etmək lazımdır ki, həmin dörd sekta 2000-dən artıq müxtəlif sektaların tarix boyu qruplaşmasından yaranmışdır. Bu ictimai problem sonda 1955-ci ildə rəsmi şəkildə ləğv edildi və hal-hazırda həmin adət-ənənənin yalnız cüzi bir hissəsi gözə çarpmaqdadır.

Qurban kəsmək və xüsusən də, at qurban kəsmək ibadət əməllərindən biri kimi onların arasında geniş yayılmışdır. Buddizm və Caynizmin Hindastana hakim kəsildiyi illərdə bu adət dayandırıldı. Buddizmin Hindistanda aradan getməsindən sonra arzu-istəklərinə çatmaq üçün qurban kəsilməsi anlamı yenidən gündəmə gəldi və bu adət indiyə qədər də davam etməkdədir. Son əsrlərə qədər insanın qurban kəsilməsi də mövcud idi və bu qeyri-insani adət hal-hazırda qadağan edilmişdir.

Ahimsa, yəni canlılara əzab verməkdən uzaq olmaq sonrakı dövrlərdə Caynizmin əqidəsinin banisi Mahaviranın təlimlərinin təsiri ilə diqqət mərkəzinə gəldi və indiyədək də bu düşüncə tərzinə ciddi şəkildə riayət olunmaqdadır. Bu təlimlərə və düşüncə tərzinə əsasən heyvanların ətini yemək qeyri-əxlaqi bir iş kimi qəbul olunur. Bu düşüncə tərzi Hindlilərin həyat və yaşayış tərzinə də inanılmaz təsirlər qoymuşdur

Hindlilər ölülərinin cənazələrinin xüsusi mərasim təşkil edərək yandırırlar və külünü Qanqa çayının sularına səpirlər. Qədim zamanlarda adət-ənənə belə idi ki, ölən insanın cənazəsini yandırdıqları zaman onun həyat yoldaşı da öz vəfadarlığını nümayiş etdirmək məqsədilə yanar odunların arasına uzanırdı və öz əri ilə birlikdə yanırdı. Belə qadınlara Sati, yəni vəfalı və fəzilətli xanım adı verilirdi. (Əsli Sanskrit olan bu sözdən Ərəb və Fars dillərində çox möhtərəm xanımların tərifi zamanı istifadə edilir). Belə fədakarlığa dözə bilməyən qadınlar isə saçlarını qırxdırırdılar və xeyirli işlərlə məşğul olurdular. Həyat yoldaşlarının diri-diri yandırılması adətini ilk dəfə olaraq İngilislər 1829-cu ildə Hindistanın bəzi bölgələrində qadağan etdilər  və bu qadağa getdikcə Hindistanın bütün bölgələrində həyata keçirilməyə başladı. Saib Təbrizi yazır: “Heç kim Hind qadınları kimi sevgi və eşqdə mərd və vəfalı deyil. Sönmüş şam yolunda yanmaq da hər pərvanin işi deyil.”

**4. Upanişadların fəlsəfəsi**. Brahmanın zamanında (Eramızdan əvvəl 800-500-cü illərdə) qurban etmək dini adət-ənənəsi ifrat nöqtəsinə çatdı və onun genişlənməsilə dinin ən dərin düşüncəli və mənalı məsələləri belə unudulmağa başlanıldı. Atın və digər canlıların qurban kəsilməsi ölkənin iqtisadiyyatına böyük zərbələr vurdu və şahlıq xəzinəsi boşaldı. Elə buna görə də, Brahmanlar çıxış yolunun yalnız dində referendumun aparılmasında və yeniləşdirilməsində gördülər. Onlar meydana iki növ ideologiya çıxartdılar:

1. Aranyakelər (Aranyakas), yəni meşə namələri. Bu namələrdə özlərinə müxtəlif zülmlər edən insanlara aid məsələlər barədə söz açılıb.
2. Upanişadlar (Upanishads), yəni yaxın oturmaq və daha geniş açıqlama versək dinin sirlərini öyrənmək məsələlərinə aydınlıq gətirilib.

Upanişad daha böyük şöhrət qazandı. Bu kitab ilk dəfə alim, incəsənətçi və arif şahzadə olan Hindistanın müsəlman padişahı Şah Cahanın oğlu Daraşukuhun zamanında İslam irfanı ilə Hinduizim arasındakı oxşar cəhətləri çatdırmaq məqsədi ilə hicri-qəməri tarixi ilə 1067-ci ildə fars dilinə tərcümə olunmuşdur. Bu kitabı "Böyük sirr" adlandırmışdılar. (Əcnəbilərin Upanişadla ilk tanışlığı da elə bu kitabın köməkliyi ilə baş tutmuşdur). Upanişad Vedanta, yəni "Vedaların sonu" adı ilə də adlandırılmışdır. Bu kitab Vedaların daxilini açıqlayır və insanların diqqətini zahiri yayınmalardan mənəvi böyüklüyə və batini məzmunlara diqqət yetirməyə çağırır. Qeyd etdiyimiz bu kitab bütün dünyada tanınmış kitablardan biridir.

**Hinduizmin əsasları**. Hinduizmin əsasları Brahmanların dini adət-ənənələrinə və antik kitablara etiqad və ehtiramdan, qədim dövrlərdə zühur etmiş tanrılara sitayış etməkdən ibarətdir. Ruhun yeni cismlər içərisində yenidən yerləşməsi və əlaqələr qurmaqda, eləcə də, ailə qurmaqda ictimai təbəqələşməyə, yəni kastalara riayət etmək, diri varlıqlara, xüsusən də inəyə hörmət etmək bu dinin əsas prinsiplərindən biridir.

Hindular inəyi ən müqəddəs heyvan kimi qəbul edirlər və onun heykəlini mənzillərdə, məbədlərdə və şəhər meydanlarında yerləşdirirlər. İnəklər küçələrdə azad şəkildə dolanırlar və dükanlarda olan meyvə və tərəvəzləri yeyirlər, tıxaclar

yaradırlar və onların belə hərəkətlərinə heç kim etiraz belə etmir. İnəyin ətindən və dərisindən istifadə etmək qəti qadağandır və inək öləndə həmin inək xüsusi dini mərasim keçirərək torpağa tapşırılır. İnəkdən əlavə digər heyvanlara qarşı da hörmət və ehtiram çoxdur. Bu canlı xırda həşəratdan filə qədər ola bilər. Amma Hindistanın digər bölgələrində hindular yaşamadıqları üçün bu yerlərdə vəziyyət adidir. Hinduların azlıq kimi yaşadıqları ərazilərdə isə inəyin kəsilməsinin və ətinin satışa çıxarılmasının tam açıq formada həyata keçirilməməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Qeyd etmək lazımdır ki, bəzi Hidular keçi və digər heyvanların ətindən istifadə edirlər, amma bəzi yerlərdə isə hətta yumurtanın yeyilməsinə belə qadağa qoyulmuşdur. İnsanın daxilinin də mübarək olması üçün İnəyin sidiyinin içilməsi və peyinin yeyilməsi geniş yayılmışdır və Hindlilərin bir çoxu təzə inək sidiyi əldə etmək üçün əllərində müxtəlif qablarla otlaqlarda inəklərin arxasıyca qaçırlar. Həmin sidiyin bir hissəsini içirlər və qalan hissəsini əllərinə, üzlərin və paltarlarına vururlar. Zahı qadının və Hindistan torpaqlarından kənara çıxmış insanların pak olması üçün onlar “Pança qavya”, yəni inəyə aid olan beş şey-süd, qatıq, yağ, sidik və peyin yeməlidirlər. Bəzən də, hər hansı bir yerin pak olması üçün bir inəyi müəyyən zaman ərzində orada saxlamalıdırlar və bu müddət ərzində həmin yerə lazımi qədər inək sidiyi və peyini dəyməlidir. Hindular üçün təxminən Amin mənası verən “Om” sözü olduqca müqəddəsdir və  ibadətlər, xüsusi mərasimlər zamanı həmin sözü xüsusi avazla təkrarlamağa başlayırlar. Bu söz Tanrının ən böyük adıdır və müqəddəslikdə Yəhudi dinindəki “Yəhvə” adına çox bənzəyir.

**Veda Tanrıları.** Hindlilər qəribə adlara və görünüşlərə malik olan çoxlu sayda  yer və göy Tanrılarına inanırlar və onların hər birisi üçün əzəmətli bütxana inşa edirlər. Bu Tanrılar arasında yaxınlıq və qohumluq əlaqələri də mövcuddur. Onların hər birinin cismi və ruhi xüsusiyyətləri Hinduların müqəddəs və dini-mədəni kitablarında geniş şəkildə açıqlanmışdır. Müxtəlif dövrlərdə tanrıların insan və heyvan formalarında təzahür etmələri məsələsi də diqqət yetirilməsi vacib olan məqamlardan biridir. Tanrıların da kastalara uyğun olaraq qruplara bölünməsi mövcuddur. Hinduların ən tanınmış və məşhur tanrıları aşağıdakılardır:

1. Aqni (Agni), yəni atəş
2. Varuna (Varuna), yəni səma
3. İşvara (İsvara), yəni qüdrətli və aliməqam
4. Rurdra (Rurdra), yəni dəhşətli
5. Rama (Rama), yəni ürəyəyatan
6. Krişna (Krishna), yəni tünd mavi
7. Yama (Yama), yəni ölülərin ruhlarına hakim Tanrının arabaçısı. Zərdüştlükdə Yamanın müqabilində Cəm dayanır.
8. Aşvin (Asvin), yəni at çapan. Hindu dinində iki mələkin adıdır. Onların dini nəzərlərinə əsasən bu iki səmavi həkim insan üçün sağlamlıq, xoşbəxtlik və var-dövlət gətirir.

***Çirkin, eybəcər və pis zatlı dişi bütə, yəni tərcümədə qara mənasını verən Kaliyə*** sitayiş edənlər bu büt üçün hədiyyələri yol kəsməklə əldə edə və oğurluq ilə əldə etdiyi qəniməti ona hədiyyə edə bilərlər. Bunu da qeyd etmək lazımdır ki, bütləri çox gözəl düzəldirlər. Belə ki, Fars ədəbiyyatında, ümumiyyətlə klassik şərq ədəbiyyatında büt dedikdə gözəl məhbub nəzərdə tutulur. Hinduların sitayiş etdikləri bütlərin bəziləri bütxanalarda və bəziləri evlərdə saxlanılır. Bütlərin əksəriyyəti məxsusi görünüşləri olan metal oyuncaqlardır. İnsanlar belə bütləri mağazalrdan alaraq evlərinə gətirirlər. Onlar əldə etdikləri bu oyuncaqlarla insanlarla davrandıqları kimi davranırlar. Belə ki, onları yuxudan oyadırlar, paltar geyindirirlər, onların qabaqlarına yeməklər qoyurlar, onları tərifləyir və bəzən də tənbeh edirlər.

**Üç tanrı**. Hindistan Ariyayiləri bir çox müşriklər kimi dünyanın yaradıcısı olan Tanrıya da inanırdılar və onu Brahma, yəni əzəli və əbədi olan varlıq adlandırırdılar. Onların ilk zamanlarda bütləri və bütxanaları yox idi. Dini mərasimlərini isə açıq havada həyata keçirirdilər və onların sitayiş etdikləri Tanrılar səma cisimləri olan erkək Tanrılar idilər. Sonrakı dövrlərdə saysız-hesabsız bütlər və bütxanalar meydana çıxdı və Ana ilahə, yer ilahəsi, Kobra ilanı və sair məfhumları da

Tanrılaşdıraraq öz Tanrılarının cərgəsinə əlavə etdilər. Hinduların üç tanrısı (Hindu Trimurti) aşağıdakılardır:

1. **Brahma;** Dünyanın yaradıcısı
2. **Şiva** (Siva); Fani edən Tanrı. Bu Tanrının dörd əlli rəqs edən heykəli hər yerdə gözə çarpır. Şivanın rəqs eləməsi, onun məhv edə bilməsi və yenidən yaratmaq qabiliyyətinə malik olmasını nümayiş etdirir.
3. **Vişnu** (Vishnu); Qoruyucu Tanrı. Vişnunun 1000 adı mövcuddur və Hindistanın dini əfsanələrində1 onun insanlara yardım etmək üçün on cildə düşməsi qeyd olunmuşdur. Vişnanın cildləri bunlardır: Balıq, tisbağa, qaban, liliput, yarı insan və yarı şir olan məxluq, əlində balta tutmuş Rama, Rama, Krişna, Budda, Kalki. Hindularına dini nəzərincə Buddizmin banisi olan Budda və qiyamət günü zühur edəcək şəxs Kalki dünyanı islah etmək və yenidən düz yola dəvət etmək üçün əllərində qılınc, at üstündə zühur edəcəklər.

Hinduizmin saysız-hesabsız firqələri vardır və onların hamısı sülh və əmin-amanlıqla bir yerdə yaşayırlar. Bu firqələrin davamçıları dinin xüsusi bir sahəsinə daha çox diqqət ayırırlar və çox vaxt da Tanrılardan birinə tapınırlar. Şiva və Vişnu tərəfdarları ayrı-ayrılıqda böyük dəstələr yarada bilmişlər. Şivaya sitayiş edənlər onun cinsiyyət üzvünə də, yəni onun erkəklik üzvü olan Linqaya da sitayiş edirlər. Bəzən də onun qadın cinsiyyət üzvünü Yoni adlandıraraq onu boşqab formasında hazırlayırlar və erkək cinsiyyət üzvünü isə onu üzərində yerləşdirirlər. Linqanın heykəli və məbədlərinin sayı çoxdur. Sonsuzluq bəlası və nəslin artırılması sahəsində mühim rol oynaması qədim zamanalardan bu inancın geniş şəkildə yayılmasına gətirib çıxarmışdır. Cinsiyyət orqanına sitayiş edənlər qeyd olunmuş heykəllərdən kömək istəyirlər. Onlar üçün insanların əsrlər boyu saxladıqları abır-həyanın mənası yoxdur. Vill Dorantın sözlərinə əsasən Qandi qərb missionerlərinin Hindlilərin cinsiyyət orqanına sitayiş etmələrinin eybəcərlikləri barədə yazmalarından gileylənirdi.
***Linqaya hörmət*** və ehtiram məqsədilə ona ibadət üçün inşa edilmiş 12 məbəddən

biri də Sumanat məbədidir. On dörd qızıl gümbəzi, saysız-hesabsız sərvəti olan bu məbəd Soltan Mahmud Qəznəvini təhrik etdi. O, hicri-Qəməri tarixilə 416-cı ildə ora hücum etdi və orada olan qızıl, gümüş, ləl-cəvahirat və bütün qiymətli şeyləri taladı. Hindular Sultan Mahmud Qəznəvinin bundan öncə digər bütxanalara hücum edərək qarət etməsini Sumanat bütxanasında olan bütün digər məbədlərdəki bütlərə qəzəblənməsi ilə açıqlayırdılar və elə buna görə bu məbədə daha çox diqqət ayırırdılar. Soltan Mahmud böyük qoşunla büt sındırma şüarı altında Sumanat məbədinə hücum etdi və saysız-hesabsız hinduları qətlə yetirdikdən sonra öz ağır gürzü ilə Linqa heykəlinin başından vurdu. O, öz böyük qələbəsini nümayiş etdirməkdən ötrü həmin heykəlin bir parçasını Qəzneyn şəhərinə gətirdi və cümə məscidinin kənarında insanlara göstərdi. Eləcə də, həmin heykəlin bəzi hissələrini Məkkəyə və xilafətin mərkəzi olan Bağdada və digər İslam ölkələrinə göndərdi. Şivaya sitayiş edən dəstələrdən başqa birisi də Lanqavatdır, yəni Linqa daşıyıcılarıdır. Bu firqənin əsası 12-ci əsrdə qoyulmuşdur. Onlar balaca bağlama içərisində olan Linqanın xırda heykəllərinin daim boyunlarından asılı vəziyyətdə gəzdirirlər. İnsan qurban kəsmək və ölülərin kəllə sümüklərində şərab içmək də Şiva firqələrindən bəzilərinə aid edilir. Tərcümədə güc mənasını verən Şakti firqəsinin davamçılarının inancına əsasən ilahi qüvvə zərif cinsin daxilində yerləşmişdir. Elə buna görə də, şakti məbədlərində gənc qız və qadınlar rəqs edirlər. Bəzi firqələrdə daha vəhşi rəqslərin, qulaq batıran səslərin çıxarılmasının və dəlilərin qeyri-adi hərəkətlərinə bənzər rəqslərin edilməsinin ruhun təkamülünə kömək etməsi bildirilir.

**Karma, Samsara, Mokşa və Nirvana**

Tərcümədə rəftar, davranış və əməl mənasını verən Karma qanunlarına əsasən insan öz əməllərinin nəticələrini bu dünyaya yenidən qayıtdıqda görə bilər. Yaxşı əməl sahibləri sonrakı mərhələdə rifah və xoşluq içərisində yaşayacaqlar, amma pis əməl sahibləri isə yenidən qayıtdıqda səfillik və bədbəxtlik içərisində yaşayacaqlar. Bəzilərinin heyvan şəklində qayıtması da mümkündür. Ruhun digər canlılarda yerləşməsinə inanan insanların bəzilərinin əqidəsinə görə insanın qayıtması dörd cür

ola bilər. Bu cansızlardan tutmuş insanlara qədər ola bilər və əlifba sırasıyla tərtib etsək belə alınar.

1. Rəsx; Ölən insanın ruhunun daşa köçməsi
2. Fəsx; Ölən insanın ruhunun bitgiyə köçməsi
3. Məsx; Ölən insanın ruhunun heyvana köçməsi
4. Nəsx; Ölən insanın ruhunun insana köçməsi

Tənasux (İnsanın ruhunun yeni bədənə transformasiya olunması) mənasını verən Samsara dünyanın bir çox din və məzhəblərində (Yəhudilik, xristiyanlıq və İslam dinin bəzi səhv firqələrində) müxtəlif adlar altında mövcuddur. Amma Hinduizmdə bu əqidə böyük əhəmiyyətə malikdir. Hinduizm davamçılarının nəzərincə insan ruhu cisimləri dəyişməkdə davam edir. Yəni bu dairəvi hərəkətdə dəyişən cismlər olur, amma ruh eyniliklə qalır. İnsanın dayanmadan dövr edən və əzab-əziyyətlə dolu ruhun cismlərdə yerləşməsində yeganə çıxış yolu onun Moşkanı (Azadlığı) əldə etməsi və Nirvanaya çatmasıdır. Bu söz tərcümədə sakitlik və sabitlik, amma terminalogiyada isə "Allahın fənasına və varlığına qovuşmaq" deməkdir. Hinduizm özünə qapanmağı və özünü mərkəzləşdirməyi qəbul etmir və hər bir Hindus öz dinindən əlavə dünyanın hər hansı dinlərindən birini qəbul edə bilər. Amma buna baxmayaraq Hinduslarin arasında ən kəskin təəssübkeşlik mövcudur. Yalnız bir məsələni qeyd etsək kifayət edər ki, ***Mahatma Qandi Hindularla Müsəlmanlar arasında bərabərliyə inandığı üçün bir qrup Hindusun düşməninə çevrildi və sonda həmin təəssübkeş Hinduslardan biri onu güllə ilə qətlə yetirdi.*** Son zamanlar Hinduslarin təəssübkeşliyi daha da güclənmişdir. Bunun ən yeni və amansız təzahürü Babərilər məscidinin dağıdılması, çoxlu sayda müsəlman və hindusun həmin hadisədə ölməsidir. Onların bu işi etməkdə bəhanələri isə Babəri məscidinin yerləşdiyi məkanın Ram bütünün doğulduğu yer olması idi. Onlar belə iddia edirdilər ki, Vişnu həmin yerdə Ram bütü formasında gözə görünmüşdü və Hinduslar həmin məkanda bütxana tikmişdilər. Amma sonralar həmin məbəd məscid formasına salınmışdır. Təəssübkeş Hinduslar bu bəhanələri əllərində saxlayaraq öz bütlərini məscidin dağıntıları üzərində yerləşdirmişlər və onlara

sitayiş etməyə başlamışlar. Hinduslar həmin yerdə Ram məbədinin inşa etmək istəyirlər, amma müsəlmanların İslami məscidin Hindus bütxanasına dəyişdirilməsi məsələsinə kəskin etirazlarına görə məsələ hələ də havada qalmaqdadır. Hinduslarin Kəşmirdə törətdikləri cinayətlər də diqqətə layiqdir. Onların İslam dini və müsəlmanlarla savaşması və bu məqsəd uğrunda Sionist İsrail rejimi ilə əməkdaşlıq aparması www.Hindruunity. com internet saytında aydın şəkildə öz əksini tapmışdır.

**Yoqa fəlsəfəsi, yaxud Cukyan metodu**. Hinduslarin nəzərincə həqiqətə çatmaq və qadir Allaha qovuşmaq yalnız yoqanınköməkliyi ilə mümkündür. Yoqa çətin və nəfəskəsici əzablara dəlalət edir və çox zaman sakit oturmaq, bardaş qurub düşünməklə meydana çıxır. Amma bunun üçün başqa metodlar da mövcuddur. Məsələn; dayanmaq, başaşağı durmaq, əyilmək, qollardan sallanmaq və üzərinə mismarlar vururlmuş taxtanın üzərində uzanmaq. Bu işlər on il belə davam edə bilər və bununla yanaşı digər çətin məqamlar, suyu önünə qoyub susuz vəziyyətdə ona baxmaq kimi məşəqqətli anlar yaşanıla bilər. Nəfəsin həbs edilməsi məsələsi belədir ki, güclü məşqlərdən sonra tənəffüs sayları aşağı düşməyə başlayır və əsil yoqaçı bir ildə bir neçə dəfə nəfəs almaqla yaşaya bilir. Yoqa ilə nəbzin vurmasını və bədənin digər fəaliyyətlərini də ələ almaq olur. Belə hallarda insan bədəni digər yollardan istifadə etməklə sağ qala bilir. Belə ki, Yoqa ilə məşğul olan şəxsi altı ay ərzində qəbrdə dəfn edirlər və altı aydan sonra onun qəbrini açdıqda sağ olduğunu görürlər. Bu qədər çətinliyə və əzab-əziyyətə dözmənin həqiqətə çatmaq üçün həyata keçirilməsinə baxmayaraq belə ağır əziyyətlərə tab gətirmək yeni bacarıq və kəramət əldə olunması ilə nəticələnir. Yoqaçı belə məsələlərin onun kəmala çatması yolunda maniə kimi qəbul edir və çox vaxt belə qeyri-adi vərdişləri heç vaxt üzə çıxartmır. Qərb alimləri bir neçə yoqaçı üzərində təcrübələr apardıqdan sonra həmin halların bəzilərinin həqiqi olmasını sübuta yetirmişlər. Məsələn, 1936-cı ildə Doktor Brossun başçılığı altında həkim heyəti nəfəsin həbsi barəsində təcrübə və tədqiqatlar apardıqdan sonra öz nəticələrini çap etdirmişlər.

## Konfusizm

O, ən qədim fəlsəfi sistemlərdən və daosizm və buddizmlə birlikdə üç əsas dini-etik təlimdən biri hesab edilir. Din olmasa da, konfutsiçilik sözün əsl mənasında az qala dindən də güclüdür. Konfutsiçilik həm siyasi, həm inzibati sistem, həm də iqtisadi və sosial proseslərin əsas tənzimləyicisi, bir sözlə, Çin həyat tərzinin özülü idi. Bu din çoxları tərəfindən qəbul olunmasına baxmayaraq bir müddətdən sonra hörmətdən düşdü və öz yerini Buddizmə verdi. Ölkənin əhalisi 4 kateqoriyaya bölünürdü (bir növ hind kastalarını xatırladır):

1. Anadangəlmə müdrik olanlar;
2. Müdriklik qazana biləcək insanlar;
3. Çətinliklə təlim görə biləcək insanlar;
4. Müdrilklik qazana və bilik əldə edə bilməyəcək camaat.

**1-1. Konfutsinin həyatı** Konfutsi Çinli Filosof və siyasətçi idi. O, Çin xalqı üçün yeni din yaratdı. Eradan əvvəl təxminən 551-ci ildə Çinin Lu əyalətində Tsuvun hakimi olan Kunq ailəsində Çiu adlı oğlan dünyaya gəldi. O, hələ üç yaşında atasını itirdi və həmin hakim nə yoldaşı, nə də övladı üçün heç bir miras qoymadan bu dünyadan köçdü. Uşaq öz anasının yanında böyüməyə başladı. Müəllimlər uşaqda olan zəkaya heyran olmuşdular və onu parlaq gələcəyin gözləyəcəyini proqnoz verirdilər. Hələ on doqquz yaşında olanda baş vəzir həmin bölgənin əkin sahələrinin idarəsini ona tapşırır. O, belə yüksək dövlət vəzifəsində işləməklə yanaşı incəsənət sahəsindəki mütaliələrini və təhsilini davam etdirdi və bir çox alimlər elm almaq üçün onun yanına gəlirdilər. Xalq onu Konq Futze (Kung-Futze), yəni Filosof Konq çağırırdı və biz bu sözü Konfutsi kimi tələffüz edirik. Konfutsinin macəralarla dolu həyatı olmuşdur və şagirdlərə dərs deməklə yanaşı dövlət işində də çalışırdı. Əlli yaşında vəzir vəzifəsinə yüksəldi və qısa müddət ərzində vəzifəsi daha da yüksələrək baş vəzir seçildi. Onun ölkə idarəçiliyi sahəsindəki bacarığı bir çoxlarının paxıllıq hissini alovlandırdı. Elə bu səbəbdən də, bir müddətdən sonra öz vəzifəsindən uzaqlaşdı və şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmağa başladı. Eradan əvvəl 479-cu ildə həyatının sona çatdığını hiss etdi və tam müvəffəqiyyət

qazanmadığı üçün qüssələndi. Amma onun şagirdləri və dostları Konfutsinin təlimlərini bütün insanlara çatdıra bildilər.

**Əsərləri** Konfutsinin ömrünün son illərində Çinin klassik ədəbiyyatı incilərindən biri hesab edilən kitablar qələmə almışdır. Həmin kitablar aşağıdakılardır: 1. Şu Çinq (Tarix kitabı) 2. Şi Çinq (Şeir kitabı) 3. Li Çi (Adət-ənənələr kitabı) 4. Ey Çinq (Mübadilələr kitabı) 5. Çun Çiu (Bahar və payız təqvimi) İlk dörd kitabda əcdadların sözlərindən seçilmiş hissələr də yer tapmışdır, amma beşinci kitab təmamilə onun özünə aiddir.

**Təlimləri** Konfutsinin təlimləri əxlaq elminin əsaslarının, siyasətin və bəzi dini mövzuların birləşməsindən meydana çıxan təlimlərdir. Onun nəzərincə insanların əcdadları "Li" qanun-qaydasına uyğun olaraq yaşayırdılar və elə buna görə də, xoşbəxtliyə və müxtəlif nemət-bərəkətlərə malik idilər. Amma, onun dövrünün insanları həmin həyat dərslərini və yaşamaq metodlarından uzaqlaşdıqları üçün həmin nemət və bərəkətlərdən məhrum olmuşlar. Konfutsinin nəzərincə "Li"nin müxtəlif mənaları var idi və paklıq, ədəb qaydaları, adət-ənənə və ibadət sahələrində istifadə edilirdi. Onun nəzərincə "Li"-dən yararlanmaqla hər bir iş yoluna düşər və utopik cəmiyyətə qovuşmaq mümkün olar.

**Əxlaq prinsipləri** O, beş növ əlaqəni sadalayaraq həmin əlaqələrin düzgün qurulduğu təqdirdə bütün işlərin düz axarla inkişaf edəcəyini bildirirdi. Həmin əlaqələr bunlardır: 1. Ata-oğul əlaqələrində mehribanlığın mövcud olması 2. Böyük qardaşın özündən balaca qardaşa nəzakət və mehribanlıq göstərməsi və kiçik qardaşın özündən böyük qardaşa itaətini nümayiş etdirməsi 3. Ərin öz həyat yoldaşı ilə ədalətlə davranması və qadının da öz ərinə itaət etməsi 4. Aşağı mənsəbli insanların bir-birinə mehribanlıq nümayiş etdirməsi və onların yüksək mənsəb sahiblərinə itaət etməsi 5. Hakimiyyət başında dayananların rəiyyətlə mehriban davranması və rəiyyətin də öz növbəsində hökümdarlarına sədaqətli olması Konfutsi utopiya və hökümdarla rəiyyət arasında əlaqə sahəsində təlimlər keçirdi. Onun təlimlərinə əsasən hökümdarların qanunlara sadiq qalacağı və bu qanunları həyata

keçirəcəyi təqdirdə bütün insanlar, yüksək mənsəb sahiblərindən tutmuş ölkənin ən zavallı şəxsinə qədər hamı bu qanuna riayət edəcəkdir. O, kamil insan və şəxsiyyət barəsində də söz açaraq kamil insanın malik olduğu beş xislət barədə belə demişdir: "Mənəvi böyüklük və izzət, İlahilik, Niyyətin paklığı və saflığı, Əmələ göstərilən şövq və istək, Xoş rəftara malik olmaq."

Bundan başqa, 5 ali məziyyət və ya öhdəliklərin tam yerinə yetirilməsi tələb olunur:

- insanseverlik, yəni özün kimi hamıya şəfqətlə yanaşmaq;
- ədalət və ya üzgörənlik etmədən hər bir kəsin layiq olduğu mükafat və cəzanın verilməsi;
- qanunlara tabeolma və hakim dinin təyin etdiyi adət-ənənələrə riayət olunması;
- həqiqətə uyğunluq, daha doğrusu hər cür yalana daim ikrah bəslənilməsi;
- hər zaman və hər yerdə düzlük və təmizlik.

Konfutsi bu qaydalara əməl olunmasının xoşbəxtlik gətirəcəyinə inanırdı

Konfutsi həyatın mənası, Allah və ölümsüzlük haqqında suallara cavab axtarmırdı. Konfutsi üçün əsas məsələ cəmiyyətin sakit çiçəklənməsinin yolunu tapmaq idi.

**Dini və şəri qanun-qaydalar** Konfutsinin hər şeydən öncə əxlaq müəllimi olmasına və bundan daha çoxuna iddia etməməsinə baxmayaraq insanlar onun təlimlərində böyük mənəvi ruhun mövcudluğu müşahidə etdilər və onu dindarlığın ən yüksək mərtəbəsi kimi qəbul etdilər. Onun təbliğ etdiyi din olduqca sadə və fövqəltəbii məsələlərdən kənar idi. Onun üzərində ən çox dayandığı məsələ özünü ibadətə və dini adət-ənənələrə bağlamaqdan ibarət idi. O, həmişə deyərdi ki, keçmiş zamanların xaqanları və hökümdarları xoşbəxt insanlar idilər. Çünki, onlardan qalan övladalrın bəziləri qurban mərasimlərini, ibadəti və onlara ehtiramı tam diqqətlə yerinə yetirirdilər.

**Davamçıları və rəqibləri** Konfutsinin yetmiş nəfərdən ibarət olan şagirdləri Çinin bütün bölgələrinə səfər etdilər və hökümdarların, yüksək mənsəb sahiblərinin təlimi ilə məşğul olmağa başladılar. Onlardan bəziləri də xəlvət guşəyə çəkilərək təklikdə ibadətə üz tutdular. Bu filosofun təlimləri ondan iki nəsil sonrakı dövrədək şagirdləri tərəfindən yayıldı. Feodalizmin zəifləməsindən və müxtəlif rəqib fəlsəfə məktəblərinin meydana çıxması ilə Konfutsinin fikirlərinin və təlimlərinin yayımı müxtəlif problemlərlə üzləşməyə başladı. Bu fəlsəfi məktəblərin hər birisi ayrılıqda Konfutsinin fəlsəfi düşüncələrinə hücum edirdi. Belə qarşıdurmalarda qələbə bəzi vaxtlar Konfutsinin davamçılarının, bəzən də digər fəlsəfi məktəblərin davamçılarını olurdu. Amma sonda Buddizmin Çinə daxil olması ilə düşüncə savaşı Buddizmin qələbəsi ilə başa çatdı və Konfutsinin düşüncələri müəyyən qədər kənarda qaldı. Buna baxmayaraq onun şöhrəti və əzəməti daim Çinlilər arasında mövcud olmuşdur və hal-hazırda da mövcud olmaqdadır.

**Rəsmi din** Çin hökümdarları müxtəlif dövürlərdə həmişə Konfutsiyə və onun fəlsəfi məktəbinə ehtiram göstərmişlər və rəsmi şəkildə onu ən böyük filosof kimi qəbul edərək onun ruhuna ehtiram göstərmişlər. Onun məqbərəsi yanında qurban kəsmək adət-ənənəsi şagirdlərinin zamanından həyata keçirilməyə başlanılmışdır, amma ilk dəfə belə addım atmış padşah Kau Tsu olmuşdur. O, eradan əvvəl 195-ci ildə hakimiyyət başında olduğu ildə Konfutsinin qəbrini ziyarət etdikdən sonra elə həmin məkanda qurban kəsmişdir. Ondan sonra digər padşahlar da bu adət-ənənəni davam etdirmişlər və böyük filosofun ruhuna qurbanlar kəsərək hədiyyələr əta etmişlər. 1911-ci ildən rəsmi və dövlət səviyyəsində Konfutsinin ruhuna ehtiram adəti yığışdırılmağa başlanıldı. Bir müddətdən sonra Çin hökuməti böyük filosoflsrın yanında Konfutsinin düşüncələrinin də dirildilməsi məsələsi ətrafında bəzi işlər görməyə çalışdı, amma 1949-cu ildə Çində baş vermiş Kommunist inqilabından sonra onun düşüncələri ilə kəskin mübarizəyə başlanıldı. Kommunistlər onu zəhmətkeş təbəqəyə qarşı çıxdığını və zadəganları müdafiə etməsi iddiasını irəli sürməyə başladılar.

## Sintoizm

“Tanrıların yolu” mənasını verən Sinto Yaponiyanın qədimi dinlərindəndir. Bu dinin təlimlərinə əsasən Günəş İlahəsi Amaterasu əcdadlardan qalan torpaqların qoruyucusudur və imperator ailəsinin bu Tanrının nəslindən olduğu və onun təcəssümü olduğu bildirilir. İctimai keçmiş Buddizmin Mahayana firqəsi təxminən eradan əvvəl 552-ci ildə Yaponiyaya daxil oldu və Sintoizm dini ilə qarşılaşdıqdan sonra Buddizmin bir çox anlamları və təlimləri Sintoizm məzhəbinə köçürüldü. Milli Tanrılara və imperatora sitayiş etmək, ölülər üçün qurban kəsərək xüsusi əməllər həyata keçirtmək və vətənpərvərlik bu məzhəbin adət-ənənələrindəndir. Buşido, (yəni igidlərin yolu) adlı mərdlik məktəbi də müəyyən miqdarda Zen məzhəbindən ilham almışdır və şərəfin, mənliyin, namusun qorunub saxlanılması üçün mərdliyin və müqavimətin vacib olduğunu bildirmişdir. Elə buna görə də, əsgərlər və döyüşçülər məğlub olarkən xüsusi mərasim daxilində ömür boyu özləri ilə gəzdirdikləri xəncər vasitəsilə qarınlarını yırtırdılar. Şinto məzhəbi dəfələrlə yenilənmişdir və sonda 1946-cı ildə imperatora sitayiş etmək ənənəsi imperatorun özü tərəfindən ləğv edilmişdir. Hal-hazırda bu din Buddizmlə birlikdə Yaponiyada həyatını davam etdirir.

Sintoizmin müqəddəs kitabları Sintoizmdə əcdadların adət-ənənələrini özündə əks etdirən kitablar mövcuddur. Bu kitablar tarixın müxtəlif dövrlərində hazırlanmışdır. Onlardan biri 806-cı ildə qələmə alınmışdır və bu kitab ruhani təbəqəsinin müdafiə olunması barədə yazılmış hekayələrdən ibarətdir. Kitablardan digəri 10-cu əsrdə qələmə alınmışdır və bu kitabda Sintoizmin ibadətləri, adət-ənənələri və xüsusən də imperatora sitayiş adətləri barəsində geniş məlumat verilmişdir.

Riyobo Buddizm 8-ci əsrdə Yaponiyada tam formada genişləndi və ölkənin yüksək çinli məmurları belə bu dini rəsmən qəbul etdilər. Elə bu səbəbdən də, həmən zamanlar yerli və qədimi din olan Sinto ilə yeni meydana çıxmış, əcnəbi din olan Buddizm arasında uyğunluğun yaradılması ehtiyacı meydana çıxdı. O zaman Buddizmin bəzi ruhaniləri araşdırmalarını elan edərək bildirdilər ki, Yaponiyanın qədim Tanrıları hər birisi ayrı-ayrılıqda Budi Satva olublar və elə orada zühur

ediblər. Eləcə də, günəş Tanrısı olan Amaterasunun Buddanın Yaponiyadakı tam zühuru olduğunu bildirdilər. Bu firqəni Riyobo, yəni qarışıq Sintoizmizm adlandırdılar və onun genişləndirməyə, yaymağa başladılar. Beləliklə, Sintoizmizm yeniləşdi və yenidən dirildi.

Rəsmi din Təxminən doqquz əsr sonra 17-ci əsrdə bəzi dini liderlər qədimi Şinto dininin yenidən dirildilməsi nəzərini irəli sürdülər və sonda 1768-ci ildə Yaponiya xalqının ictimai həyatında yeni dəyişiklik baş verdi. Bir müddət sonra imperator Sintoizmi rəsmi din elan etdi və Buddizmə aid bütün nişanələrin məhv edilməsini əmr etdi. Bu iş başlanğıcda güc yolu ilə həyata keçirilirdi, çünki hələ insanların bir hissəsi Buddizmi sevirdilər və bu dinə inanırdılar. Sonda 1889-cu ildə ölkə konistitusiyasında tam dini azadlıq hüququnun bütün yaponiyalılara aid olması bəndinin əlavə edilməsindən sonra din seçimi azad buraxıldı, amma Yaponiya hökuməti yenə də Sintoizmi dəstəklədi. Hökumət dini olan Sintoizm 1945-ci ildə Amerikanın Yaponiyana atom bombası atdığı və ölkənin Amerikalılar tərəfindən işğal edildiyi vaxta qədər davam edirək yaşayırdı. Bu dinin təlimləri gəncləri qərb mədəniyyətinin hücumları müqabilində müqavimət etməyə dəstəkləyirdi. 1945-ci ildən sonra bu dinə aid mərasimlərin keçirilməsi ixtiyarı xarakter daşımağa başladı.

## Latın Amerikasında qədim dinlər

Din dünyada nələrin baş verdiyini, qanunları nizamlayır, və adətən konkret davranışları müəyyənləşdirir. Latın Amerikada ispan və portuqallar başlıca dini inanc olan Katolisizmi birbaşa olaraq, 1492-ci ildə Kolumbun materiki kəşf etməsi ilə gətirmiş və yaymışdır. Xristianlığa inam və onun təlimi tədricən yerli inanc sistemlərini sıradan çıxartmağa başladı. Lakin XXI əsrin əvvəllərindən başlayaraq, Katolisizm özü belə regionda fəaliyyət göstərən fərqli Protestant missioner qrupları tərəfindən problemlərlə qarşılaşmışdır. İspanlar gəlməmişdən öncə regionda böyük miqyaslı dini ayrı seçkilik var idi. Heyvanları, bütləri müqəddəsləşdirmək və ya digər qədim itaət sistemi üstünlük təşkil edirdi. Tayfa cəmiyyətlərdində hər bir kişi

və qadın hər hansı şamanlıq qabiliyyətinə malik olmalarını iddia edə bilərdilər. Tayfa birlikləri zamanı hər bir kişi və qadın şamanlıq qabiliyyətinə malik olduqlarını düşünə bilərdilər. Lakin daha sonra isə dövlətlər yarandıqdan sonra bu cür insanları özlərini din xadimləri, kilsə nümayəndələri adlandırdılar. Tayfada ovçu və yığıcılar canlı olan hər bir şeydə mənəvi həyat axtarırdılar. Lakin kənd təsərrüfatı ilə məşğul olanlar isə öz öncəki nəsillərinin nümayəndələrinin məzarlarına sitayiş edirdilər. Bir sıra ibadət və ayinləri yerinə yetirmək üçün ölümdən sonra mumyalama da həyata keçirilirdi. Onlar elə düşünürdülər ki, öz əcdadarlarının qayğısına qalmalı, onlara qurbanlar verməklə məhsuldarlığl və sağlığı geri qaytara biləcəklərini düşünürdülər. Kolumbun Amerikanı kəşfindən öncə bu regionda **İnka imperiyas**ı mövcud idi. İmperiyanın mədəni, inzibati və hərbi **mərkəzi müasir Peru** ərazisində olan Kusko deyilən ərazidə yerləşirdi. Bu imperiya 13-cü əsrdən başlayaraq, çiçəklənməyə başlanmışdır. İmperiyanın rəsmi dili Quençа dili idi, lakin bu dildən doğan fərqli ləhcə və dialektlər də mövcud idi. İmperiya ərazisində yerlərdən yerlərə dəyişən ibadət növləri var idi. İmperiyanın liderləri günəş Allahı olan İntiyə sitayiş edirdlər və İntiyə ibadəti onlar digər ibadətlərdən üstün tuturdular. Onlara görə İnca imperatoru Günəşin oğludur. Digər qədim sivilizasiyalar kimi İnca sivilizasiyası da min illər boyu dünyada genişlənmiş və güclənmişdir. Digər sivilizasiyalar kimi onun da mənbəyi dəqiq məlum deyil. Tarixi yazı kimi sivilizasiyalar ancaq qaya və daşüstü yazılar, maddi və mənəvi dəlillər əsasında araşdırılır. And dağları da İnka imperiyası ərazində olduğu və ümumiyyətlə bu ərazilərdə mövcud dinlər And dinləri adlandırılırdı. And dinlərinə sitayiş edən insanlar Amerika qitəsi daxilində müqəddəs hesab edilən yerlərdə ibadər edirdilər. Dəfn edilmiş qurbanlar və astroloji işarələr hansı yerlərin mühüm və müqəddəs olduğunu müəyyən edirdi. Təsadüfdən və ya digər səbəblərdən bu yerlərdə məbədlər, saraylar və təbbi halda meydana gələn dağ zirvələri də var idi.

İnka hökmdarları Günəş tanrısı İntiyə sitayiş edirdilər və Kuskonun mərkəzində ibadət üçün Qurikança məbədi tikdirdilər. İnka elitası başqa tanrılara sitayiş etməyə icazə verərək müxtəlif əhalini imperiyaya birləşdirdi. İnklər yer Allahı olan

Paçamamaya da sitayiş edirdilər. Yer ilahəsi İnka İmperiyasının ucqar ərazilərində bir çox qəbilə tərəfindən ibadət olunurdu. Günəş tanrısı İnka bolluğu, məhsulu və məhsuldarlığı təmsil edirdi və bölgədə ibadət edilən hər hansı digər tanrıdan daha vacib sayılırdı. İnka ilinin ən mühüm dini bayramı inti Raymi "Günəş Festivalı" idi.İntinin şərəfinə festivalların ən əhəmiyyətlisi İnti Raymi idi. Bu xeyirxah kişi tanrısı çox vaxt böyük şüaları və insan üzü olan qızıl disk kimi təmsil olunurdu. Qızıl disklər adətən İnka İmperiyasının məbədlərində nümayiş olunurdu və eyni zamanda İntinin birbaşa nəslindən olan və ilahi güclü olan hakim imperatorla əlaqələndirilirdi. İnti, xüsusən də İnkaların güclərini mərkəzləşdirdiyi yüksək And dağlarında məhsulun böyüməsi və maddi bolluq ilə əlaqələndirilirdi. Bəzi miflərdə bu xeyirxah varlığın Ay ilahəsi Mama Killa ilə birlikdə uşaqları olduğu deyilir.

Royalti Intinin birbaşa nəslindən hesab olunurdu və buna görə də fiziki və mənəvi aləmlər arasında vasitəçi kimi çıxış edə bilirdi. İntinin baş kahini Villaq Umu adlanırdı. O, tez-tez Sapa İnkanın və ya imperatorun qardaşı və ya birbaşa qan qohumu idi və imperiyada ikinci ən güclü şəxs idi. Kral ailəsi malların toplanmasına, mənəvi şənliklərə və İntiyə ibadətlərə nəzarət edirdi. Fəth edilən əyalətlərin mal-qara və məhsul kimi ehtiyatlarının üçdə birini birbaşa İntiyə ibadət etməyə həsr etmələri gözlənilirdi. Hər bir əyalətdə İnti kultuna ibadət edən kişi və qadın kahinlərin olduğu bir məbəd də var idi. Keşiş olmaq cəmiyyətdə ən şərəfli vəzifələrdən biri hesab olunurdu. Qadın kahinləri mamakuna, yəni "seçilmiş qadınlar" adlandırırdılar və onlar dini bayramlar üçün xüsusi parça toxuyaraq çiça dəmləyirdilər. İnka İmperiyasının Qurikança adlanan əsas məbədi Kuskoda tikilmişdir. Məbəddə ölən imperatorların cəsədləri var idi və həmçinin İntinin çoxlu fiziki təsvirləri var idi, onların çoxu ispanlar gəldikdən sonra çıxarıldı və ya məhv edildi. Qurikança həm də "Günəş festivalı" mənasını verən İnti Raymi dini festivalının əsas yeri idi. Bu ilin ən mühüm festivalı hesab olunurdu və hələ də Kuskoda qış gündönümündə qeyd olunur. Bu, İnkaların mifik mənşəyini və qış günəşinin qaranlıqdan qayıtması ilə gələn ildə yaxşı məhsullar üçün ümidi təmsil edir.

Dini həyat mərkəzi Kusko yaxınlığındakı And dağlarında idi, lakin İnka İmperiyası öz təsir dairəsini genişləndirdikcə, açıq üsyandan qaçmaq üçün çoxlu sayda dini adət və ənənələri birləşdirməli oldular. Ailə qəbilələri çox vaxt çox lokallaşdırılmış varlıqlara və tanrılara sitayiş edirdilər. Hakim İnka tez-tez bu tanrıları İnti sisteminə daxil edirdi. Məsələn, Yer ilahəsi Paçamama İnka İmperiyasından əvvəl uzun müddət ibadət edilən tanrı idi. O, İnka mədəniyyətinə aşağı ilahi varlıq kimi daxil edilmişdir. Eynilə, Perunun şimal sahili boyunca yerləşən Çimular, ehtimal ki, isti, quraq iqlim və okeana yaxın olması səbəbindən Günəşə deyil, Aya sitayiş edirdilər. İnkalar da Ayı Mama Killa şəklində dini mif və təcrübələrinə daxil etdilər.

Qurban və Axirət

İnkalar reenkarnasiyaya inanırdılar. Ölüm çətinliklərlə dolu o biri dünyaya keçid idi. Ölülərin ruhu uzun bir qaranlıq yolda getməlidir. Əksər İnkalar axirət dünyasını çiçəklərlə örtülmüş tarlalar və qarla örtülmüş dağlarla Avro-Amerika cənnət anlayışına çox bənzəyirdi. İnkalar üçün yanma nəticəsində ölməmələrini və ya mərhumun cəsədinin yandırılmamasını təmin etmək vacib idi. Bunun səbəbi həyati bir qüvvənin yox olacağına və bu onların axirətə keçidini təhdid edəcəyinə dair əsas inancdır. İnkaların əxlaq kodeksinə əməl edənlər (oğurluq etmə, yalan danışma, tənbəllik etmə) “Günəş istisində” yaşamağa getdi, digərləri isə əbədi günlərini “soyuq yerdə” keçirdilər.

İnsan qurban etmək mif tərəfindən şişirdilmiş, lakin İnkaların dini təcrübələrində rol oynamışdır. Məsələn, 1527-ci ildə İnca Huayna Kapakın ölümündən sonra 4000-ə qədər qulluqçu, saray məmurları, sevimlilər və cariyələr öldürüldü. İnkalar həmçinin

Sapa İnkanın ölümü və ya aclıq zamanı kimi mühüm hadisələr zamanı və ya ondan sonra uşaq qurbanları verirdilər. Bu qurbanlar kapakoça kimi tanınırdı. İnkalar həmçinin kəllə deformasiyası tətbiq edirdilər. Onlar buna, yeni doğulmuş körpələrin yumşaq kəllələrinin formasını daha konusvari formada dəyişmək üçün başlarına sıx parça qayışlar bağlamaqla nail olmuşlar; bu kəllə deformasiyası icmaların sosial siniflərini fərqləndirirdi, buna yalnız zadəganlar sahib idi.

Meksikanın mərkəzində Mexiko yaxınlığında (Asteklər) hər nəslin öz tanrıları var idi. Misal üçün tacirlərin tanrısı tamam başqa idi.  Meksikada **Astek** sivilizasiyasının inkişaf etməmişdən öncə Mesoamerikalılar fərqli tanrılara sitayiş edirdilər. Onlardan ən mühümi yağış Allahı idi.  Meksika imperiyası gücləndikcə özlərini günəşin insanları adlandırırdılar və ətrafdakı hər kəsi öz totem Allahlarında sitayiş etməyə məcbur edirdilər. ***Bu Huitzlipçtli quşa*** bənzər yaratıq idi.



**Huitzipçtli**

Onlara görə bu allah qaranlıqdan aydınlığa yol açır. Bunlara bənzər olaraq, İnkalılar da günəşin oğlu ayın qızları olduqlarını iddia edirdilər. Onlar söz verirdilər ki, İnkaya xidmət ancaq xeyrə səbəb ola bilər, təbii fəlakət zamanı imperiyaya qoşunlanlar sülh, təhlükəsizlik və dolanışıq mənbəyi olacaq. Ayinlərdə iştirak və ona inam dominant qrupun yaranmasından xəbər verirdi.  İnsan və Allah arasında olan əlaqə  lütfükar formada təcəssüm olunan  qarşılıqlı tərbiyyənin nişanəsi idi. Əgər

əcdadlarına sitayiş edirsənsə, gələcək nəsillərə bu məhsuldarlıq şəkilində geri qayıdacaq. Əgər sitayiş etməsələr bu aclıq və fəlakət halında geri qayıdacaq. Mesoamerikada qulağı deşməklə və ordan bir damcı qan tökməklə qurban verilirdi. Ən pis halda isə yüzlərlə və ya minlərlə müharibə əsirlərini ictimai halda allahlara qurban verirdilər. Din xadimlərinə görə Günəşi qidalandırmaq üçün bu qurban mütləq idi. Əgər qurban verilməsə günəş olmaz və dünyanın sonu olar.

Bu mərasimdə ən qoçaq və cəsur döyüşçülər qurban verilirdilər. Ona görə onlar əsir götürdükləri bu döyüşçüləri qorumaq üçün ritual müharibələr aparırdılar. Bu həmin ritual, yəni ayin idi ki, insanları xəraca çevirirdilər. İspanların gəlişi ilə həm Meksika həm də İnkalılar inanırdılar ki, onların Allahı ilahi varies olan günəşdir və onun hakimiyyəti fövqəltəbii istəkdir. Katolik keşişlər işğalçıları izləyir və insanlar arasında bu dinin yayılmasına başlayırlar. Fransiskolılar və Yezuitlər dini yaymaq üçün missiyalar təşkil etdilər və dini yayırdılar. Yeni dinin qəbuli köhnə inancı və kimliyi rədd etmək demək idi. Bu yeni dilin, mənəviyyatın, dini dəbdəbəni və yeni xalqların həyatını öyrənmək demək idi. Sidq ürəklə əhaliyə Xristianlığı öyrətmək cəhdi boşa çıxırdı. Belə ki, çoxlu sayda qara dərili insanların iş üçün plantasiyalara, şaxta və s yerlərə gəlməsi işi daha da çətinləşdirirdin. Onlar fərqi dinləri və dilləri olan Afrika tayfalarından gəlirdilər. İllər ərzində yerli xalqla Afrikalılar arasında olan yaxın əlaqə Katolik doktrinasının çox və ya az yayılasına səbəb oldu dini zidiyyətə gətirib çıxartdı. İnanc və ayinlərin birləşməsi Voudou, Santeria, Fastafarism kimi fərqli dinlərin meydana çıxmasına səbəb oldu və bu dinlər XXI əsrə kimi də mövcud olmaqdadır.

Katolik kilsəsi, hər halda müstəmləkə həyatında önəmli rol oynayırdı. Müstəmləkə idarəetməsi zəif olduğu üçün kilsə idarəetmədə mum mövqe qazandı. Cavanların xüsuislə yerli kişilər və onların övladlarının təhsil alması, xəstəxanalar kimi xeyriyyə qurumlarının təsis olunması, baptism (xaç suyuna salma), evlənmə və ölüm kimi həyati hadisələrin icrası, xalqa vacib mesajların çatdırılması, investisiya kimi maliyye vısaitinin verilməsi və s. kilsəini xidmətinə aid idi. Zəngin və sözü keçən bir quruma çevrilən kilsənin daxilində də münaqişələr olurdu. Dünyəvi

rühanilər və missioner qruplar arasında olan münaqişəni demək olar. İspaniyadan asılılıq ləğv edildikdən sonra, kreol elitasi (xüsusi ilə Karib ətrafında mövcud olmuş avropalı və qara dərili insanların nikahindan əmələ gələn insanlar) mühafizəkar və liberallara ayrıldılar. Katolik kilsəsi isə ortaq məxrəcə gəlinin bir mövzu idi. Belə ki, liberallar  Kilsələrin dini tolerantlıq və dünyəvilik prinsiplərinə əmək etməklərini istəyirdilər. Mühafizəkarlar isə, katolisizmin  bəzi yerlərdə, bəzi qruplar arasında başlıca din olmasını istəyirdilər. Meksikada bu məsələ müharibə və bilavasitə xarici müdaxiləyə səbəb oldu. Tolerantlıq bir qayda oldu və buna görə də yeni dini qruplar meydana gəldi.

## Cənubi Amerikada kilsə və dövlət münasibətləri

Son beş yüz il ərzində Qərb dünyasında heç bir ölkədə kilsə-dövlət əlaqələri Latın Amerikası region ölkələrində olduğu qədər yaxın və əlaqəli olmayıb. Regionda uzun illər Roma Katolik Kilsəsinin ağalığı hökm sürüb. Demək olar ki, bütün Cənubi Amerika ölkələri bu illər ərzində dəfələrlə antiklerikalizm dalğalarına məruz qalmışdır. Cənubi Amerika ölkələrində həm müstəmləkəçilik, həm də müstəqillik dövründə Kilsə və dövlət münasibətləri eyni dəyişməz  qalıb. Yəni dövlətin kilsəyə himayədarlıq etməsi, kilsənin ağalığı bütün region ölkələrində uzun illər  boyu hökm sürüb. Kilsə və dövlət bu illər ərzində bir-birinə nə qədər yaxın tərəfdaş olsalar da, heç vaxt birləşməyiblər. Üç əsrlik müstəmləkə tarixi boyunca kilsə uzun müddət kral himayəsi sayəsində dövlət tərəfindən faktiki olaraq mənimsənildi. Vaxt keçdikcə, bəlkə də qaçılmaz olaraq Kilsə gücü və nüfuzu ilə getdikcə daha çox tanınmağa və üstünlük əldə etməyə başladı. Çünki,  katoliklik kral hakimiyyəti ilə ayrılmaz olaraq bağlı idi.

Müstəqillik əldə etdikdən sonra antiklerikalizm inkişaf etdi.  Region ölkələri kilsənin fəaliyyətini məhdudlaşdırmaq və kilsəni tabe etmək üçün dini işlər üzərində dövlət nəzarətini gücləndirdi. Belə bir qayda formalaşdı ki, kilsə üzərində dövlət nəzarətini təmin edə bilməyən respublikaların müstəqilliyinə təminat verilmir.  Beləliklə

regionda kilsə və dövlət arasında mübarizə qaçılmaz görünürdü və həmin mübarizənin bir çox mərhələləri bu günə qədər müəyyən qədər həll edilməmişdir. Müstəqilliyin birinci əsrində Latın Amerikası ölkələrindəki siyasi mübahisələrin acı elementi elə məhz Kilsənin statusu idi. Bu mübarizənin nəticəsi uzun müddət ölkədən ölkəyə dəyişsə də, ümumiyyətlə antiklerikalizmin tədricən bütün regionda zəfəri olmuşdur. Latın Amerikasında antiklerikalizm anti-katoliklik demək deyildi. Antiklerikalizm sadəcə özlərini qatı dindar katoliklər adlandıran keşişləri siyasətdən uzaqlaşdırmaq, kilsəni siyasi işlərdən uzaqlaşdırmaq, kahinlik islahatlarından, katolik və qeyri-katolik vətəndaşlar üçün bərabərhüquqlu cəmiyyət yaratmaq, hüququ dövlət təhsilini təmin etmək bir sözlə, kilsənin imtiyazlarının azaldıması və bəzi ölkələrdə isə kilsənin müsadirə edilməsi demək idi. Təəssüf ki, Kilsə ümumiyyətlə bu tələblərə güclü mühafizəkar mövqedən yanaşırdı və çox vaxt siyasi güc axtaran qüvvələrlə birləşib hərbi çevrilişlərə qoşulurdu. Bütün region ölkələrində boşanma qanunlarına, ictimai və ya dövlət təhsil islahatlarına, dövlət rifahı proqramlarına, gender hüquqları və katolik olmayanlar üçün dini azadlığa qarşı, kilsənin dövlətdən ayrılması, dövlətin dünyəviləşməsinə müqavimət göstərirdi. Müstəqillik dövrü regiona dərin dəyişikliklər gətirdi. Kilsənin ağalığının daha çox olduğu ölkələrdə bu proses daha ağrılı keçdi. Digər ölkələrdə isə nisbətən daha tez kilsə və dövlət arasında uzlaşma əldə edildi. Katolikliyi açıq şəkildə qorumuş, dünyəviləşməyə daha gec qoşulmuş dövlətlər **Argentina, Kolumbiya, Ekvador, Paraqvay, Peru, və Venesuela oldu**. Bu ölkələrdə konstitusiyalar prezident və vitse prezidentin katolik olmağını tələb edirdi. Üstəlik, Dövlət kilsəni himayə edir, qeyri katoliklərə dini azadlıq vermirŞ boşanmanı qadağan edirdi.

**Boliviya, Braziliya, Çili və Uruqvay** isə kilsə ilə dövlət arasında olan keçmiş ittifaqlarını rahatlıqla ləğv edən dövlətlər qrupunda idilər. ABŞ-dakı kimi "azad bir dövlətdə azad bir kilsə".Kilsə isə öz növbəsində bu ayrılığa qarşı çıxırdı. Mühafizəkar diktaturanın tərəfdarı olan Kilsə Argentinada Xuan Dominqo Perona, Kolumbiyada Rojas Pinilla, Venesuellada P ›Jim› qarşı iğtişaşları qızışdırdı.

***Argentinada kilsə dövlət münasibətləri***

Argentina Cənubi Amerika materikində- yəni “Yeni dünya”-da yerləşirdi . Yeni dünyanın kəşf edilməsi ilə bir çox xalqların nümayəndələrini bura cəlb etdi. Bir çox səbəbdən ötrü bura fərqli ölkələrin nümayəndələrinin axını başladı. Xristofor Kolumbun kəşfindən sonra say etibarı ilə çoxluq təşkil edən ispanlar, italyanların kütləvi miqrasiyası başladı.Onların ardınca ingilislərin, fransızların, almanların və digər Avropa xalqlarının nümayəndələrinin bu ölkəyə axını yarandı. Ərazi cəhətdən kifayət qədər böyük olan Argentina xalqların məskunlaşmasında Latın Amerikasında əlverişli mövqeyə sahib idi. Liman şəhəri olması, iqlim şəraitinin müxtəlifliyi və coğrafi cəhətdən əlverişli mövqeyə malik olması, qızıl, gümüş kimi faydalı qazanıntılarla bol olması xəbərləri eşidənləri bura cəlb edirdi. Gələn xalqlar hər biri müxtəlif sahələrdə ixtisaslaşırdılar. Fransızlar ölkənin qərbində, And dağlarının ətəklərində məskunlaşırdılar.Fransızlar şəhərsalma, həmçinin məskunlaşdıqları ərazi səbəbindən üzümçülük və şərəbçılıqla məşğul olurdular.Santa Fe şəhərində yerləşən memarlıq abidələri fransız nümayəndələrinin bu şəhərə qoyub getdikləri xatirədir. Bu gün burada təxminən 350.000-dən çox nümayəndəsi olan ingilislərin buraya axını 1857-1940 –cı illərdə başlamışdı. Britanyadan gələn ingilis ailələr ölkənin idman sahəsinə öz töhfələrini vermişdilər. Polo,xokey,futbol kimi idman növlərinə öz qatqılarını qatmışdılar. XIX əsr miqrant axını arasında İrlandlar da öz yerlərini almışdılar. Argentina dünyanın 5-ci ən böyük İrlandiya icmasına sahiblik edir.Onlar Entre Rios, Cordoba və Santa Fe şəhərlərində məskunlaşmışdılar. Həmçinin onlarla eyni dövrdə rus, ukranların Argentinaya gəlişi başlamışdı. İlk ukran qəsəbəsi 1897-ci ildə yaradılmışdır.XX əsr ölkəyə gələn miqrant axını milliyət olaraq fərqlənməyə başladı, sayca çoxluğuna görə asiyalılar avropalıların əvəz etdilər.Yaponiya, Çin, Cənubi Koreya, Laos, Livan, Suriya, Fələstin kimi ölkələrin nümayəndələri Argentinaya üz tuturdular. Onların gəlmə səbəbləri bir-birindən fərqlənirdi lakin nəticə olaraq eyni ərazidə məskunlaşırıdlar.XX əsr-də Argentinada yerləşən quru təmizləmə şirkətlərinin əksəriyyəti yaponlara məxsus idi. Çin, Koreya, Laosdan gələn nümayəndələr bir-birlərinə yaxın yaşayır və digər xalqlarla münasibətlərdən qaçınırdılar. Lakin yaponlar əksinə yerlii xalqın nümayəndələri ilə ailə həyatı qurur, ispan dilini öyrənir

yerlilərlə qaynıyıb qarışırdılar. II dünya müharibəsindən sonra məhkəmənin hökmündən qaçan almanlar Argentinanı çıxış nöqtəsi olaraq görürdülər. Onlar öz adlarını dəyişərək burada məskunlaşmağa başladılar və bu səbəbdən hələ də almanların statistik olaraq dəqiq sayları bilinmir. Almanlar ölkənin mətbəxinə öz töhvələrini veriblər müxtəlif çörəklər, şirniyyat reseptləri alman nümayəndələrinin mədəni irsidir. Hindistandan ingilislərin təşkil etdikləri dəmir yolu tikintilərində işləmək üçün gələnlər burada daha sonra daimi olaraq yaşamağı qərara alımışdırlar.Afrika ölkələrindən Yamayka adasına gətirlən qullar ordanda Argentinaya satılırdılar. Müxtəlif xalqların, millətələrin nümayəndələrinin, fərqli dinə,dilə, irqə görünüşünə sahib insanlar bir torpaqda məskunlaşırdılar.Əgər bir-birlərinə qarşı tolerant olamasa idilər bu zaman xaos və anarxiya hökm sürməli idi. Buraya demək olar ki, eyni vaxtda gələn fransız, italyan, ispanlar öz aralarında yaxşı münasibətə sahib idilər. Əsas hakim mövqe ispanların əlində idi və onların dili istifadə olunurdu lakin digər millətlər də öz qatqılarını bu dilə qatıblar və beləliklə ispan dilinin Argentina forması yaranmışdır. Bir-birlərinə tolerant yanaşıb və birgə firəvan yaşayan bu xalqlar torpaqlarında məskunlaşdıqları yerli xalqa qarşı isə tamamiliklə əks münasibət göstərirdilər. İşğal etdikləri ərazilərdə öz dillərini, dinlərini və idarəetmə sistemlərini yayan ***hakim ispan kütləsinə hindular tabe olmurdular. Nəticədə ya sürgün edilirdilər ya da öldürülürdülər***. Hal-hazırda Argentinanın rəmzlərindən biri hesab edilən tanqonun yaranmasında xüsüsi rola malik afrikalılar bəyənilmir aşağı sinif olaraq qəbul edilirdilər, onların rəqsləri isə bar-barlıq nümunəsi olaraq görülürdü. Bununla yanaşı afrikalıları qəbul edən hətta onlarla nigaha daxil olanlar belə var idi. Bu qarışıq nigahlılıqdan mulatlar yarandılar. Argentina gündən-günə inkişaf etməyə davam edirdi, daha çox xalqların nümayəndələrinə öz qapılarını açıq elan edirdi. Tarixin müəyyən dövürlərində ***Argentina boş qalmış əraziləri xarici hücumlardan qorumaq məqsədi ilə ölkəyə miqrantların gəlməsi üçün xüsusi əlverişli planlar hazırlamışdır.*** 1816-cı il Argentina öz müstəqilliyini elan edib öz konstitusiyasını qəbul etdi. Konstitusiyaya əsasən ***kilsə ilə hakimiyyət bir-birinə bağlı*** idi. *Hakimiyyət kilsəyə maddi dəstək olurdusa kilsə mənəvi dəstəklə hakimiyyəti hətta hərbi diktaturaları belə*

*dəstəkləyirdi*. Buna görədə hakimiyyətə gələn və öz istədiyi kimi qanunlara dəyişiklik edənlər kilsəylə bağlı məsələlərə eyni cür yanaşmırdılar. *Ölkəyə təşrif buyuran katolik olmayan qalıcı nümayəndələrə isə münasibət heç də tolerant deyildi*. Ölkəyə gələn yəhudilərə, müsəlmanlara məcburən dinlərini dəyişdirmələrini tələb edirdilər. Müsəlmanlar daha mülayim xarekterli insanlar olaraq tanınırdılar, çünki onların çoxu öz dinlərini rahatlıqla dəyişirdilər.Yəhudillər isə bu cür olmadıqları üçün təqiblərə məruz qalırdılar.Juan Domingo Peronun dövründə isə nasistlərə qapının açıq elan edilməsi onlar üçün əsl təhdid idi. Xristian dinin digər qolu protestanlar isə hərbi diktatura dövründə amansızlıqlarla üzləşdilər. Son diktatura Jorje Rafael de Videlanın dövründə 30 mindən çox protestant təqiblərə məruz qalmış və itkin düşmüşdür. 1977-ci ildə isə Madres de Mayo itkin düşənlərin anaları öz etiraz səsələrini yüksəltdilər buna qarşı.Ailə daxili vəziyyətdə tolerantlıq demək olar ki, yox idi. Qadınları insanlardan ayıran bir cəmiyyət yaşayırdı Argentinada onların boşanmaq, səs vermək və s. bu cür haqqları yox idi.İlk dəfə 1947-ci ildə Eva Peronun dəstəkləri nəticəsində qadınlara seçki hüququ verildi.Bu söz də olsa belə qadınların hüqüqları üçün atılmış ən böyük və lazımlı adımmlardan biri idi.

***Argentinada diktatura dövründən sonra***

Argentinada hərbi diktatura dövrü sona çatdıqdan kilsənənin gücü azaldıqdan sonra Argentinada tolerant cəmiyyətin ilk tumurcuqları açmağa başlamışdı. 1994-cü ildə konustutsiyada olan dəyişikliklər prezident seçkilərində iştirak üçün katolik dinin vacibliyi ləğv edildi. 1985-ci il valideynlərin birgə himəyadarlığı, 1987-ci il qadınlara boşanma hüququ verilməsi, 1977-ci il Beynəlxalq qadınlar günün keçirilməsi və s. ailə daxilində qadınların hüquqlarının tanınması və onlara qarşı tolerant yanaşmanın başlanğıc addımları hesab edilir.1996-cı ildə Buenos Airesdə məscidin inşası, 70-dən çox yəhudi təhsil mərkəzinin, sinaqoqların olması, dini bayramlarında qeyri-iş günü kimi hesab edilməsi dini tolerantlığın keçmiş dövrə nisbətən ciddi inkişafının göstəricisidir. 1999-cu ildə hinduların qorunması barəsində dövlət tərəfindən xüsusi plan hazırlanmışdır. Hal-hazırda ölkənin şimalına

Qauçoların həyat tərzinin nümayiş etdirilməsi məqsədi ilə ekspedisyalar keçirilir və bu ekispedisyalara turistlərin çox böyük maraqları var.Buenos Aires Konqres binası Casa Rosada qarşısında xalqın etriazı artıq alışılmış bir haldır.Pensiya islahatından tutmuş,insan hüquqları, abort, homoseksual haqqlarına qədər hər şey xalq tərəfindən təşkil edilən etiraz dalğaları ilə gətirilir.Argentina xalqı səsini eşitdirməyi seçir və bu işə yarayır. Latın Amerikasında 2010-cu il də eyni cinslilərin nigahını qanuniləşdirən ilk dövlət oldu Argentina. Amerikada bunu edən ikinci dövlət olmuş və homoseksualların haqqlarının qorunmasında dünyada lider ölkələrdəndir. Argentina cəmiyyəti keçmişdən bu günə qədər çox böyük dəyişiklilərə məruz qalmışdır. Müasir dövrü keçmişlə müqayisə etdikdə tolerant bir cəmiyyətin qurulması üçün çox böyük addımlar atılmışdır və uğurlu nəticələr əldə edilmişdir. Ayrı-seçkiliklə bağlı keçirlən sorğuya Argentina əhalisinin cavabı bu cür olmuşdur: cəmiyyət yaşadığı çətinliklərdən dərs çıxardıb, birgə mübarizə aparıb, birgə gücləniblər. Sadəcə siyasi ayrı seçkilik güclü ola bilər. Argentina cəmiyyətində müəyyən mənada problemlər olsa da diktatura dövründən sonra qəbul olunan bir sıra dəyişikliklərdən sonra bu cəmiyyəti tolerant cəmiyyət adlandırmaq mümkündür.

## Cənubi Amerikada kilsənin statusu

Cənubi Amerikada müstəmləkə dövründə kilsənin statusu 1494-cü ildə Papa VI Aleksandrın İspaniya və Portuqaliyanın Yeni dünyada katolik monarxlarına verdiyi kilsə üzərində nəzarət (patronaj) hüququ ilə müəyyən edilmişdi, çünki Romadan uzaq məsafədə yerləşdiyi və vəsait çatışmazlığı səbəbindən Roma Katolik Kilsəsi dünyəvi gücə arxalanmadan yeni kəşf edilmiş torpaqların yerli əhalisi arasında “dini təbliğatı” apara bilməzdi. Həmin il İspaniya və Portuqaliya arasında Tordesillas müqaviləsi bağlandı. Bu müqavilənin əsas müddəası Yeni Dünya torpaqlarının iki ölkə arasında bölünməsi idi.

Argentinada xristianlığın tarixi İspaniyanın Cənubi Amerika materikini müstəmləkələşməsi ilə başlayır. 1519-cu ildə bir neçə keşiş Ferdinand Magellanın Argentinaya ekspedisiyasının bir hissəsi olaraq San Xulian Pataqoniya sahilinə gəlib çıxdı. Yerli əhalinin torpaqlarının kəşfi və zəbt edilməsi əsasən La Plata çayı

boyunca baş vermişdir. Argentinada avropalıların ilk məskunlaşması 1536-cı ilin fevralında Pedro de Mendozanın 1500 nəfərlik ekspedisiyasının gəlişi ilə başladı və Buenos Ayres şəhərinin əsası qoyuldu. Müstəmləkəçilərin Argentina ərazisinə ilk ekspedisiyalarının tərkibində katolik keşişləri də var idi. Burada, üç kilsə və müvəqqəti ibadətgah tikildi. Keşişlərdən biri - Xuan Qabriel de Lezkano yerli əhali üçün məktəb açaraq, onlara katexizm, tərənnüm, oxu və yazmağı öyrədir, eyni zamanda onlara xristian dəyərlərini aşılamağa çalışırdı. Bütün yaşayış məntəqələrində və hərbi ekspedisiyaların əksəriyyətində əvvəlcə üstünlük təşkil edən fransiskanlar və dominikanlar adlı qruplara aid olan adi və ya nisbətən sekulyar fikirli ruhanilər iştirak edirdi. İspanlar üçün o zamanlar müstəmləkə torpaqlarında şəhər qurmaq - keşişə həvalə edilmiş kabildo, kilsə və məktəb qurmaq demək idi. Konkistadorlardan bəzilərinin vərdişləri əxlaq normalarına uyğun olmasa da, onlar əsasən dərin və köklü inanclı, dini əməllərə sadiq insanlar idi. Bəzi keşişlər, İspaniyada keçirilən inkvizisiya siyasətindən qaçaraq azadlıq axtarışında idilər, bu səbəbdən Rio de la Plataya köç etmişdilər. Konkista dövründə, üç əsr ərzində ispan missionerləri bugünkü Argentina ərazisində yaşayan yerli əhaliyə İncili təbliğ edirdilər və şəhərlərin salındığı vaxtda kilsələr və monastırların əsası qoyuldu. Yerli əhalinin katolikliyi qəbul edilməsinə əsasən Fransiskan, Dominikan və Yezuit təriqətinə məxsus olan keşişlər rol oynamışdı. İlkin müstəmləkə dövründə Argentina ərazisi Peru vitse-krallığına aid edildiyinə görə, Kusko yepiskopluğunun (Peru) bir hissəsi idi. 1547-ci ildə Papa III Pavelin başçılığı altında yezuitlər Asunsyon şəhərində Rio de la Plata yeparxiyasını yaratdı və bu yeparxiya İspaniyanın La Plata vitse-krallığını (müasir Argentina, Uruqvay, Paraqvaydan şimalda Paranapanema çayına qədər və indiki Braziliyanın cənub hissəsini) əhatə edirdi. Yeparxiyaya xidmət edən ilk yepiskop fransiskan təriqətindən olan Pedro Fernandez de la Torre (1555-73) idi. Əhalinin geniş miqyaslı evangelizasiyası və eyni zamanda Argentinada ilk müstəqil yepiskopluğun təşkil edilməsi 1570-ci illərdə başladı. 1570-ci ildə ölkənin mərkəzi və şimal-qərb hissələri də daxil olmaqla, Tukuman Yeparxiyasının yaradılması və Fransisko de Viktoriyanın yepiskop təyin edilməsi ilə effektiv yepiskopluq fəaliyyətə başladı. Viktoriya merkantilist müəssisələrinin

olması və Portuqaliyaya meyilli münasibəti səbəbindən çətinliklərlə üzləşsə də, Argentina ərazisinin dini təşkilatlanmasında böyük rol oynamışdır.

Növbəti 400 il ərzində Argentinada yeparxiyaların sayında davamlı artım oldu ki, bu da katolikliyin yavaş, lakin daimi irəliləyişinin əksi və regionun yerli xalqlarının öz dinlərindən katolikliyə keçməsi prosesinin sübutudur. Yezuit reduksiyaları (məskənləri) 17-ci əsrin əvvəllərində Yezuit Ordeni tərəfindən Cənubi Amerikada, əsasən də Argentina, Paraqvay, və Braziliyanın Rio Grande do Sul bölgəsində qurulan, yerli əhali üçün bir yaşayış məntəqəsi növü idi. 18-ci əsrdə bir sıra Avropa ölkələrində Yezuit ordeninin qadağan edilməsi ilə sona çatmışdı.

Maarifçilik dövrünün daha radikal ideyaları bölgədə geniş yayılmadığından, İspaniya ilə əlaqələri kəsənlər və 1810-cu il inqilabının liderləri tamamilə katolik və ortodoks təriqətlərinə aid olanlar idi. Üsyanın lideri Kornelio Saavedra, inqilabi hökumətin məruzəçilərindən biri olan keşiş Manuel Alberti kimi hərtərəfli və hətta dindar bir katolik idi. Müharibə və sonrakı dövlət quruculuğu dövlət və kilsə arasında münasibətlərin yenidən nəzərdən keçirilməsinə gətirib çıxardı və ruhanilər və din xadimləri arasında parçalanmaya səbəb oldu [46]. Buenos-Ayres, Kordova və Salta yepiskopları separatçı hərəkata rəğbət bəsləməsələr də, ruhanilərin və dindarların çoxu yeni siyasi rejimi dəstəklədilər. Bəzi ruhanilər isə, əsasən mənşəcə ispan olan yepiskoplar müstəmləkə rejiminin müdafiəsinə çıxdılar. Digərləri isə, əsasən də kreollar, milli azadlıq hərəkatına qoşularaq hərəkatın rəhbərlərinin təşkil etdiyi “Vətənpərvər Xunta"ya üzv olaraq, xalq məclislərində iştirak edirdilər.

1816-cı ilin 9 iyulunda Cənubi Amerika Birləşmiş Əyalətlərinin (indiki Argentina, Uruqvay, Boliviyanın bir hissəsi) müstəqilliyini elan bəyannamə Tukuman Konqresində imzalandı. Bu bəyannaməni imzalayan 29 nümayəndədən 11-i keşiş idi. Müstəqillik elan edilərkən, La Plata üçün hökumət forması mübahisə mövzusu idi. Müasir Argentinanın ərazisi, paytaxtı Buenos-Ayres Rio de la Platanın İspan vitse-krallığının bir hissəsi idi. Müasir Uruqvay, Paraqvay və Boliviya da vitse-krallığın bir hissəsi idi və Cənubi Amerika Birləşmiş Əyalətləri muxtariyyət üçün mübarizə aparmağa başladılar. Buenos Ayres bütün əyalətlərə nəzarəti əlində saxlamaq istəyirdi və bu vəziyyət 1818-ci ildən 1820-ci ilə qədər davam edən

vətəndaş müharibəsinə səbəb oldu. 1818-ci ildə Argentina vətəndaşlığını qəbul etməyən ruhanilərə ölkəni tərk etmək əmri verildi. 1819-cu ildə Argentinanın ilk konstitusiyası (o vaxtlar hələ də Rio-de-la-Plata Birləşmiş Əyalətləri) ölkədə ənənəvi dini təmsil edən katolikliyi dövlət dini kimi təsdiqlədi, həmçinin ispan tacından miras qalan kilsəyə himayədarlıq hüququ verdi. Bundan əlavə senatda kilsə təmsilçiliyinə icazə verildi, arxiyepiskoplar və yepiskoplar mülki məhkəmə hüququnun subyektləri oldular.

1822-ci ildə Argentinada köklü islahatlar aparıldı və kilsə ilə bağlı islahatların əsas təşəbbüskarı hökumətin baş naziri Bernardino Rivadavia idi. Fransada gördüklərindən ilhamlanan Rivadavia, avstriyalı II İosif və tarixçi Febroniusun ideyaları, xüsusən də milli və əyalət hökumətlərinin hər birinin İspaniyadan miras qaldıqları himayəçilik konsepsiyasına əsaslandığına inanırdı. Kilsə və mülki işləri qanuniləşdirmək və xristianlığın təbliğatını tamamilə dayandırmaq istəyən Rivadavia **"Ruhanilərin İslahatı"** həyata keçirməyə cəhd etdi. Kilsə ondalığı (kilsənin əhalidən topladığı gəlirin onda biridir) ləğv edildi və kilsəyə dövlət büdcəsindən təminata zəmanət verildi. Dinlərə qarşı intizam tədbirləri görüldü: bəzilərinin fəaliyyəti qadağan edildi, əmlakları müsadirə edildi, digərlərinin isə əmlakı dövlət nəzarətinə götürüldü. Beləliklə, müstəqil dövlət kilsəni öz maraqlarına xidmət etməyə çalışırdı. Bununla belə, növbəti il Rivadavia İngiltərə ilə müqavilə bağladı və protestantlığa rəsmi icazə verildi, nəticədə bütün dinlərə bərabər münasibət göstərildi.

1835-1852-ci illərdə Prezident Xuan Manuel Rosas bölgəyə sülh və asayiş gətirərək, bütün Argentinanı idarə etdi. Güclü himayəçilik tərəfdarı olaraq, o, açıq şəkildə kilsə işlərinə qarışdı; kilsəni ruhani və apostol işində dəstəkləməsinə baxmayaraq, siyasətə həddən artıq qarışdığını düşündüyü keşişləri və dindarları ölkədən qovdu. Katolikliyin əvvəllər dövlət dini kimi tanınmasından fərqli olaraq, 1853-cü ildə qəbul edilmiş konstitusiya katolik kilsəsini dövlət dəstəyilə təmin etdi. Vətəndaşlara sərbəst dini etiqad hüququ verilməsinə baxmayaraq, ancaq prezident mütləq katolik olmalı idi. Konstitusiya həmçinin himayəçilik hüququnu təsbit etdi.

Vatikan himayəçilik prinsipini tanımaqdan imtina etdi və buna görə də Vatikan ilə konkordat bağlanmadı.

1853-1880-ci illər arasında katoliklik ziyalılar arasında nəzərəçarpacaq dərəcədə zəiflədi. 19-cu əsrin son onillikləri cəmiyyətin dünyəviləşməsi istiqamətində liberal meyllər gücləndi, bu katolik olmayanlar üçün dini azadlığın genişləndirilməsi və katolikliyə sosial yönüm verilməsi kimi məsələlərdə özünü göstərdi. Bu tendensiyalar Argentinada XX əsrin əvvəllərində, 6 milyon əhalinin 40%-nin mühacir olduğu dövrdə daha da inkişaf etmişdir. Eyni zamanda, masonluq getdikcə daha çox yayılmışdı, onun ardıcılları zəifləməkdə olan Argentina kilsəsini məhv etməyin vaxtının gəldiyinə inanırdılar. Argentinaya yeni gələn miqrantlar, bir qayda olaraq, savadlı və yüksək peşəkarlığa malik insanlar idilər və qısa zamanda ictimai əhəmiyyət kəsb etməyə başladılar. Onların arasında Avropada yaranmış sosialist və anarxist ideyaların və dini azadlığın tərəfdarları da kifayət qədər çox idi. Beləliklə, 1853-cü il Konstitusiyası 1880-ci ilə qədər Katolik kilsəsi üzərində geniş təsiri oldu. Bəziləri onun maddələrindəki xüsusi müddəaların, digərləri isə səhv şərhinin nəticəsi idi. Tukumanlı olduğu üçün Buenos-Ayresdə nifrət edilən prezident Julio A.Roka masonların açıq şəkildə kilsəyə hücum etməsinə icazə verdi və beləliklə, bütün səlahiyyət müddəti (1880-86) dövründə kilsəyə qarşı mübarizəyə başladı. Parlamentdə və parlamentdən kənar mübarizə təhsil və vətəndaş nikahı uğrunda gedirdi, kilsənin düşmənləri hər iki tərəfdən qalib gəlirdilər. Beləki, **1888-ci ildə Senat dini tolerantlıq ideyasını təbliğ edən bir sıra qanunlar qəbul etdi:** məktəblərdə katolik katexizminin tədrisinə əhəmiyyətli məhdudiyyətlər qoyuldu, vətəndaş nikahı (dini mərasim olmadan) ondan əvvəl toy etmək qadağan edilən yeganə qanuni nikah kimi tanındı, lakin liberalların boşanmanı qanuniləşdirmək cəhdləri uğursuz oldu. Kilsə qəbiristanlıqlarına dövlət nəzarəti quruldu, mülki qəbiristanlıqlar yaradıldı.

Argentina 20-ci əsrə qədəm qoyarkən, 1880-ci ildə liberalların başlatdığı de-xristianlaşma prosesinin sekulyarizm ilə tamamlana biləcəyinə inanırdı. Argentina Konqresində hər şeyin bu prosesə doğru getdiyi görünsə də, Tukumandan olan gənc deputat Ernesto E. Padillanın mübarizəsi sekulyarizmin uğursuzluğuna səbəb oldu.

1934-cü il 32-ci Beynəlxalq Yevxaristiya Konqresi Argentinanın Buenos-Ayres şəhərində gələcək Papa XII Pius Eugenio Pacelli-nin iştirakı ilə keçirildi və bu Latın Amerikasında keçirilən ilk belə tədbir idi. Tədbirdə qatılan əhalinin sayına görə, əvvəllər heç vaxt görülməmiş, bu tədbir o günə qədər ölkədəki ən mühüm kütləvi hadisə və bəzi tarixçilər üçün Argentinada bu günə qədər baş vermiş ən böyük səfərbərlik idi. Bu tədbirdə demək olar ki, bütün xalq iştirak etdi və əhalinin əhəmiyyətli hissəsi iman gətirərək Tanrıya qayıtdı. 1934-cü ildən əsrin ortalarına qədər olan dövr Argentina katolikliyinin yenidən dirçəlişi, kilsənin yeni həyatının başladığı, yeparxiyaların və  çağırışların artdığı və yeni kilsələrin tikildiyi bir mərhələ idi. 1943-cü ildə general Pedro Pablo Ramirezin hərbi hökuməti bütün dövlət məktəblərində din və ya əxlaq üzrə seçmə kursların açılması əmrini verdikdən sonra, 92% dini seçmişdi. Buenos-Ayres kimi kosmopolit şəhərlərdə belə əksəriyyət katolik olaraq qaldı. Bu da onu göstərir ki, 19-cu əsrin birinci yarısında kilsəyə qarşı islahatların aparılması və əsrin sonlarında liberal meyillərin artması ilə sekulyarizmə cəhdlərə baxmayaraq, 20-ci əsrin ortalarından başlayaraq Argentinada katoliklik yenidən dirçəlmişdir.

Prezident X. D. Peron (1946-1955) dövründə Argentinada Katolik kilsəsi ciddi dəyişikliklərdən keçdi. Əvvəlcə seçkilərdə yepiskoplar Peronun namizədliyini dəstəklədilər, o da öz növbəsində kilsənin sosial doktrinasına uyğun siyasət aparacağına söz verdi. Prezidentliyinin ilk illərində o, kilsəyə təhsil sahəsində bir neçə imtiyazlar verdi. İbtidai və orta məktəblərdə dinin tədrisi yenidən tətbiq olundu, dərsliklər kilsə rəhbərliyinin razılığı ilə seçilirdi və katolik özəl təhsil müəssisələrinə dövlət tərəfindən subsidiyalar verilirdi. Nəticədə, kilsə təhsil prosesinə rəsmi təsir göstərmək imkanı əldə etdi. Katolik ruhanilərinin nümayəndələri Peronist partiyanın rəhbər orqanlarına və onun təşkilatına "mənəvi köməkçilər" kimi daxil edilirdilər. Peronun fəaliyyəti Vatikan tərəfindən də təqdirəlayiq fəaliyyət kimi qiymətləndirilirdi. Məsələn, 1947-ci ildə Papa XII Piy Argentina tarixində 60 il davam edən dünyəvi və ateist dövrə son qoyan, ölkəni kommunizmdən xilas edən Peronu tərifləmişdi. 1949-cu ildə qəbul edilmiş Peronist konstitusiyaya əsasən, respublikanın prezidenti və vitse-prezidenti yalnız katolik ola bilərdi, həmçinin

dövlətə kilsəyə maddi dəstək vermək öhdəliyi qoyulmuşdu. Bu dövlət və kilsə arasında yumşalan münasibətlər uzun sürməmişdi. 1952-ci ildə Peronun populist hökuməti totalitar meyllərini artıran zaman kilsə ilə ciddi münaqişəyə səbəb oldu. Kilsənin Peronist həmkarlar ittifaqlarını xristianlaşdırmaq və Xristian Demokrat Partiyasını yaratmaq istiqamətində hərəkətləri Peronu narazı saldı və o, onları hakimiyyətə birbaşa müdaxilə və onun hakimiyyətini zəiflətmək kimi qiymətləndirdi. Buna cavab olaraq, rəsmi mətbuat katolik olan hər şeyi ələ salmağa başladı, katolik yığıncaqları qadağan edildi, Santa Fe və Kordova universitet kitabxana təşkilatları kimi katolik təşkilatları ləğv edildi, dövlət idarələrindən xaçlar çıxarıldı, məktəblərdə dini tədris dayandırıldı və fahişəlik evlərinə yenidən icazə verildi. Bunun ardınca təhsil sahəsində bütün imtiyazların ləğvi baş verdi, dövlət subsidiyalarının verilməsi dayandırıldı, “mənəvi köməkçilər” qovuldu və boşanmalara icazə verildi. Parlamentdə kilsənin dövlətdən ayrılması haqqında qanun qəbul edildi. Ruhanilərin etirazları, keşişlərin sürgün edilməsi və ya həbsi, "Katolik aksiyalarının" dağıdılması, dini yürüşlər və radioda dini verilişlərin yayımının qadağan edilməsi kimi növbəti hadisələrə səbəb oldu. O vaxta qədər kilsə ölkədə demək olar ki, Peronun nəzarəti altında olmayan yeganə qurum olaraq qalırdı, lakin Peron kilsəni zəiflətməyə və siyasi həyat sferasından çıxarmağa çalışırdı. Kilsə öz hüquqlarını müdafiə etmək üçün Perona qarşı müxalifətə fəal şəkildə qoşuldu. Hökuməti devirmək cəhdinin qarşısı alındıqdan sonra, hökumət yerli kilsələri və tarixi arxivlər də daxil olmaqla, məzmunu külə dönmüş yepiskop kuriyasını yandıraraq, qisas almaq üçün kütlələri kilsəyə qarşı təhrik etdi. Kilsələrin dağıdılması və yandırılması bütün ölkədə və hətta xaricdə böyük əks-səda doğurdu. 1955-ci ildə hərbçilər və onların müttəfiqləri Peronu prezident postundan getməyə məcbur etdilər.

1955-ci ilin sentyabrında Peron hökumətinin süqutundan sonra yeni inqilabi Xunta ədaləti bərpa etməyə başladı. Yeni hökumət tətbiq etdiyi kilsə əleyhinə qanunları, o cümlədən kilsənin dövlətdən ayrılması və boşanmaya icazə verən qanunları ləğv etdi. Bu günə qədər mövcud olan himayədarlıq bərpa edildi. Dövlətin Kilsə üzərində nəzarəti XX əsrin 60-cı illərdə bir qədər yumşaldıldı. Yepiskopların

təyin edilməsində “Müqəddəs taxt-tacın səlahiyyəti” tanınırdı. Kilsə kilsə təyinatlarında və yeni yepiskopluqların yaradılmasında təşəbbüs hüququ əldə etdi. Dövlət yepiskoplara, rahiblərə və kilsələrə maddi dəstək vermək öhdəliyini öz üzərinə götürdü. Argentina ərazisində ordenlərin və monastır icmalarının yaradılması ilə bağlı bütün məhdudiyyətlər ləğv edildi, lakin onlara dövlət nəzarəti qorundu. 20-ci əsrin sonrakı onilliklərində katolik kilsələrinin fəaliyyəti həm Argentinadakı siyasi hadisələrdə, həm də başlanğıcı II Vatikan Şurasının (1962-1965) təşəbbüsü ilə Roma Katolik Kilsəsində baş verən proseslərdə öz izini buraxdı. Ölkədəki ağır iqtisadi vəziyyət işçi tətillərinə səbəb oldu. Bu tətillərdə 5 milyona yaxın insan iştirak etmişdi. Ölkədəki vəziyyət və dünya katolikliyində yeni liberal meyllər, eləcə də 1968-ci ildə Latın Amerikası Yepiskoplarının Konfransının radikal qərarları din xadimləri sıralarında azadfikirliliyin yayılmasına və solçu siyasi baxışların yaranmasına kömək etdi. Həmçinin, 60-cı illərin sonlarında **"Üçüncü Dünyanın müdafiəsində keşişlər hərəkatı"** yarandı. Onun ideoloqları ədalətli cəmiyyətin sosialist olacağına inanırdılar, lakin sovet modelindən fərqli olaraq sosializmi “milli”, “xalq”, “humanist” və “tənqidi” təsəvvür edirdilər. Argentinalı filosof və ilahiyyatçı E.Düssel Kilsənin tarixinə və onun məqsədinə dair radikal fikirlərinə, həmçinin “azadlıq ilahiyyatı”nın inkişafında iştirakına görə dünya şöhrəti qazanmışdır. Ümumilikdə, nəticə etibarı ilə kilsə qüvvələri tərəfindən Peron hakimiyyətinə son qoyulması ilə kilsə əleyhinə qanunlar qəbul edilməsi və dövlətin kilsə üzərində nəzarəti yumşalmasına baxmayaraq, 70-inci illərdəki çoxlu dövlət başçısının dəyişdiyi hərbi xunta dövründə kilsənin mövqeyi yenidən zəifləmişdir.

70-ci illərdə bir sıra hərbi çevrilişlərdən sonra Argentina açıq terror ölkəsinə çevrildi. On minlərlə insan tutularaq həbsxanalarda və konsentrasiya düşərgələrində saxlanıldı və ya itkin düşdü. Repressiyalar həm də keşişlərə və rahiblərə qarşı yönəldilirdi, onlar millətçi nəşrlərin anti-klerikal təbliğatı ilə müşayiət olunurdu. 1977-ci ilin sonlarında bir yepiskop və 17 keşiş və rahib öldürüldü, 30-u həbsxanada saxlanıldı. Katolik ruhanilərinin nümayəndələrinin təşəbbüsü ilə 70-ci illərdə Argentinada protestant kilsələrinin rəhbərləri ilə birlikdə “İnsan Hüquqlarının Ekumenik Hərəkatı” və “İnsan Haqları Daimi Assambleyası” kimi xristian

təşkilatları fəaliyyət göstərirdi. Rəsmi Katolik Argentina kilsəsi Çili, Braziliya və Mərkəzi Amerika dövlətlərinin kilsələrindən fərqli olaraq diktaturaya təsirli şəkildə qarşı çıxmadı.

1983-cü ildə ümumi seçkilər nəticəsində hakimiyyətə mülki hökumət gəldi. Argentinada hüquqi demokratik dövlət mexanizmləri bərpa olundu. 1987-ci ildə Roma Papası II İohann Pavel Argentinaya səfər etdi. O, bir neçə şəhər və kənd rayonlarını ziyarət edərək çoxsaylı çıxışlarında vətəndaş hüquqları, dinlər, ayinlər, evangelizm və sosial problemlərə toxundu. Ciddi iqtisadi problemlər 1989-cu ilin mayında Peronist namizəd Karlos Saul Menemin seçkilərdə qalib gəlməsinə səbəb oldu. Kilsə iyerarxiyası yeni hökumətlə harmoniya və sülh üçün çalışırdı. Böyük xarizmaya malik olan Menem, "çirkli müharibə" repressiyalarına qapını bağlamağı bacardı.

1994-cü il Assambleyası Menemin 1995-ci ildə yenidən seçilməsinə icazə vermək məqsədi daşıyan yeni konstitusiya layihəsi hazırladı. Dəyişikliklər arasında kilsənin ənənəvi təsirini zəiflədən bir neçə dəyişiklik də var idi. Artıq, respublika prezidentinin artıq katolik olması lazım olmayacaq və abortla bağlı sərt qanunlar dəyişdiriləcəkdi. Kilsə ilə dövlət arasındakı ayrılıq faktiki olaraq artırdı, halbuki əvvəllər yalnız nəzəri cəhətdən artmışdı. Bununla belə, katolik kilsəsi müxtəlif hökumət subsidiyaları vasitəsilə dövlət dini olaraq qalmağa davam etdi. Beynəlxalq miqyasda artan liberalizm qarşısında həm kilsə təlimlərinə şəxsi dəstək, həm də siyasi cəsarət nümayiş etdirən prezident Menem 1999-cu ildə 25 martı aborta qarşı "Doğulmamış Uşağın Günü" elan etdi. Vatikan tərəfindən alqışlanan Menemin bəyanatı bütün dünyanın diqqətini çəkdi və əksəriyyəti katolik olan digər dövlətlərin liderləri tərəfindən təqlid edildi.

## Cənubi Amerikada din və qanunvericilik

***Argentina Respublikasında Azadlıq ənənəsi.*** 1960-cı illərdən bəri din Cənubi Amerikada diktaturadan seçilmiş hökumətə keçidlə paralel olaraq diqqətəlayiq bir dinamik qüvvə olmuşdur. Katolik liderləri və fəalları avtoritar rejimlərə qarşı çıxdılar, demokratik "keçidlərə" təsir etdilər və əsaslı şəkildə dəyişdirilmiş iqtidar təsisatları içərisində bu gün daha açıq cəmiyyətlərdə əhəmiyyətli bir yer olaraq qaldılar. Bu eyni dövrdə böyüyən Evangelist və Pentekostal kilsələri, ictimai həyatda artan nüfuz ilə bölgədəki böyük bir sosial hadisəyə çevrildi. Bu dini dinamizm dövrü bölgədə əvvəllər əsasən dövlət repressiyaları və insan hüquqlarının müdafiəsi ilə mübarizə, son zamanlar cinayət zorakılığı və vətəndaş təhlükəsizliyinin artırılması səyləri ilə xarakterizə olunan ciddi dinamik bir dövr olmuşdur. Bölgədə aparılan tədqiqatların üç əsas məqsədi var:

Beləliklə, şəxsin bir varlıq olduğu və onun təbiəti dəri hüdudlarından və Qərb biologiyasının prinsiplərini aşdıqları deyilir; bu müqəddəs hissəciklərin maddi və müvəqqəti konteyneridir - Atman - bu hissəciklərin taleyi maddəni azad etmək və müqəddəs universal (Brahma) ilə birləşməyə nail olmaqdır; insan təcrübəsindən (purusha) əbədi və əlaqəsiz olan mahiyyəti, fiziki bədən (prakriti) və həyatı ona verən ethereal müqəddəs enerjinin (sakti, Brahman) sıxlığını əhatə edən sonlu bir məsələdədir; bütün insanlarda onun enerji mərkəzlərindən (çakraslardan) kainata və əksinə, insanları ətraf ilə maddi və varislik münasibətlərində mövcud hala gətirir. Beləliklə, insan mövcudluğu bir ömrünün daha geniş bir temporal xəttində bir an kimi müəyyən edilir, fərdi xəttlər silinir və insan hər həyatda varlıq ağrısının

qurtuluşunun daimi potensialıdır. Bu qeyri-real / maddənin əsl və qeyri-maddi olduğunu ayırd etmək imkanı verən fürsətdir. maddə - karma - bu cahil qarışıqlıq (miya) və kosmik qanuna (dharma) uyğun olaraq, dirçəlişlər dövründən (samsara) və müqəddəs (möksa) ittifaqı (Eliade 1999) uyğunlaşdırmaq.

İnsanlıq hərəkətlərini yaxşı və pis mənəvi baxımdan nəzərdən keçirən bir dünya görüşü ilə qarışıqlıq; bənzərsiz və əbədi mənəvi varlığın fərdi məntiqi, unikal bir orqanla əlaqəli olsa da; Qərb tibbinin bioloji prinsiplərinin təsiri, alıcı mədəniyyətin digər aspektləri arasında, qarışıqlıqlar və dəyişikliklər yaradıb ki, bu da insanın dünyadakı yerini anlayışına imkan verən yeni bir fikir dəsti yaratmaqdır. Bu konsepsiyaların mənşəyini bir minillik tarixi ənənəyə çevirən, indiki vaxtın və məkanda məsafədən uzaq bir şəxsiyyət ideyasına əsaslanaraq, indiki indiyədək mədəni və simvolik dəyərini, mədəni yaradıcılıq proseslərinin və ənənələrin yenidən qurulmasını təmin edir.

**Ruhani axtarışlardan xoşbəxt olmaq üçün axtarılır** Hinduizmin Argentinada müqəddəs sahəni formalaşdıran bir çox inanç sistemləri kontekstində təsirini anlamaq üçün müvafiq hissənin yoga pyeslərini tanımaq lazımdır. Bu intizam hinduizmin bütün sahələrində mövcuddur və Argentinalı cəmiyyətdə yayılmasının yeganə deyil - imtiyazlı vasitədir. Hinduizmdə yoga insanın qeyri-real olanı, nə qədər quru olan əbədiyyətdən, karmadan azadlığa nail olmaqdan, və beləliklə, dirçəliş dövründən azadlığa malik olanları gerçəkləşdirə bilən bir astsetik intizamdır. Hinduizmin bir çox şöbəsində tapılan fərqlər, Yoga (2001) göstərdiyi kimi, Tantra və Ayurveda ilə yanaşı qeyri-adi yollardan biri olan, yəqin ki, ümumiyyətlə, fiziki cəhətdən diqqət çəkən yoga konsepsiyasında böyük fərqlər demək deyil Hinduizm onu aşmaqda maraqlıdır. Argentinada hinduizmi yaymaq müxtəlif anlar, yüksək və aşağı inkişaf, görünürlük və transsendenslik nümunələri olmuşdur. Əlbəttə ki, "New Age" hərəkatı bir çox konsepsiyasının kütləvi yayılmasının başlanmasına kömək etdi, hətta onların transformasiyasında belə bir perspektivdə tapmış şəhər batı mədəniyyətinin düşüncələri arasında alternativ xəyali alternativdə izlənilə bilər. vasitəçi və ya dini qurumlara ehtiyac olmadan müqəddəslə əlaqə saxlayır (de la

Torre, 2006). Həmçinin, mənəvi axtarış, yeni həyat tərzi və xəstəliklərin və ağrıların müalicə üsullarının axtarışı olduğu Hoffman, 2002-ci ildəki yaxşılıq və fərdi özünüifadə idealını və ya hər hansı mövcud dini mənsubiyyətə əlavə (Hasselle-Newcombe, 2005) mərkəzi. Hinduizm, Aralıq dənizində, hər birinin fərdi və fərqli xüsusiyyətləri ilə, birbaşa oxumaqla, dünyaya və insan irqinə baxmağın yeni bir yolunu yaradan prosesi başa düşməyimizə kömək etməklə mənimsədilər.

**Hinduizm və Elit Qruplar**

Bu mərhələnin dinamikası Avropada və ABŞ-da baş verən digər oxşar və müasir hərəkətlərlə bir yerdədir. Bu hərəkətlər mənəvi axtarışın bir hissəsi idi və təsəvvürlü bir Şərq üçün uzaq və ekzotik bir təsəvvür idi - ata-baba hikmətinə aid olan və yəhudilik və xristianlıqdan fərqli bir şey təklif edən və bu da mənəviyyat təcrübəsini yeniləmək üçün qərbdə imkan yaratdı. Məşhur hind müəllimlərinin bu illərdə ziyarət etdiyi tez-tez görünürdü. Gurus ölkədə aylar boyunca qalmağa dəvət edilmişdi və hinduizm prinsiplərini öyrətmək və onların ruhani məsləhətlərini, həmçinin düşüncə, Bhagavad Gita və Patanjali kimi Yoga Sutras kimi müqəddəs mətnlər müzakirə edilirdi.

**Katoliklərdən Quills və Hinduizm**

Hinduizmin daha geniş yayılmasında ilk növbələrdən biri də digər sosial mühitlərin daxil olmasına imkan yaradır -Katolik ənənəsinin orta sinifləri - Cizvit padşahı Ismael Quillilərin (1906-1993) çoxu hindu müqəddəs mətnlərindən ibarət olan tərcüməsi idi və onları Katolikizm ideyalarına uyğunlaşdırdı. Şərqşünaslıq üzrə bakalavr dərəcəsi və Universidad del Salvadorda texniki dərəcə qurucusu olan Quiles, Qərb Katolikləri müqəddəs konteyner kimi qəbul edən praktikanı qəbul etməyə imkan verən Şərq fənləri ilə bağlı bəzi konkret fikirləri ortaya qoydu. Onun katkıları Şərq yoga klassik ideyalarını dəyişib, müəyyən anlayışlar verərək, katolik olanlara zidd olan digərləri yenidən müəyyənləşdirdi. Dəyişən fikirlərin bəzi örnəyi pozula bilən maddi varlığa bənzəri olmayan və ölümsüz ruh fikri yerinə, yenidən doğuş ya da samsara döngəsi ilə bağlı olanlardır; Katolik yaxşı və pis anlayışına

qarşı cahillik ideyası; ya da təqva və yaxınlığımızı anlamaq münkündür. Şərqdə hər bir təcəssüm xüsusi dharma deməkdir, yəni davranışa görə kasta və inkişafa görə gözlənilən davranış, əxlaqi cəhətdən dəyər deyil, cahilliyə aiddir.

**Hinduizm, Yoga və Yeni Əsr Hərəkatı**

1960-cı ildən indiyədək Hinduizm Yeni Yas hərəkatının ideyaları, yoga və meditasiya ilə əlaqəli şəkildə yayıldı. Hinduizmin konsepsiyaları və təcrübələri Katolikizmin institusional çərçivələrindən qaçaraq, yaxşı sağlamlıq, rifah və ruhani axtarışa nail olmaq üçün fərqli yolları tapmağa çalışırlar.1960-cı illərdə Buenos-Ayres şəhərində bir sıra qruplar yaradılmışdı ki, məqsədi həyat keyfiyyətinin yaxşılaşdırılmasına imkan verən, ciddi təhsilin mənfi təsirlərinə və həyat tərzi ilə təmasda olan "təbiət" "Və insanların mənəvi mahiyyəti” idi. Bu qruplar yüksək gəlirli sosial qruplara mənsub olan kişilər və qadınlar tərəfindən əlaqələndirilmişdir. Ən məşhur qruplar, Río Abierto (Open River), Gimnasia Expresiva Rítmica y Yoga (Ekspresyonist Ritmik Gimnastika və Yoga) və Arroyo (Brook) idi, burada Şərq və Qərb köklərinin çoxsaylı texnikaları müxtəlif seminarlarda nəfəs alma, qrup və fərdi düşüncə ilə birləşən fiziki texnikalar, Yeni Əsr hərəkatı və ənənəvi Hindu mətnləri haqqında oxu seansları. 1970-ci illərdə Argentinaya gələn Swami Şami Prevanandha kimi Hindu müəllimlərinin də səfərlərini qəbul edərdilər. Bu qruplar fərqli alternativ müalicələrə nəzər yetirdilər, yerli və ya xarici mütəxəssislər tərəfindən təşkil edilən müxtəlif seminarlarda kurslar və seminarlar təşkil edirdilər, New Age fenomeni tipik bir dairəvi hərəkətdə (Carozzi, 2001). Bu oxu seanslarında və hindun ənənəvi mətnləri ilə bağlı müzakirələrdə öyrənilən fikirlər katolik mənbələri və bioloji bir varlıq kimi bədii ilə bağlı konsepsiyaların dinamik bir dəyişiklik oyununda birləşdirilə biləcəyi daha böyük bir povestin bir hissəsi olacaqdır. 1980-ci illərdə Argentinanın əsas şəhərlərində yoga dərsləri və müəllim hazırlığı imkanları təklif edilən bir çox yerlər var idi. Ayrıca oxumaq, mahnı oxumaq, teatr etmək, yemək bişirmək və meditasyon etmək kimi fəaliyyətlər də Şərq fəlsəfələri kontekstində, xüsusilə də Hinduizm kontekstində təqdim etdilər. Bu qurumların əksəriyyəti hələ də bu gün işləyir, bəziləri başqalarından daha üstündür. Təşkilatların siyahısı uzun

və müxtəlifdir. Daha effektiv və uzun müddət davam edən bir ənənəyə sahib olanlar söz mövzusu olacaqdır. 1982-ci ildə Buenos Aires tərəfindən maliyyəyə edilən Indra Devi Fondu, Tagore, Mahatma Qandi və Sai Baba ilə olan əlaqəsini və Hindistandakı kalışını qiymətləndirəcək olan mataji Indra Devi olaraq bilinən Eiženija Pētersone'un təlimlərini izləyir. Indra Devi Fondu, ağırlıqlı olaraq yoga və digərləri ilə Hinduizmin fərqli fəlsəfi aspektlərinə və müqəddəs adama bağlanma və qoşulma ehtimalına aid edilən bir sıra intizamı təqdim edir. İndra Devinin iştirakçıları yaş, cinsiyyət və sosial qruplar arasında fərqlənir. Burada fəaliyyətlər uygulayıcının inanclarına hörmətlidir və hər hansı bir ziddiyyət olmadan onları Hinduizmlə birləşdirmənin bir ehtimalı vardır. 1981-ci ildə İtaliya və Argentinada Ada Albrecht tərəfindən hazırlanan Hastinapura Fondu, meditasyon və ya yoga kurslarının kənarına keçən müqəddəs teatr və adanmlı musiqidən, fitotıp və şərq fəlsəfəsinə qədər çox müxtəlif tədbirlər təqdim edir. Hastinapura ayrıca, bəzilərinin üzvlərinin Hindu ənənələri, pəhriz və məcburi meditasiyanın tətbiq mərkəzlərində olduğundan daha möhkəm təqib edildiyi bağlı cəmiyyətlərdə yaşadığı fermalara malikdir. DeRose metodu 1988-ci ildə Argentina'ya gəldi. Braziliya qurucusu, Şərqi yoga, Swásthya Yôga klassik xəttinə əsaslanan yeni bir yoga janrının yaradıcısı olduğunu iddia edən bir braziliyalı doğulmuşdur. DeRose metodu digər növlərdən fərqli olaraq, hinduizm haqqında mistisizm və ya fəlsəfi istiqamətlərin kənarında qalmaqdan imtina edir və daha yaxşı həyat keyfiyyətinə nail olmaq üçün bədən qayğı və təhsilinə üstünlük verir.

Hinduizmə edilən hər hansı bir birbaşa referansdan və New Age fikirləriylə qəsdli olaraq tənqidi olaraq ayrılmış olan son illərdə, fiziki ya da psixoloji sağlamlığın kənarında, uygulayıcının diniylə əlaqəsi olmayan və müəmmalı bir fikir ortaya qoyan bir sıra intizam üzərində durulmuşdur mənəviyyat oyandırdı. Bu faktın ən diqqətə çarpan əlamətlərindən biri də, 1981-ci ildə Şri Şri Ravi Shankar tərəfindən maliyyəyə edilən The Art of Living (Həyat Sənəti) 'nın təklif, başda bioloji və psixoloji olmaqla müsbət təsirləri baxımından yoga, meditasyon və nəfəs alma mövzusunda təqdim etməkdir. və sosial şərtlər (Carrone və Funes 2013). Fəaliyyət,

rahatlıq, müsbət düşünmə və qarşıdurma tədbirə ilə əlaqədar bir mənəviyyat növü olaraq qəbul edilir (Vargas və Viotti 2013). Hindu anlayışları və xüsusi ərizə, təşkilati ifadəyə bilvasitə olaraq ortaya çıxar. İndiki vaxtda Argentinada Hinduizmin fərqli versiyaları vardır, bunlar New Age, Katolik və hətta bio-tibbi, ənənəvi çərçivəyə daha hörmətli və Şərqdəki çevrilmə prosesində daha yaxın versiyaları. Bu, atalar üzərindəki müdriklik müraciətlərinə əsaslanan və müqəddəsin təcrübəsini ehtiva edən və mövcud Qərbdəki həyat təcrübələrini və yaranmanın mənasını yenidən təyin mümkün edən bir arxa plan, dünyayla əlaqədar bir duyğu şəbəkəsidir.

Bildiyimiz kimi uzun illər Hindsitan Britaniya imperiyasının tərkib hissəsi olmuşdur, lakin Argentina heç bir zaman Britaniya imperiyasına daxil olmamışdır. Buna görə də Argentinaya müsəlmanlardan fərqli olaraq, induslar buraya qul kimi gəlməmişdirlər. Lakin XX əsrin əvvəllərində hinduların bəziləri özlərində cəsarət taparaq, Britaniyalıların sahib olduqları dəmir yolları və ya Britaniya və ya Britaniya-Argentina birgə plantasiyalarda işləmək üçün buraya gəlmişdirlər. Onlardan çoxu Salta və Juju əyalətinə köçərək oradakı yerli xanımlarla ailə qurmuş və fermerlik etmişdirlər. Onlar hətta Argentina vətəndaşlığını qəbul edərək, özlərinə də ispan adları götürmüşdürlər. Bu insanların növbəti nəsil nümayəndələri digər ixtisaslara da yiyələnmişdirlər, çoxu tacir, hüquqşünas, bankir, tibb işçisi və s. olmuşdur. Lakin Hinduslarrın bir çoxu öz din, adət-ənənələrnə sadiq qalmışdırlar. Salta əyalətinin Rosario de la Fronteria şəhərində Qrundvarilər inşa etmişdirlər. Onlardan çoxu ayudvera, yoqa, Hind klassik musiqisi və Hind dilinə sadiqdirlər. Onlar şimal əyalətlərində Hindu cəmiyyətlərini təsis etmiş və Hind festivallarını qeyd etmək üçün mərasimlər təşkil edirlər. Lakin ölkədə onlar arasında koordinasiya məsələsi o dərəcədə  də yaxşı deyil. Buenos Ayresdə yaşayan Hinduslarrın çoxu biznesmen, həkim, maliyyə sahəsində çalışan və ya transmilli koorporasiyalarda çalışırlar. Onlardan çoxu mümkün olduğu halda Hindistan vətəndaşlığına da yiyələnirlər. Hinduslarrın sayı Argentinada az olduğu üçün onların ölkə əhalisinə təsiri elə də çox deyil. Onlar Hindistandan belə xüsusi istək və tələbləri yoxdur.

**Argentinada müsəlmanlar**

Argentinada ən önəmli yer tutan və sayca çox olan dini azlıqlardan digəri isə isə **islamdır.** Dinlə bağlı dəqiq statistika mövcud olmasa da (milli siyahıyaalma dini məlumat tələb etmədiyinə görə). Ölkədə mövcud olan müsəlman icması Latın Amerikasının ən böyük dini icması hesab edilir. Əslində, Argentinada mövcud olan və yaşayan müsəlmanların sayı dəqiq bilinmir, bunun əsas səbəbi əhalinin siyahıya alınması zamanı onların hansı dinə malik olması ilə bağlı sorğunun keçirilməməsi idi, lakin təqribi hesablamalara görə, müsəlmanlar Argentina əhalisinin 1,5 %-ni (bu da təqribən 1 milyon nəfər deməkdir) təşkil edir. Müsəlmanlar Argentiyana 1870-ci ildə Suriyadan, Livandan və Fələstindən gəliblər.

XV əsrdə Amerika qitəsi kəşf olunandan sonra avropalılar müsəlmanları bu regionda qul kimi istifadə etdilər. Belə ki, İslam ölkələrindən olan qulları işğalçılar Şimaldan Cənuba gətirmişdir. Bu qullar, əsasən, Braziliya, Venesuela, Kolumbiya və Karib ölkələrində məskunlaşıblar. Ayrı-seçkiliyə məruz qalan qulların böyük əksəriyyəti müsəlman idi. Buna baxmayaraq, müsəlman qullar edam cəzası qorxusuna görə öz dinlərindən dönmək məcburiyyətində qalıblar. Bu hadisə belə, islam dininin Latın Amerikasında tədricən yayılmasının qarşısını ala bilməyib.

XVII əsrin sonlarına doğru qulların azad olunması və çoxunun bu torpaqlarda məskunlaşması, bundan əlavə Hindistan və Pakistandan da miqrasiya dalğasını nəzərə almaqla, bu regiondan müsəlmanların sayında nəzərəçarpacaq artım hiss edildi. Bir sıra sənədlərə əsasən 1850-1860-cı illər ərzində Amerika torpaqlarına müsəlmanların növbəti miqrasiya dalğası baş vermişdir. Onların çoxu Suriya və Livandan gəlmiş, əsasən, Argentina, Braziliya, Venesuela və Kolumbiyada

məskunlaşmışlar. XX əsrdə də Argentinaya Suriya və Livandan miqrantların gəlişi davam edirdi. Belə güman edilir ki, bu gün 3,5 milyon argentinalı ərəb əsillidir.

Argentina müsəlmanları ölkədə adi bir həyat şəraiti yaşayırlar, ümumilikdə onlar xoşniyyətli, düzgün və vicdanlı insan kimi tanınırlar və Argentina cəmiyyətinə inteqrasiya ediblər. Argentinalılar müsəlmanların məsuliyyətli və anlayışı, etibar edilə biləcək insan olduqlarını söyləyirlər. Müsəlmanların bir çoxu islam birliklərinin, mərkəzlərinin, məscid və s. təsis edilməsi və azad ibadət etmək üçün bir yerdə toplaşırlar. Argentinada islam dinini qəbul edənlərin sayında cüzi də olsa artım hiss olunmaqdadır, daxillərində mənəvi boşluq hesab edən insanlar islamda bütünlük tapdıqlarını qeyd edirlər. İslam haqqında ispan dilində kitablar nəşr olunur, Həcc ziyarətini həyata keçirən argentinalıların da sayı ötən illərlə müqayisədə artmaqdadır.

Buenos Ayresin mərkəzində 1989-cu ildə yerli müsəlmanlar tərəfindən inşa edilmiş gözəl bir məscid var. Bundan əlavə, şəhərin digər ərazilərində, şəhərlərdə və fərqli regionlarında, xüsusilə də Braziliya, Argentina və Paraqvay sərhədlərində yerləşən ərazilərdə məscidlər mövcuddur. Argentina Latın Amerikası ölkələri sırasında islam dəyərlərinin yüksələn xətlə inkişaf edən ölkələrdən biridir. Səudiyyə Ərəbistanından gələn maliyyə yardımı hesabına daha çox məscidlər, mədəni və ictimai tədbirlər keçirilməsi üçün binalar tikilirdi. Ölkədə 9 islam mərkəzi fəaliyyət göstərir. Daha bir maraqlı fakt isə, Argentinanı 1989-1999-cu illərdə idarə etmiş, ölkənin keçmiş prezidenti Karlos Menemin müsəlman əsilli olmasıdır. Belə ki, onun valideynləri XIX əsrin sonunda Suriyadan Argentinaya köç ediblər. Müsəlman ailəsində böyüyüb tərbiyə alan, hüquq təhsilinə yiyələnmiş və gənc yaşlarından siyasətə qoşulan Menem xristian dinini qəbul edir. Bunun əsas səbəbi ölkə konstitusiyasının tələbinə əsasən prezident və vitse-prezident olmaq istəyən şəxslər mütləq katolik olmalı idi. 1989-cu ildə hakimiyyətə gəlmiş Menemin şəxsi təşəbbüsü əsasında 1994-cü ildə ölkədə konstitusiyaya dəyişiklik və əlavələr üçün referendum keçirilir, nəticədə prezident, vitse-prezident olmaq üçün katolilik olmaq tələbi aradan qaldırılır.

Buenos Ayresdə 1982-2005-ci illərdə Səudiyyə Ərəbistanı kralı olmuş kral Fahdanın adına İslam mədəniyyət mərkəzi fəaliyyət göstərir. Onun ərazisində Cənubi Amerikanın ən böyük məscidi yerləşir. Onun inşası kral Fahdanın dəstəyi ilə 1996-cı ildə bitmişdir. 20000 m² ərazidə inşa edilən məscidin tikilməsi üçün əslində 34000 m² ərazi verilmişdir. Bu qərar 1992-ci ildə prezident Karlos Menemin Səudiyyə Ərəbistanına səfərindən sonra verilib. Layihənin icrası üçün 30 milyon dollar pul ayrılıb, burada məsciddən başqa kitabxana, iki məktəb və parkın inşası planı var idi. Ümumiyyətlə isə, məhz Karlos Menem hakimiyyətə gələndən sonra Argentinanın müsəlman ölkələrlə münasibəti daha da möhkəmlənmiş və yüksələn xətlə inkişaf etmişdir. Menemin hakimiyyəti illərində Türkiyə ilə də münasibətlərə önəm verilmişdir.

Qeyd etdiyimiz kimi, Argentina Latın Amerikasında ən böyük müsəlman icmasına malik ölkədir. Baş qərərgahı Argentinada yerləşən Latın Amerikasının İslam Təşkilatı (LAİT) Cənubi Amerikanın ən fəal islam təşkilatıdır. Bu təşkilat regionda yaşayan müsəlmanları birləşdirir. Lakin, bütün bu müsbət hallarla yanaşı Argentinada müsəlmanları qarşısında duran çətinliklər və islam dininin geniş yayılmamasının səbəbləri də mövcuddur. Bunlara misal olaraq, müsəlmanların özlərinin islam mədəniyyəti və dini haqqında kifayət qədər biliyin olmaması; bir sıra insanların müntəzəm olmayan dini təcrübəsi, həmçinin islam kimliyini qoruya bilməyən insanların sayının çox olması. Onlar yaşadıqları cəmiyyətin fərqli düşüncəyə malik fərdləri arasında daha yaxşı qəbul olunmaqları və bu cəmiyyətə adaptasiya oluna bilmədiklərini düşünərək öz dini inanc və mədəniyyətlərindən imtina edirlər; ispan dilini bilən və bu ölkənin mədəniyyətinə, adət-ənənəsinə bələd olan dini yayanların sayının az olması; islam dini haqqında biliklər əldə ediləcək məktəb və müəllimlərin çatışmazlığı; ispan dilində islama dair material - kitab, audio və video çatışmazlığı; islam təsisatlarını idarə edənlər arasında əlaqələrin kifayət qədər yaxşı olmaması; bütün səviyyələrdə - şəxsi, ailə, təsisat və təşkilat səviyyəsində müsəlmanlar arasında ünsiyyətin kifayət qədər yaxşı olmaması; dini konfrans və tədbirlərin mütəmadi keçirilməməsi, din xadimlərinin, din alimlərinin görüşünün gec-gec keçirilməsi; kütləvi informasiya vasitələri ilə əlaqə qurmaq üçün

təhsilli şəxslərin olmaması; islam ölkələrinin KİV-lərinin Argentina KİV-ləri ilə demək olar ki, əlaqələrinin olmaması. Son olaraq, qeyd edək ki, Latın Amerikası hər üç səmavi dinin - musəvi, xristian və müsəlmanların nümayəndələrinin sülh və əmin-amanlıq içində yaşadığı bir regiondur. Çünki, hər üç dinin nümayəndələri dəfələrlə bəyan etmişdirlər ki, hər bir dinin nümayəndələri bu regiona gələrkən, çox əziyyətli, əzablı yollar keçmiş və bu gün hər üç dinin təbliğ etdiyi həqiqi həmrəylik, dostluq və sülh şəraitində yaşayırlar.

Argentinada digər dini azlıq isə **iudazimdir.**1862-ci ildə Buenos-Ayresdə cəmi 10 yəhudi ailəsi yaşayırdısa, 1872-ci ildə bu 30, 1882-ci ildə isə bu say 55-ə qalxdı. Rusiyada 1860-cı il hadisələri artıq 1891-ci ildə minlərlə yəhudinin Moskvadan qovulmasına səbəb oldu, bu da Avropada mövcud yəhudi xeyriyyə təşkilatının qovulmuş yəhudiləri Argentinada yerləşdirmək təşəbbüsün irəli sürdü. 1889-cu ildə 130 yəhudi ailəsini (Rusiyadan olan 800 yəhudi) gətirən gəmi Buenos-Ayresə gəldi və burada ilk dəfə yəhudi kənd təsərrüfatı müstəmləkəsini qurdu. Hal-hazırda, Argentinada təxminən 180.500 yəhudi və onların əksəriyyəti Buenos-Ayres, Kordoba və Rosario kimi böyük şəhərlərdə məskunlaşmışlar.

Erkən avropa yəhudiləri ilk öncə Pampaslarda məskunlaşdılar. Maliyyə yardımını isə onlar fransız milyoneri, xeyriyyəçi və sionist Morisa de Qirşa göstərdi. Qrişanın cəhdləri nəticəsində təqribən 30 min yəhudi 1922-ci ildə Argentinaya gəldi, lakin bunlar daha sonra məhz elə Avropaya qayıtdılar. Çünki bu zaman Argentina iqtisadi böhran içində idi, Argentina bu miqrantları qəbul edə və onları kənd təsərrüfatı işlərinə cəlb edə bilməzdi. Mərakeşdən gələn yəhudilər bu baxımdan daha uğurlu bir köç həyata keçirdilər və kiçik qruplarla Argentinanın şəhərlərində məskunlaşdılar. Onların argentina cəmiyyətinə inteqrasiyasının başlıca səbəbi ispan dilini bilmələri idi. XIX əsrin sonlarında başlayaraq, Argentinaya Şərqi Avropadan fərqli siyasi, mədəni və sosial qrupları təmsil edən ziyalı yəhudilər köç etməyə başladı. Onlar 1900-cu ildə Buenos-Ayresdə Yəhudi işçi birliyi hərəkatı, maddi vəziyyəti pis olanlar üçün xeyriyyə mətbəxi, məşğulluq idarələri, bir sıra qəzet və teatr kollektivi təsis etdilər. Qeyd etmək lazımdır ki, Argentina Latın Amerikasında Almaniya ilə diplomatik və iqtisadi əlaqə saxlayan yeganə dövlət idi. Argentina

hökuməti Almaniya və ona qonşu olan ölkələrdə gələn yəhudi qaçqınları qəbul etmirdi. Argentinanın Avropada olan bütün səfirliklərindən onlara viza verilməməsi haqqında tapşırıq verilmişdir. Məhz bu səbəbdən Argentinaya yəhudilər Boliviya, Çili, Paraqvay, Uruqvaydan gəlirdilər. 1933-1945-ci illərdə 40 min yəhudi Latın Amerikası ölkələrində ən çox Argentinaya gəlmişdir. Bu zaman Venesuela, Kolumbia, Braziliya üçün ölkəyə giriş üçün katolikliyi qəbul etməyi təklif etdilər. Meksika isə 1942-ci ilin aprel ayına kimi yəhudi qaçqınları qəbul etmədi. Yəhudi qaçqınları yalnız Ekvador, Dominikan Respublikası, Boliviya qəbul edirdi.

Latın Amerikası bu illərdə Avropadan bacardıqlarından az yəhudi qəbul etmişdirlər. Almaniya ilə Argentina arasında sıx əlaqələr meydana gəlməyə başladı. İki ölkə arasında sıx əlaqələr səbəbindən Holokost zamanı Argentinanın yəhudi icması çox gərgin vəziyyətdə idi və onlar yalnız Fələstində yerləşən qaçqınlar üçün maddi yardım yığmaqla məşğul idilər və bu zaman onlar soyqrım məsələsindən heç bəhs etmirdilər. Peron hakimiyyətə gəldikdən sonra məktəblərdə katolikliyin təlimi ilə bağlı dərslərin keçirilməsinə göstəriş vermiş və həmçinin Almaniyadan qaçan nasistlərə ölkəsində sığınacaq verdi. Hesablamalara əsasən 30-40 min alman Argentinaya gəlmiş, onların böyük hissəsi isə alman nasistləri idi. Argentinaya nasistlərin gəlməsi yəhudilərə qarşı terror aktlarının baş verməsinə səbəb oldu. Bütün bunlara baxmayaraq, Peron Latın Amerikasında 1949-cu ildə İsraili tanıyan və onunla ticarət əlaqələri quran ilk dövlət başçısı idi. 1978-1982-ci il baş verən hərbi çevriliş nəticəsində hərbi xunta idarəetməni ələ alır və çoxlu sayda yəhudi itkin düşür. Xuntanın hakimiyyəti zamanı israilli diplomatlar mürtəd yəhudiləri ölkədə çıxarda bildi. Belə ki, Argentina qanunlarına əsasən əgər həbsxanada yatan cinayətkarı qəbul edən dövlət olsa, o halda bu cinayətkarı qəbul edə bilər. İsrail diplomatları da bu qanundan istifadə etdilər.

1992-ci ildə Buenos-Ayresdə İsrail səfirliyinin qarşısında terror aktı baş verdi və nəticdə 29 insan həlak oldu. 1994-cü ildə isə Buenos-Ayresdə avtomobilə qoyulmuş partlayıcı qurğunun partlaması nəticəsində 85 nəfər həlak olmuş, 200-dən çox insan yaralanmışdır. Terror aktının səbəbkarı İrandan olan, lakin Argentinada faəliyyət göstərən silahlı ekstrimist qruplar idi. Partlayış nəticəsində diasporanın ən

mühüm kitabxanası məhv edilmişdir. Bu kitabxanada yaşı ən azı 50 il olan, Holokost zamanı xilas edilmə bilən ivrit dilində əlyazma kitablar kimi dəyərli məlumatlar var idi. Bu kitablarda Şərqi Avropa yəhudi mədəniyyətinin necə məhv olması yazılmışdır. Terrror aktı zamanı həmçinin yəhudilərin Argentina və Latın Amerikasına miqrasiya etmələrinə dair məlumatları özündə ehtiva edən mərkəzi arxiv də məhv edildi. Terror hadisəsi parlamenti məcbur etdi ki, antisemitzm və irqçiliyə dair qanun qəbul etsin. Bundan əlavə, Argentinada kiçik milliyyətçi qruplar hələ də fəaliyyət göstərirdi. Bu hadisədən sonra Argentinada mövcud olan yəhudi müəssisələrinə çox ciddi nəzarət olunur.

Argentinada əsasən aşkinazlardan olan 250 mindən çox yəhudi yaşayır, onlar əsasən Buenos-Ayresdə yaşayırlar və Latın Amerikasında ən çox burada məskunlaşıblar. Argentinada yəhudilərin 15%-i isə sefardilərdir. Onlar əsasən Türkiyə, İspaniya, Suriya və Şimali Afrikadan köç edənlərdir. Argentina hökuməti yəhudilərə rəsmi olaraq, Poş xa Şana, Yom-Kimppur kimi yəhudilərin müqəddəs bayramlarında, həmçinin Pesaxın ilk iki günü və son iki günü işləməməyə icazə verir. Argentinada olan sinaqoqların böyük hissəsi ortodoksdur, amma əslində isə onların çoxu islahat tərəfdarıdır. Agentinada çoxlu sinaqoq, yəhudi təşkilatı, 70-ə yaxın yəhudi təhsil mərkəzi fəaliyyət göstərir. 2000-ci ildə Argentinada Holokostu xatırladan bir park açılmışdır. Bu da onu göstərir ki, iudazim cəmiyyəti Argentinada kifayət qədər fəaldır və həmçinin dövlət tərəfindən onlara qarşı xüsusi diqqət ayrılır.

### Cənubi Amerika ölkələrində dini etiqad azadlığı və təhsil

Cənubi Amerikadakı dini və etiqad azadlığının vəziyyəti ölkədən ölkəyə dəyişir. Dövlətlər müxtəlif dinlərə sitayiş edənlər üçün qanunla bərabər rəftara zəmanət verib-verməməsinə, dini təşkilatların fəaliyyət göstərmə dərəcəsinə görə fərqlidirlər. Bəzi region ölkələrində dini etiqad azadlığı qanunla qəbul olunsa da, təcrübədə isə bəzi uyğunsuzluqlar var. Yəni bir ölkənin öz konstitusiya və qanunlarında dini bərabərliyin bərqərar olması, sakinlər üçün cəmiyyətdə mütləq etiqad azadlığının

olması anlamına gəlmir. Dini qurumların hökumətdə qeydiyyata alınması, dini azlıqların dini mərasimlərini və ayinlərini tam azad şəkildə həyata keçirməsi bu ölkələrə xas olan digər sosial-siyasi vəziyyətlərdən asılı olaraq fərqli nəticələrə səbəb ola bilər. Cənubi Amerikadakı hər bir ölkə öz konstitusiyasına din azadlığına dair bir müddəa əlavə edib. Bir neçə ölkə isə fərqli dindən olanlara qarşı ayrı-seçkiliyi açıq şəkildə qadağan edib. Cənubi Amerikanın heç bir ölkəsində rəsmi dövlət dini olmasa da, region ölkələri katolik kilsəsinə üstünlük verirlər. Cənubi Amerikadakı üç ölkədə antisemitik vandalizmin olduğu bildirildi.

***Argentina***

Argentina Konstitusiyasının 14-cü maddəsi bütün Millət sakinlərinə "öz dinlərini sərbəst olaraq tanımaq" hüququna zəmanət verir. Konstitusiya hökumətin Roma Katolikçiliyini iqtisadi cəhətdən dəstəkləməsini tələb edir və hökumət Roma Katolik Yepiskoplarına maaş verir. Buna baxmayaraq, Ali Məhkəmə, Roma Katolik Kilsəsinə konstitusiya və ya hər hansı bir federal qanunla rəsmi din statusu verilməməsi haqqında qərar verdi. Buenos Ayres Universitetinin Gino Alman Araşdırma İnstitutu tərəfindən keçirilmiş 2011-ci ildəki sorğu, Argentinalıların əksəriyyətinin antisemitik düşüncələrə və ya qərəzlərə sahib olduqlarını göstərdi. 2010-cu ildən bəri Argentinada əsasən şifahi təhqir və vandalizm şəklində bir sıra antisemitik hadisələr qeydə alınmışdır.

***Boliviya***

Boliviya konstitusiyası din və etiqad azadlığını tanıyır və kilsə ilə dövləti bir-birindən ayırır. Konstitusiya dini azlıqlara qarşı ayrı-seçkiliyi qadağan edir.

Boliviya hökümətinin qərarlarına əsasən Katolik Kilsəsi istisna olmaqla, digər bütün dini qurumlardan Xarici İşlər Nazirliyində qeydiyyata alınması tələb olunur.

Həm özəl, həm də dövlət məktəblərinin dini tədrisləri öz tədris planlarına daxil etmək imkanı var. Bütün məktəblərdən dini dözümlülüyü vurğulayan etika kursları keçməsi tələb olunur. Evangelist xristian cəmiyyətindəki bəzi kiçik kilsələr, şəxsi həyatları üçün narahatlıqlarını əsas gətirərək hökumətdə qeydiyyatdan imtina etdilər. Qanuna görə bu qruplar qeydiyyata düşmədikləri üçün bank hesabları aça və

ya əmlak saxlaya bilməsələr də, dövlət onların dini praktikasına başqa cür müdaxilə etməyib. Ölkənin kənd yerlərində yerli icmalar tərəfindən xristian missionerlərinə qarşı bəzi düşmənçilik münasibətləri hiss olunur.

***Braziliya***

Dini etiqad azadlığı Braziliya konstitusiyasına 7 yanvar 1890-cı ildən prezident Deodoro da Fonsecanın imzaladığı bir fərmanla daxil edildi. 7 yanvar Braziliyada Milli Dini Azadlıq Günüdür. Braziliya Federal Konstitusiyası, din azadlığının əsas hüququ olaraq, Braziliyanın dünyəvi bir ölkə olduğunu, dövlətin heç bir tanrı və ya dini qəbul edə, təşviq edə və təbliğ edə bilməyəcəyini təsbit edir. Konstitusiyasının 19-cu maddəsində, Braziliya Federal Konstitusiyası, eyni zamanda Braziliyanın bütün federativ qurumlarına dini kultların qurulmasını qadağan edir. Praktikada Braziliyadakı bütün dinlərə hörmət edilir, lakin heç bir din təbliğ olunmur. Bununla birlikdə, dini etiqadı özündə cəmləşdirən şəxsi inanclar çox vaxt demokratik siyasi qərarlara təsir göstərir.

***Çili***

Çili konstitusiyası da din azadlığını təmin edir, baxmayaraq ki, bu azadlıq "əxlaqa, yaxşı adətlərə və ictimai qaydaya qarşı çıxmamalı" idi. Konstitusiya eyni zamanda kilsəni dövlətdən ayırır və dini ayrıseçkiliyi qadağan edir. Dini qurumların hökumətdə qeydiyyata alınması tələb olunmur, lakin vergi güzəştləri almaq üçün bunu edə bilərlər. Dini qruplar xəstəxanalar və həbsxanalarda xidmət göstərmək üçün keşişlər təyin edə bilər. Rəsmi olaraq qeydiyyata alınan qruplar hərbçilər üçün ruhanilər təyin edə bilərlər. Bütün məktəblərdə tələbələrin dini mənsubiyyətlərinə uyğun olaraq həftədə iki saat dini dərs verilməlidir. Bu cür kursların əksəriyyəti katolik dünyagörüşünə yönəlib, lakin hökumət 14 fərqli dini qrup üçün tədris planlarını təsdiqləyib. Valideynlər də övladlarını bu cür dərslərdən kənarlaşdırmaq üçün seçim edə bilərlər. Xristian Həmrəyliyi Dünyası'nın xəbərinə görə, arsonistlər 2017-ci ildə Baptist və Katolik kilsələrinə hücum etdilər. Digər mənbələrə görə, kilsə hücumları, geniş təşkilat, iş maraqlarına yönəlmiş təxribat nümunəsinə uyğundur. Yəhudi icmasının liderləri yəhudiləri hədəf alan antisemitik vandalizm və

graffiti hadisələrindən narahat olduqlarını bildirdilər. Milli Dini İşlər İdarəsi dinlərarası dialoqa kömək edir və dini müxtəlifliyə dözümlülüyü və tolerantlığı təbliğ edir.

***Kolumbiya***

1991-ci il Kolumbiya Konstitusiyası din azadlığına zəmanət verir və bütün dini etiqadların qanun qarşısında eyni dərəcədə azad olmasını təmin edir. Kolumbiya hökuməti siyahıyaalmalarda dini statistika toplamır və ümumiyyətlə, bunun marağında olmadığını qeyd edir.

**Ekvador**

Ekvadorda dini etiqad azadlığı ölkənin konstitusiyası tərəfindən təmin edilir və hökumət demək olar ki, bu hüquqa tam əməl edir. Dini qrupların missionerlik fəaliyyəti ilə məşğul olmasına icazə verilir və özəl məktəblərə dini tədris verilməsinə icazə verilir, hökumət dövlət məktəblərində isə dini tədrisə ümumiyyətlə icazə vermir.

***Paraqvay***

Paraqvayda din azadlığı Paraqvay Konstitusiyasında təmin edilmişdir. Ölkə qanunları bu hüququ istər hökumət, istərsə də özəl aktorlar tərəfindən sui-istifadə hallarından tamamilə qoruyur və dini bərabərliyi təmin edir. Konstitusiya Katolik Kilsəsinin (dominant din) tarixi rolunu tanıyır. Hökumət adı və praktikası ilə dünyəvi olmasına baxmayaraq, əksər dövlət məmurları katoliklərdir və katolik din xadimləri bəzən rəsmi hökumət tədbirlərində danışırlar. Hökumət dövlət məktəblərində dini təlimə icazə verir lakin tələb etmir. Ölkədə antisemitizm və nasist tərəfdarı mesajlar və simvollar, o cümlədən qrafitlər qeyri-adi şəkildə sezilir. Hökumət bu məsələni araşdırsa da, şübhəli şəxsləri müəyyənləşdirə bilmədi. 2007-ci ilin iyul ayında ABC Color qəzetində antisemit məqalə dərc olundu.

***Peru***

Peru konstitusiyası bir çox qəbul edilmiş dövlət qanunları ilə din azadlığını qoruyur. Ancaq katolik olmayan qruplar, katolik olanlara verilən eyni azadlıqları əldə etmək üçün davamlı mübarizə aparıblar. Uzun sürən mübarizəyə baxmayaraq, katolik olmayan dini qruplar katolik kilsəsində olanlara verilən müəyyən güzəştləri ala bilmədilər və dini mənsubiyyətləri və etiqadları nəticəsində cəmiyyətdə tez-tez pozuntulara və ayrı-seçkiliyə məruz qaldılar. Konstitusiyanın 50-ci maddəsində nə qədər əməl olunmasa da dövlətin Katolik Kilsəsinə verdiyi "töhfələri" digər dinlərə "verə biləcəyi" bildirilir. Peru əhalisinin təxminən 81% -i katolik, 13% protestant və 3% digər dinlərdir. Azlıqdakı dini qruplar bərabərsizlik problemini həll etmədiklərini və ayrıseçkilik və konstitusiyaya zidd ola bildiklərini iddia edərək dini etiqad azadlığı qanunlarını tənqid etdilər. Bir çox perulu fərqli mədəniyyətlərə və həyat tərzlərinə sahib olan əhaliyə mədəniyyətlərini yükləyən xristian dini qrupları ilə problem yaşamağa hələ də davam edir. Bununla yanaşı, Peru hökuməti çoxsaylı dini qruplar üçün daha çox qanuni hüquqların yaradılması istiqamətində bir çox addım atdı. Dinlərarası İşlər İdarəsinin inkişafı sayəsində Peru dini tolerantlıq problemlərini həll etmək üçün çalışdı. Bir çox azlıq qrupları, hökumətin 2011 və 2016-cı illərdə Katolik Kilsəsinə qarşı favoritliyi azaltmaq və təşkilatların qeydiyyatı tələblərini azaltmaq üçün etdikləri düzəlişlərdən məmnun olduqlarını söylədilər. Dini etiqad azadlığı mövzusunda hələ həll olunmayacaq bərabərsizliklər olsa da, Peru hökuməti katolik olmayan dini qrupların ətrafındakı problemlərlə mübarizə üçün çalışır və institusional bərabərlik üçün səylərini davam etdirir.

### *Surinam*

Surinamın konstitusiyası din azadlığını təsbit edir və dini ayrı-seçkiliyi qadağan edir. "Dini nifrət oyatmaq" cərimə, bəzi hallarda isə həbs cəzası ilə cəzalandırılır. Dini qruplar maliyyə dəstəyi almaq üçün hökumətdə qeydiyyatdan keçə bilər. Əksər qruplar qeydiyyata alınmışdır. Dövlət məktəblərində dini təlimlərə icazə verilmir. Xüsusi dini məktəblərin fəaliyyətinə icazə verilir və bu məktəblər Surinamdakı ibtidai və orta məktəblərin təxminən yarısını təşkil edir. Bu özəl məktəblər qismən hökumət tərəfindən subsidiya alır. Valideynlərin dini səbəblərə görə məktəbyaşlı

uşaqlarını təhsildən yayındıraraq ev təhsilinə cəlb etməsinə icazə verilmir. Hökumət dini müxtəliflik və dözümlülüyün dəstəyi ilə məşğul olur və ölkədə mövcud olan müxtəlif dini ənənələrin bayramlarını milli bayramlar kimi tanıyır. Silahlı qüvvələrdə hindu, müsəlman, katolik və protestant dinləri üçün ruhanilər var.

***Uruqvay***

Uruqvay Konstitusiyası din azadlığını təmin edir və "Dövlət konstitusiya zəminində heç bir dinə dəstək vermir". Dini zəmində ayrıseçkilik qanunsuzdur. Milli İnsan Hüquqları İnstitutu, parlamentin bir hissəsi, dini ayrıseçkiliklə bağlı şikayətlərə baxır və araşdırmalar aparır, nəticədə işin məhkəmə və ya inzibati məhkəmə iclası keçirilməsini qərara alır. İnstitut da şikayətçilərə pulsuz hüquqi mənbələr təqdim edir. Dini qruplar vergi güzəştləri almaq üçün hökumət tərəfindən qeyri-kommersiya təşkilatları kimi qeydiyyatdan keçə bilər. Yerli hökumət dəfn üçün ictimai torpaqların istifadəsini tənzimləyir. Bir çox şöbə bütün dini qrupların ictimai qəbiristanlıqlardan istifadə etmələrinə icazə verir. Dövlət məktəblərində dini təlim qadağandır. Dövlət məktəbləri müəyyən xristian bayramlarına yaxın olsa da, hökumət bu bayramlara xristian adları ilə müraciət etmir. Digər dinlərə mənsub tələbələr, öz dini adət-ənənələrinə riayət etmək üçün dərs almırlar. Özəl məktəblər hansı tətil və bayramların qeyd olunacağına qərar verə bilər.

Azlıqda olan dünyəvi olmayan dini qruplar 2017-ci ildə hökumət tərəfindən aparılan sorğuda onlara qarşı heç bir ayrı-seçkilik halları olmadığını bildirdilər. Bununla yanaşı, hökumətin xristian və yəhudi qrupları ilə əlaqələrə daha çox maraq göstərdiklərini və din adamları ilə birbaşa dialoq üçün imkanlarının az olduğunu iddia etdilər. Bu cür qruplar ümumi cəmiyyətdə öz inancları haqqında biliklərinin olmamasından və inanclarına görə bəzən ictimaiyyətdə şifahi şəkildə təcavüzə məruz qaldıqlarından şikayətlənirdilər. Yəhudi icması antisemit graffiti tərəfindən hədəfə alındı və Uruqvay saytlarında və sosial mediada antisemit ritorika mövcuddur. 2017-ci ildə Katolik Kilsəsi ilə Montevideo hökuməti arasında hökumətin böyük bir ictimai yolda Məryəm heykəlini quraşdırmaqdan imtina etməsi

səbəbiylə gərginlik yaşandı. Kilsə nümayəndələri bunun xüsusilə mübahisəli olduğunu iddia etdilər, çünki hökumət əvvəllər yol boyu Konfutsi və Yemọja heykəllərini təsdiqlədi. Məryəm heykəlinin tərəfdarları onun rədd edilməsini Montevideonun müsəlman icmasının müsəlmanların dəfn ayinləri üçün açıq mərasimdə torpaqdan istifadə etməsinə qarşı tələblərinə qarşı bir əsas kimi istifadə etdilər.

***Venesuella***

Venesuela Konstitusiyası "ictimai əxlaqı və ya ləyaqəti" pozmadığı təqdirdə din azadlığını təmin edir. 2017-ci il konstitusiya qanunu "nifrətə təhrik" və ya zorakılıq, o cümlədən dini qruplara qarşı nifrət oyatmasına dair müddəaları da cinayət sayır. Dini təşkilatlar hüquqi status almaq üçün hökumətdə qeydiyyatdan keçməlidir. Daxili İşlər, Ədalət və Sülh Nazirliyinin bir hissəsi olan Ədalət və Din Müdirliyi qeydiyyatları idarə edir, qeydiyyatdan keçmiş təşkilatlara vəsait verir və dini tolerantlığı təbliğ edir. ***Hərbçilərdə ruhani xidmətlər yalnız katoliklər üçün mümkündür.*** Dövlət məktəblərində dini təhsilə icazə verilir, baxmayaraq ki, bu hökumət tərəfindən təklif olunan hər hansı rəsmi tədris planına daxil deyil. Katolik Kilsəsinə bağlı olan Milli Laity Şurasının nümayəndələri hökumətin bəzən məktəb rəhbərlərinə dini dərslər verməmələri üçün təzyiq etdiyini, ancaq digər hallarda müəllimlərin, tədris planlarının Nazirliklə uyğun olmasına baxmayaraq dini təhsili daxil etmək üçün muxtariyyət verdiklərini iddia etdilər. Hökümətin tənqidçiləri olan dini xidmətlərini qeyri-düzgün siyasiləşdirməkdə günahlandıran dini təşkilatların rəhbərləri hökumətyönlü qruplar tərəfindən təcavüzə məruz qaldılar. Yəhudi icma liderləri dövlət tərəfindən maliyyələşdirilən medianı və bəzi hökumət rəsmilərini antisemitik ritorika ilə məşğul olmaqda günahlandırırdılar.

**Cənubi Amerika ölkələrində dini bayramlar**

Cənubi Amerika mədəniyyətində bayramların və festivalların qeyd edilməsində din çox vacib rol oynayır. Katolik xristian ənənələrini qəbul edərkən, bölgədə də bir çox dinlər də var. Maraqlı aspektlərdən biri də bir çox hallarda hazırda görülən

festivallarin Avropa xristian və yerli dini inancların birləşməsidir. Region ölkələrində müxtəlif festival ənənələri var.

Argentinada qeyd olunan dini bayramlar sırasında Pasxa bayramı mühüm yer tutur. Digər dini bayramlar kimi, Pasxa bayramı da təntənəli şəkildə qeyd olunur. Hər kəs bu bayramı ata ocağında, valideynləri ilə birlikdə keçirməyə çalışır. “Müqəddəs həftə” zamanı tətil edən insanların doğulub-böyüdükləri məkanlara kütləvi şəkildə üz tutmaları da bunu sübut edir. Pasxa günlərində ölkənin hər yerində, şəhər mərkəzlərində və kəndlərdə festivallar, küçə tədbirləri, paradlar, mərasimlər, ayinlər, rituallar və s. keçirilir. Evlərdə bu bayram üçün xüsusi yeməklər də hazırlanır. Bayram süfrəsində əsas yeri “locro”, “pan dulce”, qızardılmış xəmirdən hazırlanan yeməklər və Argentinanın məşhur “Malbec” içkisi tutur. Saatlarla süfrə ətrafında əyləşən ailə üzvləri birlikdə yemək yeyir və sohbət edirlər. Pasxa bayramında kilsəyə getmək argentinalılar üçün elə də önəmli deyil, çünki onların dini inaclarına görə ailə birliyi əsas hesab olunur.

**Pasxa bayramının qeyd edilməsi ənənələri**

Pasxa xristianlığın əsas bayramlarından biridir. İsanın çarmıxa çəkilərək ölümündən üç gün sonra dirilməsini qeyd edən xristian bayramıdır. Pasxa xristianlar tərəfindən sevincli bir bayram kimi qeyd olunur, çünki bu, Əhdi-Ətiqin peyğəmbərliklərinin yerinə yetirilməsini və Allahın bütün bəşəriyyət üçün xilaskarlıq planının aşkarlanmasını təmsil edir. Xristian ənənəsi, bəşəriyyətin günahlarının İsanın ölümü ilə ödənildiyini iddia edir. Pasxa günü dəyişəndir və qeyd edildiyi gün müasir təqvimlə uyğun deyil. Birinci Nikeya Kilsə Məclisi (325-ci il) Pasxa tarixini Mart gecə ilə gündüzün bərabərləşməsindən sonrakı ay bütövlənməsindən sonrakı ilk bazar günü olaraq müəyyən edir. Kilsə təqviminə görə gecə və gündüz bərabərləşməsinin 21 martda (baxmayaraq ki, astronomik təqvimə əsasən əksər illərdə bərabərləşmə 20 martda baş verir) baş verməsi qəbul edilir və Bütöv Ay astronomik təqvimlə heç də həmişə uyğunlaşmır. Beləcə, Pasxa tarixi 22 martla 25

aprel arasında dəyişir. Şərq xristianlığında Pasxa tarixinin hesablanması zamanı XI əsrdən bərabərləşmənin 21 mart tarixi qəbul edildiyi Yuli təqviminə əsaslanılır, 3 aprelin bərabərləşmə hesab edildiyi Qriqori təqvimində isə Pasxa tarixi 4 aprellə 8 may arasında dəyişir. Təqvimdəki mövqeyi və simvolikası baxımından Pasxa, qədim yəhudi bayramlarından biri olan Pesaxa əsaslanır. Əksər dillərdə "Pasxa" ("Easter") və "Pesax" sözləri də əlaqəli və ya omonim sözlər kimi işlədilir. Dünyanın müxtəlif hissələrində bir-birindən fərqli Pasxa adətləri mövcuddur. Pasxa bayramı adətləri:

- Pasxa zanbaqlarını göndərmək-Saflıq və ümidin simvolu olan Pasxa zanbaqları bütün dünya mədəniyyətlərində məna kəsb edir. Çiçəklərin Məsihin çarmıxa çəkilərkən qanının və göz yaşlarının töküldüyü yerdə cücərdiyi güman edilir.
- Pasxa yumurtaları boyamaq-Nəsildən nəsilə keçən maraqlı adətlərdəndir.
- Piroq bişirmək-Bu, müzakirə olunmayan Pasxa ənənəsidir. Pasxa piroqu həmişə mütləq olmalıdır. Bu piroq adətən yerkökü ətirli olur.
- Uçurtma uçurmaq-Bu xeyirxah cümə ənənəsi əvvəlcə Bermud adalarında populyarlıq qazandı, burada yerli bir məktəb müəlliminin şagirdləri üçün İsanın göyə qalxmasını nümayiş etdirmək üçün uçurtmadan istifadə etdiyinə inanılır. O vaxtdan bəri insanlar illik Cümə Uçurtma Festivalı üçün Horseshoe Bay sahilinə axın edirlər.
- Ayaqları yumaq- Bu xristian ənənəsinin mənşəyi Müqəddəs Kitaba gedib çıxır. Yəhyanın İncilinə görə İsa Pasxa bayramı zamanı şagirdlərinin ayaqlarını yuyurdu, buna görə də bu ayaq yuma Pasxa adətinə çevrilib. 2016-cı ilə qədər simvolik jesti yalnız kişilər edə bilərdi.
- Körpələri vəftiz etmək- Bir digər ənənə isə Pasxa bazarı günü körpələrin vəftiz edilməsidir.
- Şokoladlı yumurtalar vermək- Bəzi şeylər (məsələn, şokolad) heç vaxt köhnəlmir. Ən məşhur Pasxa konfetlərindən biri olan şokolad yumurtalarının tarixi 1800-cü illərə qədər gedib çıxır.

- İsti xaç çörəkləri hazırlamaq-Dini öyüd-nəsihət kimi xaçlarla bəzədilmiş ənənəvi Pasxa yeməyi onilliklər ərzində Pasxa Cümə və ya Bazar günü hazırlanır və istifadə olunur.
- Pasxa oyunları oynamaq-"Yumurta döymə" və ya "yumurta vurma" kimi də tanınan ənənəvi Pasxa oyunu, rəqibin yumurtasını qırmaq, lakin öz yumurtasını toxunulmaz saxlamaq üçün digər oyunçulara qarşı bərk qaynadılmış yumurtanı vurmaq ənənəsini əhatə edir.
- Pasxa kartları göndərmək- Təbrik kartları yalnız Milad və Sevgililər Günü üçün deyil. İnsanlar kartlar vasitəsilə də şirin Pasxa mesajları və xeyir-dua göndərirdilər.
- Pasxa paradında iştirak etmək- Bəzi şəhərlər və qəsəbələrdə Pasxa paradı keçirilir və bütün əhali bu parada qoşulur.
- Pasxa ağacı bəzəmək- İnsanlar yeni ildə olduğu kimi Pasxa bayamında da ağacları bəzəyir.
- Məzarlığa getmək- İsanın Pasxa bazar günü dirildiyi deyilir, buna görə də çoxları xüsusi bayramda qəbiristanlıqları ziyarət etmək üçün vaxt ayırır.
- Bunlardan əlavə Xristian ailələr Pasxa bayramında bir araya gələrək ənənəvi quzu pirzolası, baharatlı yumurta və yerkökü kimi ənənəvi yeməklərdən bişirib yeyirlər.

İsa peyğəmbərin anası Məryəm həm xristian, həm də islam dininə görə müqəddəs hesab edilir. O, xristian və müsəlman mənbələrində bakirə Məryəm, bəzi xristian mənbələrində isə  Məryəm ana kimi tanınır. Hər il dekabrın 8-i katoliklər tərəfindən Məryəm ana günü kimi qeyd edilir və həmin gün müqəddəs gün hesab olunur. Dini inanclara görə Adəm və Həvva qadağan olunmuş meyvəni yeyərək “ilk günahı” törətmiş və bu səbəbdən də bütün insanlar günahla birlikdə doğulur və yalnız öz xeyirxah əməlləri ilə bu günahdan təmizlənə bilərlər. Bütün insanlardan fərqli olaraq, İsanın anası Məryəm günahsız doğulmuşdu və buna görə də onun günahdan azad olunmasına ehtiyac duyulmurdu.

Bu bayram Məryəmin günahsız hamiləliyi, onun bakirə olaraq İsaya hamilə qalması və onu bakirə olaraq dünyaya gətirməsi ilə əlaqəli deyil. Günahsız Hamiləlik - Məryəmin günahdan təmizlənmiş şəkildə anası müqəddəs Annanın bətninə düşdüyünü və günahsız olaraq dünyaya gəldiyini ifadə edir. Papa IX Piy 1854-cü il dekabrın 8-də papalıq fətvası ilə bu günü rəsmi olaraq bayram elan edilmişdir. Bütün xristian ölkələrində olduğu kimi, Argentinada da bu bayram təntənəli şəkildə qeyd olunur. Bu bayram Argentinada "bakirələr günü" də adlanır.

***Üzən Milad Ağacı.*** Braziliyada Milad cənub yarımkürəsində yay olduğu üçün olduqca isti olur. Ancaq bu, Milad ağacının, çələnglərin yerləşdirilməsi, evlərin, küçələrin və prospektlərin bəzədilməsi və ya hədiyyələrin mübadiləsi kimi beynəlxalq Milad adətlərinə də əməl edən Braziliyalıları narahat etmir. Braziliyanın dərin Katolik ənənəsi bu dövrdə kilsələrdə və evlərdə sərgilənən İsa peyğəmbərin anadan olmasını təmsil etmək üçün yemişlərin yerləşdirilməsi və qonaqların yerləşdirilməsi ilə qeyd olunur. Hündürlüyü 85 metr olan Rio-de-Janeyronun üzən Milad ağacının olması artıq bir ənənədir. Gramado şəhərində təşkil edilən Milad İşıqları festivalını unutmadan bu dəfə rəqs, musiqi və əyləncə məclisini gözəl bir hala gətirir

**Çilidə Ölülər Günü**

LatınAmerikasında əsasən Meksika, Honduras və Salvadorda qeyd olunan, məqsədi ölüləri anmaq olan məşhur bayramdır. Region ölkələrində Çili və Boliviyada da ölülər günü qeyd olunur. Adətə görə bu bayramın keçirildiyi günlərində ölü kostyumlarında rəngarəng karnaval təşkil olunur. Müasir dövrdə hər il noyabrın 1 və 2-də qeyd olunur. Bu bayramın tarixi ispanlara qədərki tarixi əhatə edir. Belə ki, onun başlanğıcının asteklərə aid olduğu məlumdur. Qədim asteklərin dövründə bayramda baş fiqur "Miktlantekuli" adlı "Cənab Ölü" hesab olunurdu. Həmin dövrlərdə adətən iyul-avqust aylarında keçirilərdi.

Ölülər Günü Hollowendən fərqli olaraq qorxutma məqsədli deyil. Burada olan skeletlər ölənlərə işarədir. İnanclara görə gerçək ölüm unudulduğunda

olur, festivalın məqsədi də məhz ölənlərin unudulmamasını təmin etməkdir. Bu məqsəd istiqamətində vəfat etmiş insanları xatırlamaq üçün şəkərdən kəllə və bəzək-düzəklər, ölənlərin sevdiyi qoxuların, süsləmələrin olduğu qurbangahlar hazırlanır. Bu ənənə 2008-ci ildə YUNESKO tərəfindən Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir. Meksikada Ölülər Günü həm ənənəyə, həm də şənliyə çevrilib. Ənənəvi olaraq Ölülər Günü hər ilin oktyabr ayının son günü və noyabr ayının ilk 2 günündə qeyd edilir. Qədim dövrlərdə adətən iyul-avqust aylarında keçirilsə də, Meksikanın işğalından sonra ispan keşişləri bayramın noyabr ayına keçirilməsinə qərar verib. Adətə görə, noyabrın 1-i meksikalılar ölən uşaqları, noyabrın 2-si isə ölən böyükləri və yaşlıları yad edirlər. Bayramın adına baxmayaraq, burada həmin günlərdə heç bir bədnam hadisə baş vermir. Ölkə sakinləri ölü kimi geyinərək bəzənir; minlərlə insan özünü ölüyə bənzədərək nağıllarda olan ölü qəhrəmanların kostyumlarını geyərək şəhərin küçələrinə çıxırlar. Hətta yaxınlarını yad etmək üçün qəbirstanlığa gedən meksikalılar bu mərasimi yasdan şənliyə çevirirlər. Hesab edilir ki, həmin günlərdə hər kəs ölüsünə mümkün qədər çox sevinc bəxş etməlidir, elə buna görə də qəbirlərə məxmər gülünün ləçəkləri qoyulur.

Uruqvayda Milad və Müqəddəs Həftə kimi xristian qeyd etmələri ilə də bir az qarışıqdır. **Karnaval noyabr ayında başlayır.** Əsas şənliklərdən və paradlardan təxminən dörd ay əvvəl Uruqvay Karnavalı səssiz qış yuxusundan sonra səslərini eşitdirməyə başlayır. Bəziləri məşhur musiqiçilərin iştirak etdiyi bir həftəlik eynək və tamaşalarla başlayır. Bir həftə davam edən bu verilişləri daha da unikal edən, dünyanın və içindəki hamımızın yolunu parodiya edən klassik satiriklər və komediya səhnə şoularıdır. Klassik şou və eynəklərdən əlavə, Karnavalın bir sıra qəribə ənənələri var. Bu bayram zamanı insanlar su, yemək, kağız parçaları atırlar (adlanır *papelitos*) və hətta bir-birinə ətir. Hər kəs, xüsusən də kiçik uşaqlar iştirak edir. Küləkdə dalğalanan hər rəngli üzənlər, balonlar, maskalar və flamalar var.

Bir çox əsrlər boyu Boliviya öz ənənəvi karnavalıları ilə məşhurdur, lakin Oruro şəhərində karnavalın ən məşhurları hələ də yoxdur. Bu şəhər ölkənin folklor paytaxtı

adlanır və karnaval UNESCO tərəfindən bəşəriyyətin şifahi və mənəvi irsinin əsl şah əsəri elan edildi. Oruro şəhərində təşkil edilən bayram zamanı 30.000 rəqqasın və Incas, Şeytanlar, mələklər və heyvanlar kimi 10,000-dən çox musiqiçinin performansını izləyə bilərik.



Qorxu filminə bənzər ənənə hər il 9 noyabrda Boliviyada keçiriləcək insan kəllələrinin paradına aiddir. La Paz qəbiristanlığı qəddar rituallar və qəribə mərasimlər arenasına çevrilir. "**Kafatası Günü",** Bolivilərin əksəriyyəti ölən atalarının xatırlandığında, "**Ölülər Günü" ilə oxşardır**. Onlar kaplumbağalara qayğı göstərirlər ki, onlar ailənin qorunmasını təmin edir, pisliyə düçar olurlar və yaxşı məhsulu təbliğ edirlər.



**Çiçək və meyvə şənliyi.** Ekvadorda bəzi paradların təşkil edildiyi və çiçəklər və meyvə səbətlərinin verildiyi meyvə və çiçəklər festivalı kimi tanınan bir bayram var. Bu, Katolik dini ilə əlaqəli bir tətil halına gətirərək, Bu bayram Ambato şəhərinə xasdır, baxmayaraq ki, başqa yerlərdə də görülə bilər.

**Günəş festivalı.** Bu, Ekvadorlular üçün ən vacib bayramlardan biridir, çünki bu ənənənin mənşəyi müstəmləkə dövrünə təsadüf edir. İyun və İyul aylarında yay gündönümünü xatırlayaraq qeyd olunur. Bu dövrdə yerli qruplar üçün ən vacib tanrılardan biri hesab olunan günəş ulduzuna xərac verilir. Bu ziyafət ümumiyyətlə İmbaburada olur; Ancaq bu tip hadisələr Otavaloda da baş verir. Bu aylarda həyata keçirilən ənənələrdən və ya hadisələrdən biri, Ekvador üçün böyük əhəmiyyətə sahib bəzi tarixi elementləri təmsil etmək üçün meydanı ələ keçirən yerli bir qrupdan ibarətdir, məsələn, bu dövrdə İspan boyunduruğuna qarşı üsyan. fəthlər.

**Yamor Festivalı.** Bu bayram yerli icmalara xasdır və sentyabr ayının ilk günlərində baş verir. Yamor Yer Anasını qeyd etməyi və təbii qaynaqları, xüsusən də qarğıdalı varlığı üçün ona təşəkkür etməyi hədəfləyir. Bu səbəbdən bu gün qarğıdalı və bəzi türevlərindən istifadə edərək bir sıra yeməklər hazırlanır. Yalnız Yamor festivalında deyil, qarğıdalı üçün təşəkkür edilir, çünki bu, əsasən Tarqui-də keçirilən **Qarğıdalı Məhsul Festivalı** adlanan başqa bir festivalda da baş verir. Bu ənənənin qeyd

etmələri daha çox yerli və buna görə də nəzərəçarpacaq bir turist mənzilinə sahib deyildir.

**2 Noyabr, ölənlərin günü.** Bu festival dünya miqyasında yaxşı tanınır və əsasən Meksikaya aiddir. Bununla birlikdə, Ekvadorda bu bayram da tətbiq olunur. Bu zaman Ekvadorlular mərhumlara, xüsusən də eyni ailədən olanlara hörmət edirlər. Bunun üçün ailələr hər bölgəyə xas yeməklər hazırlayır və ölənlərə rəngli çiçəklər gətirirlər.

**Qara Mama Party.** Bu qeyd əsasən Ekvador dağlıqlarında baş verir və kökü Latacunga şəhərinin Cotopaxi vulkanının viran olduğu 18-ci əsrdə baş verir. Bu hadisədən sonra sakinlər gələcək püskürmələrə qarşı qorunma istəmək üçün Santísima Faciəsinə (Virgen de las Mercedes də deyilir) xərac verməyə qərar verdilər. Bu şənlikdə əhali sənətkarlıq edir və bir sıra şeir və rəqslər oynayır. Ümumiyyətlə, kişilər qara qadın kimi geyinir, Mama Negra kimi görünmək üçün ağızlarını qırmızı və bədənlərini qara rəngə boyayırlar.

**İti Raymi gündüz şənliyi.** Bu qeyd etmələr Ekvadorun yerli icmaları arasında çox populyardır və məqsədləri yer, günəş, su və külək kimi təbiət elementlərinə ibadət etməkdir. Kolonizasiyadan sonra İspaniyalılar bu şənlikləri San Pedro şənliyi kimi təsnif etməyə qərar verdilər, bu səbəbdən də bu qeyd etmələr bu adla da bilinir.

**Xaçların qeyd olunması.** Bu hadisə dini xarakter daşıyır və Məsihin çarmıxa çəkilməsinin təmsil olunduğu bir fəaliyyətdən ibarətdir. Bununla birlikdə, bu hadisə tamamilə Katolik deyil, çünki yerli mədəniyyət onu insanların çox rəngli paltar geyindikləri və musiqinin sədaları altında gedən rəngarəng bir parada çevirdi. Bu şənlikdə iştirak edənlər adətən kütlə zamanı xeyir-dua almaq üçün pankart və xaç daşıyan kilsələrə üz tuturlar.

**Şam günü.** Kolumbiya özünü dünyəvi bir dövlət kimi tərif edir, amma praktik olaraq şənlikləri tam katolik dini inancın ətrafında cərəyan edən bir ölkədir. **Şamlar günü, bütün ölkənin 7 - 8 dekabr tarixləri arasında Şəfəq Konsepsiyasının**

**şərəfinə şamlar və fənərlər yandırılması.** Kolumbiyalıların əksəriyyəti katolikdir. “**Şamlar Günü**”, əhalinin böyük bir hissəsi bu bayram ərəfəsində bayramın şərəfinə ərazini işıqlandırmaq üçün şamlar yandıraraq qeyd edir. Eynilə, "Las Novenas" da hər il Milad bayramından 9 gün əvvəl ailə üzvlərinin yemək, içmək, yetişdirmək və yaxşı vaxt keçirmək üçün toplaşmasından ibarətdir. Kolumbiyanın ənənələrindən biridir.

Rəqs edən şeytanlar



Hər il şərin üstündəki dini və sehrli inancların təsdiq olunduğu Corpus Christi-nin qeyd olunmasında ölkənin müxtəlif bölgələrində rəqs edən şeytanların rol aldığı ritual bir rəqs keçirilir. Şeytanlar Lucifer'i təmsil edirlər rəngarəng geyim və müqəddəsliyə təslim olma niyyətini təmsil edən bir maska taxmaq lazımdır. Şeytanlar kollektivlərdə və ya cəmiyyətlərdə qruplaşdırılır, xaçlar, təsbehlər və ya hər hansı bir dini amulet daşıyırlar və bayram zamanı kütləyə daxil olmaqla dua edirlər. Qırmızı şalvar, köynək və pelerin geyinirlər, paltarlarına asılmış zəng və çınqıltılar taxırlar**.** Maskalar cəsarətli rənglərlə və şiddətli görünüşlərlə dizayn edilmişdir. Şeytan kostyumu quyruq, inək zəngləri və maraka kimi müxtəlif aksesuarlardan ibarətdir. Ölkə daxilində çox məşhur bir ənənə olaraq yayılmış fərqli rəqs şeytanları tapa bilərik, amma ən əhəmiyyətlisi Yare, Naiguatá və Chuao olanlardır.

**Venesuelanın ənənələrindən biri olan Sardalyanın dəfni**

İspaniyada olduğu kimi, sardalyanın dəfn edilməsi, Karnaval şənliklərinin dövrünü bağlayan məşhur bir təzahürdür. Karnaval festivalı ilə əlaqələndirilir**.** Sardina deyilən donuz qabırğasının dəfn edilməsi  və ət yeməyin qadağan olunduğunu göstərən Oruc günlərində qeyd edilir. Sardalyanın dəfninin qeyd olunması təmtəraqlı şəkildə sardinanın dəfn ediləcəyi küçələrin təmizlənməsindən məsul olan şəxs tərəfindən aparılır, ritual bir qurbangah oğlanı və bir keşişlə müşayiət olunur. Müxtəlif çiçəklərlə bəzədilmiş bir daşıyıcıda  sardina fiquru daşınır**.**

**Saint John şənliyi**

24 iyunda İspaniyada olduğu kimi burdada **müqəddəsin anadan olması kimi** qeyd olunur. Bu bayram, qeyd olunduğu əyalətlərdə çox sayda inanan və fədai bir araya gəlir. 24 iyunda səhər çox erkən saatlarda evlərdən ailədə ən dindarın müşayiəti ilə kilsəyə getməyə hazırlaşırlar və keçərkən Müqəddəs möminlərin təşəkkürünü, alqışlarını alırlar və beləliklə şənlik bütün qəsəbədən keçən kütlə tərəfindən təbillərlə müşayiət olunur.

Məsihə həsr olunmuş ənənə

Müqəddəs Həftənin gəlməsi ilə İspaniyada olduğu kimi, kilsələrə də Tanrı oğlunun bütün insanlar üçün etdiyini xatırlamaq üçün qurban və hərəkət etmək üçün kilsələrə gedir. Ancaq Venesuelada  Məsihin yer üzündə son günlərini təşkil edən ictimai nümayəndəlik də var**.** Bu nümayəndəliklərdə İsa Məsihdən bəhs edən 15 səhnədən ibarət olan Məsihin həyatı və ölümünün səhnələşməsini görə bilərik. **Y**alnız Məsihin ölümü təsvir olunmur, eyni zamanda Məsihin Qüdsə giriş səhnələri, çörəklərin çoxaldılması, Müqəddəs Şam yeməyi, zeytun bağı, Dirilmə, çarmıxa çəkilmə hadisələri də təsvir olunur.

**Yəhudanın yandırılması.** Yəhudanın yandırılması, ən çox Venesuelada yayılan ənənələrdən biridir. Bu yandırılmanın səbəbi, Yəhudanın Məsihə xəyanətini

xatırlamaq, bu xarakterin xalqına xəyanət etməsini xatırlamaqdır. Yandırılan Yəhuda kuklası parça, köhnə qırmızı və cır-cındırdan hazırlanır, atəşfəşanlıqla asılıb yandırılır.

Venesuelanın ən məşhur bayramı **Tövbə günü** münasibətilə keçirilən karnavaldır. Bütün ölkədə təmtəraqlı tədbirlər keçirilir. Hər region bayramı özünəməxsus qeyd edir. Bir yerdə körpə İsanın yatdığı yalançı beşiyi oğurlayırlar ki, sonra onun qaytarılmasını qeyd etsinlər, birində təntənəli yürüşlər və maskaradlar keçirirlər, başqa bir yerdə çoxlu musiqili tamaşalar təşkil edirlər. Venesuelada katoliklər çox olduğundan milli bayramların əksəriyyəti xristianların qeyd etdikləri bayramlarla eynidir. Dini bayramlar ərəfəsində İsanın iztirablarını əks etdirən tamaşalar göstərilir, xaç yürüşləri təşkil edilir, "şeytanın rəqsi" adlı tədbir keçirilir. Milad günü ərəfəsində **("La-noçe-buena")** geridə qalan ilin problemlərini təmsil edən iri kuklalar düzəldilir. Yeni il gecəsi yeni başlanğıcın başlanması kimi həmin kuklaları yandırırlar.

***Semana Santa, Peru.*** 'Müqəddəs Həftə' olaraq bilinən bu festival xüsusi qeyd olunur. Kökü İspan koloniyalarından gələn adət ənənələrə bağlıdı. Festival, Pasxanın qeyd etmələrinə qədər olan son həftə keçirilir. Perunun bir çox yerlərində festival həftəsində milli yeməklər və içkilər təqdim olunur. İnsanlar küçələrdə xüsusi kostyumlar geyinərək tamaşalar təşkil edir və rəqslər edirlər. Perunun mərkəzi meydanında və kilsədə insanlar əllərində yanan şamlarla toplaşır və atəşfəşanlıq edir. Müqəddəs həftə Peruda iş həftəsi deyil.

## Müasir dövrdə Argentinada Cənubi Amerikada konfessiyalararası dialoq

Dinlərarası dialoq həm fərdi, həm də institusional səviyyədə müxtəlif dini adət-ənənələrə və mənəvi və ya humanist inanclara malik insanlar arasında əməkdaşlıq, konstruktiv və müsbət qarşılıqlı əlaqəni nəzərdə tutur. Bu, sinkretizm və ya alternativ dindən fərqlidir, bu dialoqda tez-tez yeni inancları sintez etmək əvəzinə, başqalarının dini inanclarının tolerantlığını artırmaq üçün müxtəlif dinlər və ya inanclar arasında anlaşmanın təşviq edilməsi daxildir.

Çikaqonun Ekumenik və Dinlərarası Məsələlər üzrə Baş Yepiskopluğu ekumenik, dinlərarası və dinlərarası münasibətlər arasındakı fərqi aşağıdakı kimi müəyyən edir: "Ekumenik" kimi digər kilsə ənənələrinə mənsub xristianlar arasında əlaqə, "inanclararası" kimi İbrahim inanclarının (yəhudi, müsəlman və xristian ənənələri) üzvləri ilə əlaqələr" və"dinlərarası" kimi isə hinduizm və buddizm kimi digər dinlərlə əlaqələr. Buradan çıxış edərək qeyd etmək olar ki, bu qruplaşdırmağa görə Cənubi Amerikada katoliklik, sonraki sıralarda isə protestantlıq, provaslavlıq, yəhudilik və islam yayıldığına görə ekumenik (katolik və protestant, katolik və provaslav və s.) və inanclararası əlaqələr (katolik və müsəlman, katolik və yəhudi və s.) üstünlük təşkil edir. Bununla belə, dinlərarası münasibətlərin tərifi müxtəlif mənbələrə görə dəyişir və ümumilikdə dinlərarası münasibət və ya dialoq kimi götürmək olar.

Bəşəriyyəti narahat edən qlobal problemlərin qarşısının alınması üçün dinlərarası dialoqun genişləndirilməsi böyük rol oynayır. Qloballaşma prosesi ictimai həyatın bütün sahələri ilə birlikdə dinlərarası dialoqa da əhəmiyyətli təsir edir. Dinlərarası dialoqun əsas prinsipi ondan ibarətdir ki, zorakılıq və münaqişələr qismən məlumatsızlıq və digəri ilə konstruktiv qarşılıqlı əlaqənin olmaması səbəbindən yaranır. Buna görə də, dinlərarası dialoq digərinin dinini başa düşmək sülh və barışığı təşviq etmək üçün əsas strategiyadır.

2022-ci ilin 7 fevral tarixində Argentinada xidmət edən pravoslav iyerarxları Buenos Ayres və Bütün Argentina metropoliti Yakob (Antakya Patriarxlığı), Argentina və Cənubi Amerika yepiskopu Leonid (Moskva Patriarxlığı) ilə görüşdü.

Argentinanın Dinlərarası Dialoq İnstitutu, missiyası inanclı insanların anlaşmasını, dinc şəkildə yanaşı yaşayışı və mədəniyyətlərin qarşılaşmasını təşviq etmək olan bir qurumdur. Bununla da, Müqəddəs Ata Fransisə öz yaxınlığını və dəstəyini bildirir. Bu qurum üç böyük monoteist dini birləşdirir, lakin digər dinlərdən olan bütün yaxşı niyyətli insanlar üçün açıqdır. Papa Fransiskin təlimlərindən və davranışlarından ilhamlanaraq, bütün sahələrdə qarşılaşma mədəniyyətini təbliğ etməyə çalışır. Dinlərarası Dialoq İnstitutunda iştirak edənlər qəti şəkildə düşünürlər ki, başqaları - bizimlə eyni fikirdə olmayanlar, başqa inanclara və ya ideologiyalara malik olanlar bizi tamamlayır və zənginləşdirir. Dialoq, konsensus və böyük ortaq məxrəclərin daimi axtarışı sülh və ədalətə nail olmağın əsas yollarıdır. 2019-cu ildə Roma Papası Fransisk Argentinanın Dinlərarası Dialoq İnstitutu tərəfindən təşviq edilən görüşün mövzusu Papa Fransiskin Əl-Əzhərin Böyük İmamı ilə birlikdə 4 fevral 2019-cu ildə Əbu-Dabiyə səfəri zamanı imzaladığı **İnsan Qardaşlığı sənədidir**. Sənəd bütün insanları dinlərarası harmoniya istiqamətində işləməyə və “qarşılıqlı hörmət mədəniyyətini” və sülhü inkişaf etdirməyə çağırır.

Papa seçildikdən qısa müddət sonra o, “körpülər qurmaq” və “bütün insanlar arasında həqiqi dostluq əlaqələri” yaratmaq yolu kimi dinləri daha çox dinlərarası dialoqa çağırıb. O, əlavə etdi ki, "inanmayanlarla əlaqəni gücləndirmək çox vacibdir ki, bizi ayıran və incidən fikir ayrılıqları heç vaxt qalib gəlməsin". O bildirib ki, “pontiff (Papa)” titulu “körpü qurucusu” mənasını verir və onun arzusudur ki, “aramızda olan dialoq bütün insanları birləşdirən körpülərin qurulmasına elə bir şəkildə kömək etsin ki, hamı bir-birini düşmən, rəqib deyil, qarşılanmalı və qucaqlanacaq bir qardaş və ya bacı kimi görsün". Həmçinin, Argentinanın ən görkəmli müsəlman liderlərindən biri olan Ömər Abboud demişdir: “Müqəddəs bir müsəlman, sadiq bir müsəlman kimi mən Berqoglio kimi bir xristianı müasir

dünyanın mənəvi lideri kimi görürəm”...Hər birimizin şəxsən inandıqlarından əlavə, o, İbrahimi dinlərinin mərkəzi dəyərlərini təmsil edir"

Bundan əlavə, Argentinada müxtəlif dini ənənələr arasında azadlığı və dialoqu təşviq edən çoxlu sayda institutlar var. Bunlara misal olaraq **Argentina Dini Azadlıq Şurası (CALIR), Ali Dini Araşdırmalar İnstitutu (ISER), Birləşmiş Dinlər Təşəbbüsü (URI)** və **Argentina Yəhudi-Xristian Qardaşlığını** göstərmək olar. Həmçinin hökumət səviyyəsində, müxtəlif əyalət və bələdiyyə hökumətləri dinin əhəmiyyətini dərk edərək, onların missiyası əksər hallarda münasibətlər institutlarını və yerləşdikləri ərazinin müxtəlif dini icmaları ilə dinlərarası dialoqu saxlamaq və inkişaf etdirmək olan ibadətlərə həsr olunmuş sahələrə malikdirlər. Eləcə də, Argentina 2021-ci ildə “Sülhə aparan yol” adlı IV Ümumdünya Mədəniyyətlərarası və Dinlərarası Dialoq Konqresinə ev sahibliyi etdi və bu “Argentina 2023-2053-cü illərdə transformasiyanı düşünərək” şüarı altında baş tutdu. İclas Buenos-Ayresdə 3-4 noyabr tarixlərində ölkədə mövcud olan müxtəlif konfessiyaların ali dini orqanlarının çıxışı və ölkənin və dünyanın akademik, diplomatik, siyasi, ictimai xadimlərin iştirakı ilə baş tutdu [telam]. Görüş iştirakçıları arasında Cənubi Amerikanın 5 keçmiş prezidentləri Eduardo Duhalde (Argentina), Luis Lacalle (Uruqvay), Rikardo Laqos (Çili), Fernando Kardoso (Braziliya) və Federiko Franko (Paraqvay), həmçinin Buenos-Ayresin nazirləri Fernan Quiros və Soledad Acuna da iştirak etdilər [telam]. Müzakirə olunan əsas mövzulardan bəziləri isə bunlardır: qaçqınlar və miqrantlar; təhsil, humanitar yardım, dini azadlıq, narkomaniyanın qarşısının alınması və psixi sağlamlıq, qadınlar və din, Latın Amerikasında demokratiya, köməkli intihar(başqasının köməyi ilə intihar), evtanaziya və s.

11 sentyabr, 2001-ci il hadisələrindən sonra dünyanın bir sıra aparıcı KİV-ləri, xüsusilə də ABŞ-da fəaliyyət göstərən media islam, müsəlmanlar və ərəb əhalisinə qarşı mənfi fikir formalaşdırmağa başladılar. Bu fikirlər ABŞ, Avropa və Latın Amerikasında da insanlar arasında müəyyən fikirlərin formalaşmasına səbəb olmağa başladı. Jurnalistlər həmçinin bu regionlarda islama qarşı olan bu münasibətlərdən ərəblərin əziyyət çəkdiyini bildirirdi. Protestant keşişinin oğlu olan

Franklin Qraham islamı hətta “şeytan və pis niyyətli din” adlandırmışdı. Dünyada gedən bu tendensiya Latın Amerikasından da yan keçmədi. 11 sentyabr hadisələrindən öncə Argentinada iki böyük terror aktı olmuşdur. 1992-ci il İsrail səfirliyi qarşısında olan və 29 nəfərin həlak olması ilə nəticələnən partlayış və 1994-cü ildə 100 nəfərin ölməsinə səbəb olan yəhudi icmasının baş katibliyinə qarşı edilmiş terror aktı. Məsuliyyəti heç bir təşkilat öz üzərinə götürmür, lakin iddia edilir ki, bunu İran dəstəyi ilə fəaliyyət göstərən Hizbullah təşkilatı edib. Yuxarıda sadalanan faktlara baxmayaraq, Argentinada müsəlman, yəhudi və katoliklər dinlərarası dialoqda və qarşılıqlı anlaşmalarında eyni maraqlara sahib idilər. Sülh və dialoq naminə bir sıra görüşlər keçirilmiş, razılaşmalar imzalanmışdır. Bu görüşlərdə həm sünni, həm şiələr, yəhudi və xristianlar birgə təmsil olunurdular. Argentina müsəlmanları dünyada onlara qarşı baş qaldırmış bu cür mənfi mövqeyə qarşı sülhməramli alternativlər nümayiş ediblər.

Müsəlmanlarla yəhudilər arasında qarşılıqlı əlaqə Argentinada daima mövcud olmuşdur. Belə ki, onilliklər ərzində onların iqtisadi, hətta biznes əlaqələri olmuşdur. Braziliya və Çili üçün bu münasibətlər eynidir. Lakin Meksikada bu tam fərqlidir. Burdan belə bir nəticə çıxartmaq olar ki, ərəb ölkələrindən gələn müsəlmanlar, Suriya, Livan və Avropadan gəlmiş yəhudilər Argentinada eyni çətinliklərlə qarşılaşmış və bunların öhdəsindən gəlmək üçün əməkdaşlıq etmişdirlər və bu ənənə Argentinada əsrlər ərzində mövcud olmuşdur. Mərkəzi Amerikada isə bu məsələ belə deyil. 19-cu əsrin sonunda fələstinlilər ora ilk öncə gəlirlər və onlar xristian dininə etiqad edirdilər. Yəhudilər isə bu qitəyə 1930-cu ildən sonra gəlirlər. Yəhudilər Fələstin ərazisində Yəhudi dövlətinin qurulması ilə əlaqədar olan Zionist oyanışı barədə razılığa gəlmişlər, fələstinlilər isə hər zaman Fələstinə öz dövlətləri olduqlarında qayıtmaq istədiklərini bəyan etdilər. Məhz bu səbəbdən bu iki icma arasında vəziyyət hər zaman gərgin olmuşdur.

Argentinadakı müsəlmanlar isə sosial strukturun ayrılmaz hissəsini təşkil etmişlər, məhz bu səbəbdən burada rasizm və ya hər hansı ayrı-seçkilik mövcud olmamışdır. Hər halda, bir az da olsa Argentina KİV-lərində islama qarşı hansısa səviyyədə tənqidin səsləndiyinin şahidi oluruq. Bunun səbəbi ya məlumatsızlıq, ya

da laqeydlik idi. Belə deyilirdi ki, Argentinada heç bir müsəlman icması yoxdur, amma əslində isə: sünni, şiə, ələvi və druzlər (Qulat islam birliyinin nümayəndələri ərəb dillidirlər və Qərbi Asiyada yaşayırlar). İlk iki dini icma (sünni və şiələr) heç də əsl müsəlman olmadıqlarına görə tənqid olunmurdular. Ölkədə müsəlmanların statistik sayı tam məlum deyil, lakin onların böyük hissəsinin ərəb etnik qrupuna məxsus olduqları üçün ərəb əsilli olduqları məlumdur. Ərəb miqrantlar Argentinaya 19-cu əsrin ikinci yarısından başlayaraq, Suriyadan gəlməyə başlamışlar. 1850-1860-ci illərdə miqrantların birinci dalğası 1870-1914-cü ildə isə ikinci dalğası ölkəyə gəlmişdir. Üçüncü dalğa isə 1919-1926-cı illəri əhatə edir. Miqrantlar ölkənin bütün ərazisinə yayıldılar, lakin əsasən paytaxt və eyni adı daşıyan əyalətdə məskunkaşmışdırlar. Müsəlmanların Argentinadakı sayına dair məlumatlar dəqiq deyil, bəzi mənbə bunu 900000 bəzisi isə 450000 olduğunu bildirir. Bunlar çox mühüm məlumatlardır, ən azından illər ərzində yəhudi və müsəlmanlar, daha sonra isə xristian və müsəlmanlar arasında münasibətlər illər ərzində yüksələn xətlə inkişaf etmişdir. Bu hal Braziliya və Çili üçün də eynidir. Argentinada dinlərarası sülhə nail olmaq üçün 2002-ci ildə yəhudi və ərəblər Ərəb Federasiyası adlı siyasi təşkilatda bir araya gəlmişlər. Qeyd etmək lazımdır ki, bu təşkilat dini deyil, siyasi önəmə malik idi. Argentinanın o zamanki prezidenti Eduardo Duhalde bu yığıncaqda iştirak etməklə bu sənədə rəsmi şəkil vermişdir. Argentinanın yəhudi icması və Bütöv Ərəb Federasiyası Argentinadan İsrail-Fələstin münaqişəsinin həll olunması üçün yaxından iştirak etməsini təklif etmişlər. Onlar birgə bəyan etmişdirlər ki, onların hər ikisi sülhün təmin olunmasında maraqlıdırlar və münaqişənin həllindən müharibə variantını inkar edirlər.

Mötədillik, tolerantlıq və qəbulla bağlı müqəddəs Qurani Kərimdə çox təsirli və gözəl ifadələr mövcuddur. Məhz bu ifadələr bir çox müsəlmanlara dinlərarası dialoq, mötədillik və tolerantlıq fikrini yaymağa imkan vermişdir. Bu gün bir çox ölkələrdə, eləcə də müsəlman ölkələrində belə konfessiyalararası dialoqlar mövcuddur. Hindistan, Nigeriya və İndoneziya kimi müsəlmanların sayı çox olan ölkələrdə belə bu ziddiyyət mövcuddur. Çin, Vyetnam, Şimali Koreya, Gürcüstan, Şri Lanka, Nepal və Butan kimi ölkələrdə müsəlmanlar təqibə məruz qalır. Bu

səbəblə, BMT Baş Assambleyası 1981-ci ilin noyabr ayının 25-də dini baxımdan bütün diskriminasiyaları və dözümsüzlüyü rədd edirdi. Dini təqib tendensiyası, regionda yalnız bir dinin hakimliyi, dominant dinin əsas tutulması, dini ekstremizm və s. bağlı məsələlər dini tolerantlığın reallaşmamasına səbəb olur.

Bu gün Argentinada dinə əsaslanan nə təqib, nə də dini dözümsüzlük yoxdur. Argentinada həm ərəb xristianlar, müsəlman ərəblər və yəhudi icması aqresiyaya qarşı deklorasiya imzalamışdır. Argentinada dinlərarası dialoq Katolik kilsəsinin təşəbbüsü ilə başlamışdır. Onlar həmçinin dövlətlə əlaqə qurmuş və hakim dairələrə öz dini inancları haqqında məlumat vermişlər. Dövlətin müsbət reaksiyası dinlərarası dialoqun genişlənməsinə səbəb olmuşdur.

1998-ci ildə yaranmış və mərkəzi Buenos Ayresdə yerləşən Latın Amerikasında İslam Müəsisəsi təşkilatı Latın Amerikasında mövcud olan bütün islam müəssisələrinin çətiri funksiyasını daşıyır. Konfranslar və görüşlər təşkil edən təşkilatın əsas məqsədi dünyanın bu hissəsinə islam mədəniyyətini yaymaqdan ibarətdir. Qvatemala, Peru, Argentinada konfranslar təşkil olunurdu. Təşkilatın digər işi ispan dilində kitabların, audio ve video disklərin hazırlanıb islam həqiqətlərinin yayılması idi. Fəaliyyətinin nəticəsi kimi təşkilat 2003-cü ildə Argentina xarici işlər nazirliyi tərəfindən Con Paul II papanın hakimiyyətinin 25-ci il dönümünə dəvət edilmişdi. Bu, Argentinada dinlərarası dialoqun hansı səviyyədə olduğunun göstəricisi idi. Bundan əlavə, təşkilat Braziliya, Ekvador, Honduras, həmçinin beynəlxalq səviyyədə (Səudiyyə Ərəbistanı ) və s. kimi ölkələrdə fəaliyyət göstərmişdir. Bu və ya digər faktları əsas gətirərək söyləmək olar ki, Argentinada müsəlman və yəhudilərə qarşı heç bir diskriminasiya yoxdur. Bu din qruplarının mənsubları Argentinada din və birlik içində yaşamışlar. Katolik, yəhudi və müsəlmanlar bir-birilərini daha yaxşı anlamaq və dünyada sülhə nail olmaq üçün dini dialoqda maraqlı olduqlarını bildirmişlər. Əsrlər ərzində bu üç din qrupu dialoqun keçirilməsində maraqlı olmuşlar və bu da Latın Amerikasını fərqli bir regiona çevirmişdir.

Müsəlmanların Latın Amerikasında iki böyük mədəni idarəsi vardır: Argentina İslam Mərkəzi və Latın Amerikası İslam Birliyi təşkilatı. Bu təşkilatlar

həmçinin dinlərarsı dialoq və sülh prosesinə də cəlb edilmişdir. Dinlərarsı dialoqu formalaşdırmaq üçün Argentinada hər üç dinin nümayəndələri sülh və anlayış üçün daimi komissiya yaradıblar. Xristianlarla müsəlmanlar arasında olan dialoqun sübutu kimi Papa Fransizin Misirə səfəri və sultan Malik al-Kamillə söhbəti dinlərarası dialoq üçün yeni bir mərhələ olmuşdur. Argentina dövləti də dinlərarası dialoqun həyata keçirilməsində başlıca rol oynayır. Yuxarıda da qeyd edildiyi kimi, 1992-94-cü illərdə Argentinada baş verən terror hadisələri və 11 sentyabr hadisələri Argentinada müsəlmanlara olan münasibəti dəyişdi. Bütün dünyada olduğu kimi, Argentinada da islam, müsəlmanlar və ərəblər tənqid olunmağa başladılar. Məhz bu səbəbdən Argentinada olan müsəlmanların islamın sülh, anlayış və tolerantlıq dini olmasını daha aydın ifadə etmək üçün səy göstərdilər. İslam təşkilatları jurnal, radio, TV, qəzet, müsahibələr vasitəsilə bu öhdəliyi yerinə yetirirlər. Onlar həmçinin terrorizm, rasizm və ayrı-seçkiliyin bütün formalarını inkar və rədd edir.

***Cənubi Amerikada tolerantlıq.***

Ümumilikdə Latın Amerikasında antisemit ritorikanın və dini ayrıseçkiliyin artmasına cavab olaraq Pan Amerika İnkişaf Fondu (PADF) və ABŞ Dövlət Departamenti 2014-cü ilin yazında "Dözümlülüyə İnan" (Cree en la Tolerancia) layihəsini başlatdı. İndiyə qədər bir çox region ölkələrində yüzlərlə insan dini qruplar haqqında mif və stereotipləri daha yaxşı başa düşmək üçün yerli tədbirlərdə və onlayn seminarlarda iştirak etmişdir. İnternet mediasında antisemitizm ifadələrin istifadəsini sənədləşdirmək üçün ADF Argentina və Venesueladakı vətəndaş cəmiyyəti təşkilatları ilə də tərəfdaşlıq etmişdir. 2013-cü ilin oktyabrından 2014-cü ilin mayına qədər əsas onlayn xəbər mənbələrində 1.537 antisemit istifadəçi şərhini tapdılar. Bu ölkədə tolerantlıq yolunda ciddi maneə hesab olunurdu. Son illərdə dini müxtəlifliyə qarşı dözümsüzlük, ilk növbədə müəyyən bir anonimlik təmin edə bilən graffiti və sosial mediada əksini tapdı. Cənubi Amerikadakı PADF proqramlarının direktoru Luisa Villegas idi. O qeyd edir di ki, xüsusilə beynəlxalq müşahidəçilərin antisemit ritorikası və fəaliyyətlərinin artdığı yerlərdə Argentina və Venesuelada qarşılıqlı tərəfdaşlıq üçün tədbirlər görülməlidi. Villegas qeyd edir ki, "Sosial media

yeni sərhəddir, Dözümsüzlük milli sərhədlərdən kənarda yayıla bilər və bəzi mühitlərdə mövcud gərginliyi artıra bilər."

Cənubi Amerika ölkələrindən olan Kolumbiyadakı insanların 41 faizi antisemitizm düşüncələrinə sahibdirlər. Venesuelada bu nisbət 30 faiz, Argentinada isə 24 faizdir. Ümumilikdə, Amerikada əhalinin 25 faizi Holokost haqqında ümumiyyətlə, eşitməmişdir.

Argentinda sözün əsl mənasında Avropa irsini özündə etiva edən ölkədir. Ölkə əhalisinin 90%-i İspan və italyan kökənlidir və biz Latın Amerikasında Avropa cəmiyyətinin mövcudluğunu görürük. Demoqrafik vəziyyətdə bu cür vəziyyət ölkə daxilində Xristian dininin hökmranlıq etdiyinin təzahürü idi. Argentinalıların 90%-indən çoxu özlərini xristina hesab edilər, onlardan da çoxu Roma Katolik kilsəsində ibadət etdiklərini bildirirlər. Lakin mövzunu araşdırdıqca, ölkədə daha çox dini mühitin olduğunun şahidi olacayıq. Argentina həm də Latın Amerikasında ən böyük yəhudi icmasının evidir. Qitədə ən böyük məscid məhz Argentinadadır, bundan əlavə bu ölkədə fərqli dinlərə sitayiş edildiyini görə bilərsiz. Argentinada Avrosentrik mədəni hökümranlığın mövcudluğu qaçılmaz deyil. Argentinada əhalinin böyük hissəsi ağdərili və Katolikdir. Argentinalılar özləri haqqında məhz bu cür düşünürlər: ağ dəriliyik və Katolikik. Lakin bu cür özünə inam bir sıra siyasi cəhətdən düzgün olmayan ifadələr gətirdi. Misal üçün, qara dərili neqro deyirlər, Asiya əsilli insanlara isə los chinos deyirlər. Əslində bu ifadələrdə heç də təhqir deyil. Lakin bu ifadə istər istəməz etnik ayrı seçkiliyi və quruluşun mövcudluğunu göstərir. Bu cür düşüncə tərzi ölkədə olan dini vəziyyətin də necə olduğunu göstərir. Qeyri-xristian quruplar tolerantlıq nümayiş etdirdikləri halda, onların azlıqda olan vəziyyəti ölkə tarixi ərzində fərqli səviyyədə ayrı-seçiliyə düçar olmuşdur. Yerli xalqların dinlərinə ibadətləri sıxışdırılmış, lakin bəzisinin mövcudluğu davam edirdi. Bunlara ən yaxşı nümunə İnka allahı olan Paçamama- Ana dünyaya- həsr olunmuş bayramın keçirilməsi davam edirdi. Argentinada İuadizmin qəbul olunması da çox mürəkkəb məsələ idi. İspaniyadan asılılıq ləğv edildikdən sonra bir sıra liderlər dini azadlığın qəbul ediliyini bildirdilər, bundan sonra ölkəyə yəhudilərin axını başladı. 1917-ci il Rusiya İnqilabından sonra Buenos

Ayresdə qonşuluqda yerləşən Yəhudilərin evlərinin və özlərinin talan edilməsi və ümumilikdə anti-semitizm dalğası artmağa başladı. Baxmayaraq ki, Peron Argentina tarixində ən hörmət edilən lider olmuşdur, lakin o da Nazi mühacirlərinə dəstək vermək üçün yəhudilərin sürgününü reallaşdırmış Katolik kilsəsi ilə dövlət arasında əlaqələrini gücləndirmişdir. Yəhudilərin diskriminasiyası 1970-ci illərin sonunda doğru olan diktatura rejimi zamanı da davam etmişdir. Hətta 1990-cı illərin əvvəllərndə Argentinada İsrael səfirliyi və Argentina-Yəhudi qarşılıqlı yardım assosisasiyası bombalanmışdır. Son illərdə isə yəhudi qəbirsanlıqları ləkənəmiş və mürdarlanmış və Buenos Ayresdə bir sıra anti-semetimzə həsr olunmuş qrafitlər çəkilmişdir. Müsəlmanlar da Argentinada sıxışdırılmışdır. Baxmayaraq ki, ölkədə müsəlmanların sayı yəhudilərin sayından çoxdur, onların mövcudluğu çox vaxt inkar olunmuşdur. Keçmiş president Karlos Soul Menem əslində müsəlman ailəsində anadan olmuşdur, daha sonra hakimiyyətə gəlmək üçün Katolik olmaq məcburiyyətində olmuşdur. Xoşbəxtlikdən, Argentina irqi və dini toleratlıq sahəsində çox iri addımlar ataraq inkişaf etmişdir. ***1983-cü ildə diktatorluq erasına son qoyulduqdan sonra president Alfonsin insan hüquqlarını ən başlıca prinsip elan etmiş və özünün qurduğu hökumət daxilində bir sıra yəhudiləri vəzifəyə təyin etmişdir. Prezident Menem isə bu islahatları daha da irəli aparmış və prezidentin və vitse prezidentin mütləq şəkildə Roman Katolik olmasına dair konstitutsional düzəlişləri qəbul etmişdir***. Lakin hələ də ölkə daxilində müəyyən mənada da olsa dini ayrıseçkilik mövcud olmaqdadır. Əsas Katolik və ağ dərili olmaq üstünlükdür. Lakin bu heç də bütün argentinalıların belə düşündüyü anlamına gəlmir. Lakin elə qruplar var ki, onlar cəmiyyətlərində digər dinlərin də müəyyən mənada da olsa üstünlüyə malik olması fikrini qəbul etməkdə könülsüzdürlər.

## Azərbaycanda dinlərarası münasibətlər

Azərbaycanın tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi bu ərazidə müxtəlif dinlərin mövcudluğuna şərait yaratmışdır. Ayrı-ayrı

dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilmiş, bir-birinə qarşılıqlı təsir göstərmişdir. Azərbaycan Respublikasında müxtəlif dini konfessiyalar fəaliyyət göstərsə də, islam dini üstün mövqe tutur. 7-ci əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan islam tezliklə dünyanın böyük bir hissəsində, o cümlədən də Azərbaycanda yayılmışdır. Azərbaycan əhalisinin 95 faizindən çoxu islam dininə etiqad edir. Azərbaycanda xristianlığın tarixi, demək olar ki, Alban kilsəsindən başlayır və bütövlükdə bu dinin tarixində həmin kilsənin xüsusi yeri var. Qafqaz Albaniyasının ərazisi ilk xristian icmalarının meydana gəldiyi məkanlardan hesab edilir. Alban-udi xristian dini icmasının qeydə alınması xarakter, məzmun, dini və siyasi əhəmiyyət baxımından çox əlamətdar bir hadisədir. Azərbaycanda xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunmuşdur. Pravoslavlıq Azərbaycanda 19-cu əsrin əvvəllərindən etibarən rus çarizminin bölgədə yeritdiyi "köçürmə siyasəti" nəticəsində yayılmağa başlamışdır. Bakıda ilk Roma-katolik prixodu 19-cu əsrin 50-ci illərində çar Rusiyası tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar olaraq yaranmışdır. Azərbaycanda ilk yayılan protestant təriqəti lüteranlıqdır. Ölkəmizdə lüteranlığın yaranması XIX əsrin I yarısında almanların və polyakların Cənubi Qafqaza köçürülməsi ilə bağlıdır. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini sahədə sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin dövlət səviyyəsində qorunub saxlanılması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Onun ikinci dəfə hakimiyyətə qayıdışından sonra tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənmiş, bu sahə də dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Tarixən dinlərin və mədəniyyətlərin qovşağı olmuş Azərbaycan bu gün də eyni funksiyanı uğurla yerinə yetirir. Hazırda Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngindir. Amma xoşbəxtlikdən müxtəlif dinlərin və dini fəlsəfi cərəyanların yayıldığı Azərbaycanda bütün tarixi dövrlərdə etnik və dini icmalar arasında möhkəm dözümlülük əlaqələri formalaşmış, milli, irqi və dini zəmində heç bir ayrıseçkilik faktı qeydə alınmamışdır. Müxtəlif tarixi dövrlərdə Azərbaycan

ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini nəinki yad hesab etməmiş, hətta yerli əhali ilə qaynayıb-qarışmış, qohumluq əlaqələri qurmuşlar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olmuş, vahid Vətənimizin azadlığı və firavanlığı uğrunda mübarizə aparmışlar. Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda vuruşmuş, bu yolda canından keçmiş müxtəlif dini konfessiyalara mənsub vətəndaşlarımızın da uyuduqları Şəhidlər Xiyabanı bu gün bizim təkcə and yerimiz yox, həm də qardaşlığımızın və tolerantlığımızın simvoludur. Vətənimizdə bu cür mükəmməl tolerantlıq mühitinin yaranması dini dözümlülüyün İslamın və Azərbaycan xalqının xarakterik xüsusiyyəti və milli-mənəvi sərvəti olmasına dəlalət edir. Heydər Əliyev İslam dininin və Azərbaycan xalqının bu xarakterik keyfiyyətini çox gözəl ifadə etmişdir: "Hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var".

Xalqımızın xarakterik keyfiyyəti olan tolerantlığın daha da inkişaf etdirilməsi üçün hüquqi baza yaradılmışdır. Vətəndaşlarımızın vicdan azadlığı hüququ birbaşa Konstitusiyamızda, geniş şəkildə isə "**Dini etiqad azadlığı haqqında"** Qanunda təsbit olunmuşdur. **Konstitusiyamızın 48-ci maddəsi**nə görə, hər bir vətəndaş vicdan azadlığını, dinə münasibətini müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir. Bunlardan əlavə, ölkədə tolerantlığı, dini dözümlülüyü möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır. 2001-ci ildə dövlət-din münasibətlərinin tənzimlənməsi, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarət edilməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə fərman imzalanmışdır. Azərbaycanda və bütün regionda 16 noyabr Beynəlxalq tolerantlıq günü kimi qeyd edilir. Bu gün Azərbaycanda yalnız kilsə və sinaqoqlar deyil, eyni zamanda bir çox xristian, yəhudi dini tədris müəssisələri sərbəst, heç bir maneə olmadan fəaliyyət göstərir və onlara dövlət tərəfindən qanun çərçivəsində lazımi dəstək verilir. Çünki

dinlərə və dini fəlsəfi cərəyanlara münasibətdə tolerantlığı ilə seçilən Azərbaycan xalqı bu spesifik keyfiyyətinə görə nəinki Şərqdə, hətta bütün dünyada fərqlənmiş və bu gün də fərqlənməkdədir. Azərbaycanda müxtəlif dini konfessiyalar tərəfindən ibadət evlərinin tikintisinə və bərpasına fərqli dini icmaların nümayəndələrinin maddi və mənəvi dəstək verməsi, ianələr toplaması tarixi keçmişimizdən qalan mütərəqqi ənənədir. Azərbaycan hökumətinin din siyasətinin prioritet istiqamətlərindən biri məhz tolerantlıqla bağlıdır. Belə ki, xalqımızın minilliklər boyu formalaşmış tolerantlıq ənənələrini qoruyub saxlamaq, inkişaf etdirmək, yerli və beynəlxalq səviyyədə təşviq və təbliğ etmək dövlətin din siyasətinin əsas hədəfləri sırasındadır. Dövlətin tolerantlıq prinsiplərinə yanaşmasını həm dini konfessiyalara, müxtəlif dinlərin nümayəndələrinə, tarixi-dini abidələrin bərpasına, həm bu istiqamətdə təşkil etdiyi beynəlxalq konfranslara münasibətdə, həm də milli qanunvericiliyin mahiyyətində açıq aydın görmək mümkündür.

Hesablamalara görə, Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. Ölkə müsəlmanlarının təxminən 60- 65 faizi şiə, 35-40 faizi sünni məzhəb müsəlmanlardan ibarətdir. Xristianlığın, demək olar ki, bütün cərəyanları ölkəmizdə təmsil olunmuşdur. Belə ki, Azərbaycanda pravoslav, katolik, lüteran və protestant təriqətlərin, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar yaşayır. Ölkənin xristian əhalisi əsasən Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Katoliklər və lüteranlar daha çox Bakı şəhərində yaşayırlar.



Vaxtı ilə Şəmkir və Göygöl rayonlarında kompakt halda yaşamış alman-lüteranlar II Dünya müharibəsi zamanı Sovet hakimiyyəti tərəfindən deportasiya edilmişlər. Digər protestant təriqətlərə mənsub şəxslərin sayı bir neçə min nəfərdir. Bunlar əsasən adventistlər, baptistlər, əllincilər, Yehovanın şahidləri və digərləridir. Onlar əsasən Bakı, Sumqayıt və Gəncə şəhərlərindədir.

**Hazırda Azərbaycanda 2 mindən çox məscid, 13 kilsə və 7 sinaqoq var.**

Kilsələrdən 5-i pravoslav (Bakıda 3, Gəncə və Xaçmazda 1), 4-ü gürcü pravoslav (Qax rayonu), 1-i lüteran, 1-i katolik və 2-si Alban-udi dini icmasına mənsubdur. Yəhudi sinaqoqlarından 2-si Bakıda, 2-si Oğuzda, 3-ü Quba rayonunun Qırmızı qəsəbəsində yerləşir. İbadət evləri ilə yanaşı, respublikada xristian və yəhudi dini tədris müəssisələri, o cümlədən pravoslav kilsələri yanında bazar günü məktəbləri, protestant icmalarının Bibliya kursları, yəhudilərin ivrit dilini, yəhudi dini və mədəniyyətini öyrətmə kursları və s. fəaliyyət göstərir.

1 avqust 2015-ci ilin məlumatına görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 632 dini qurum dövlət qeydiyyatına alınmışdır. Onlardan 21-i qeyri-islam təmayüllüdür. Sonunculardan 12-si xristian, 6-sı yəhudi, 2-si bəhai və 1-i krişna şüuru dini icmasıdır.

Azərbaycan Respublikasının din sahəsində apardığı siyasət cəmiyyətdə dinin müxtəlif formalarda mövcudluğunu nəzərə alaraq, fikir, söz və vicdan azadlığı üzərində qurulmuşdur. Eyni zamanda, dövlətin din sahəsindəki siyasəti beynəlxalq hüququn prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu

beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır.

Azərbaycanda fəaliyyət göstərən dini konfessiyalar arasında tarixən formalaşmış tolerant münasibət mövcuddur. Bu münasibət qarşılıqlı hörmətə, əməkdaşlığa və zərurət yarandıqda bir-birini dəstəkləmək prinsipinə əsaslanır.



Bu gün Prezident İlham Əliyev ölkəmizdə fəaliyyət göstərən konfessiyaların dini bayramlarında və əlamətdar günlərində ayri-seçkilik qoymadan müsəlmanlara, xristianlara və yəhudilərə müraciətlər edir, dini və milli bayramlarda insanlar arasında olur, tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi üçün dövlət səviyyəsində həyata keçirilən tədbirlərin icrasına nəzarət edir.
Böyük tarixə malik dini məbədlərimizin bərpası və xalqımızın istifadəsinə verilməsi sahəsində ardıcıl tədbirlər hazırda davam etdirilir. Azərbaycanda təkcə səmavi dinlər yox, onların müxtəlif qollarının və cərəyanlarının mənsublarına da sərbəst şəkildə ibadət etmək, əqidələrini yaymaq imkanı yaradılıb.

Azərbaycan “tolerant ölkədən tolerant dünyaya doğru” şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib. Həm buna tarixi-mənəvi haqqı olması, həm beynəlxalq nüfuzu, həm də gələcəyə yönəlik planları nöqteyi-nəzərindən Azərbaycanın qarşısına belə bir məqsəd qoyması təbii və zəruri prosesdir.

Eyni zamanda, Azərbaycan hökuməti tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müxtəlif tərəflərin bir araya gəlməsi

istiqamətində kifayət qədər tədbirlər həyata keçirib. Azərbaycan son on ildə bu sahədə onlarla beynəlxalq və regional konfrans, forum və simpoziumlara ev sahibliyi edib. Fəxrlə deyə bilərik ki, bu gün beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi.

Bunlardan əlavə, Azərbaycan tolerantlıq və multikulturalizm sahəsində təcrübəsini yaymaq və təbliğ etmək, eləcə də bu dəyərləri beynəlxalq aləmdə təşviq etmək məqsədilə nüfuzlu təşkilatlarla, o cümlədən BMT, UNESCO, İSESCO, ATƏT və digər qurumlarla yaxından əməkdaşlıq edir.
Azərbaycanda din sahəsində aparılan dövlət siyasətinin, ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa dəstək verməsinin beynəlxalq aləmdə təbliğ edilməsi, eləcə də ölkəmizin tolerantlıq təcrübəsinin yayılması baxımından əhəmiyyətli tədbirlərdən biri də 26-27 aprel 2010-cu ildə keçirilmiş Dünya Dini Liderlərinin Bakı Sammiti olub. Qafqaz Müsəlmanları İdarəsi və Rus Pravoslav Kilsəsinin təşəbbüsü ilə təşkil edilmiş Sammitin maliyyələşdirilməsini Azərbaycan hökuməti öz üzərinə götürüb. Sammitdə dünyanın nüfuzlu dini mərkəzlərinin nümayəndələri, o cümlədən Rus Pravoslav, Gürcü Pravoslav, Erməni Qriqorian kilsələrinin rəhbərləri, Vatikanın, Konstantinopol Patriaxlığının, İslam dünyasının nüfuzlu din xadimləri iştirak ediblər. Şübhəsiz ki, bu sahədə Azərbaycanın təşkilatçı kimi ev sahibliyi etdiyi mötəbər tədbirlərdən biri Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumudur. İndiyədək Bakıda üç dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunub və hər dəfə uğurlu nəticələr əldə edilib. Beynəlxalq aləmdə Bakı prosesi kimi təqdim və qəbul edilən bu Forum dünyada mütəmadi keçirilən mötəbər tədbirlərdən hesab olunur. Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri "Dövlət və din: qloballaşan dünyada tolerantlığın gücləndirilməsi" mövzusunda I Beynəlxalq Bakı Forumudur. Tədbirdə qeyd olunan sahədə vahid prinsipləri özündə ehtiva edən "Bakı Platforması" adlı sənəd qəbul edilib. Forumun işinə 30-dan artıq ölkədən nümayəndələr qatılıb və onun mütəmadi keçirilməsi barədə qərar qəbul olunub. 2017-ci il dekabrın 21-22-də Bakıda "2017 - İslam

Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfrans keçirilib. “İslam Həmrəyliyi İli”nin yekunlaşması ilə bağlı keçirilən konfrans Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunub. Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söyləmişdir. Bu gün Qərbdə tolerantlıq ənənələrinin təbliğini və yayılmasını əhəmiyyətsiz hesab edənlər də var. Lakin tolerantlıq hüquqi dövlətin yox, mədəni və mənəvi cəhətdən inkişaf etmiş cəmiyyətin məhsuludur. Bu gün Azərbaycanı və azərbaycanlıları fərqləndirən xüsusiyyət də məhz budur.